# Quranda İnsanşünaslıq

## Quranın tematik təfsiri (1)

**Höccətül-İslam Vəl-Muslimin**

**Məhəmməd Baqir Saivər**

Tbilisi 2021

# Quranda İnsanşünaslıq

## *Quranın tematik təfsiri (1)*

**Müəllif:**
**Höccətül-İslam Vəl-Muslimin**
**Məhəmməd Baqir Saivər**

**Tərcümə edən:**
**F.ü.f.d. Dosent Aygün Əlizadə**

**Redaktor:**
**Hacı Elçin Əliyev**

**Korrektor:**
**Hacı Elvin Bayramov**

**"İman" Mədəni-Maarif Müəssisəsi**

## Müqəddimə

“Quranda insanşünaslıq” mövzusu, Allahın insana verdiyi məqamın araşdırılması və tanıdılması baxımından böyük əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, bu kitabda yer alan dərslər ilk olaraq “Camiətul-Mustafa” Universitetində tədris olunmuşdur.

Kitab otuz üç dərsdən ibarətdir. Müəyyən başlıqlar altındakı dərslər, ilk olaraq ətraflı şəkildə izah olunur, daha sonra həmin dərsin nəticələri qısa formada oxuculara təqdim olunur.

Hazırkı kitab dini təhsil alan tələbələr və Quranın “İnsanşünaslıq” mövzusuna maraq göstərən ümumi oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

# Birinci dərs

# İnsanşünaslıq

İnsanşünaslıq mövzusunu araşdırmadan öncə, yaxşı olar ki, Qurana məxsus olan “Təfsir” (açıqlama) elmi ilə qısa şəkildə tanış olaq. Bildiyimiz kimi, Allah-taala Cəbrayıl mələyinin vasitəsi ilə, Peyğəmbərə (s) İlahi kəlamları çatdırmaqla, insanlara bir çox dəyərli və dərin mənalı ismarıclar göndərdi. Çox dəyərli olan bu mühüm qeybi xəbərləri dəqiq və düzgün formada başa düşmək üçün, Peyğəmbər (s) və İmamların (ə) nurlu kəlamlarından istifadə etmək lazımdır.

Tarix boyu alimlər, Peyğəmbər (s) və İmamların (ə) elmindən bəhrələnib, Quranın ayələrini daha düzgün və dəqiq formada insanlara başa salmağa çalışıblar. Uzun illər çalışmalar nəticəsində, islam dünyasında “Təfsir” adlı elm daha geniş şəkildə yayılmağa başladı.

Qurani-kərim üçün çoxsayda və cildlərlə təfsir kitabları yazılıb. Amma bu təfsir kitablarının hər birini mütaliə etsək, Quranın təfsirinin iki növ olduğunu görə bilərik.

Beləliklə deyə bilərik ki, Quranın təfsiri iki növdür:

**Tərtibi təfsir:**

Məqsəd Qurandakı ardıcıllıqla ayələrin məqsədinin aydınlaşdırılmasıdır.

**Mövzuyi təfsir:**

Bu növ təfsir isə, bir mövzu haqqında Quranın baxışının araşdırılması, həmin mövzu haqqında Quran ayələrinin toplanması, hissələrə bölünüb, təhlilidir.

Quranın söhbət açdığı ən mühüm mövzulardan biri də, insan mövzusudur. Bu müqəddəs kitabın əsas mövzusu, insanın doğru yola yönəlməsi barədə olsa da, eyni zamanda bu kitab insanın həqiqətindən də söhbət açır.

İnsanın doğru yola hidayət olması üçün, insanşünaslıq çox vacib mövzulardan biridir. Quran bu mövzunu daha ətraflı bəyan etmək üçün, ənfusi və afaqi ayələrə işarə edir.

Bu nöqteyi nəzərdən quran ayələri iki hissəyə bölünür:

**1 – Afaqi ayələr**

Afaqi ayələr, xarici ayələr anlamındadır. Bu mənada ki, insan xarici varlıqlara diqqət yetirməklə, Allahın varlığını dərk edir.

**2 – Ənfusi ayələr**

Ənfusi ayələr isə, daxili ayələr və nişanələr mənasını ifadə edir. Məqsəd budur ki, insan öz daxilindəki pak fitri hissləri vasitəsi ilə Allahın varlığını dərk edə bilir.

Əgər insan öz daxili istedadlarını tanısa, doğru yola hidayət olar və Allahın yolunda daha rahat şəkildə addımlayar.

Hər şeydən öncə və ən önəmli məsələlərdən biri də budur ki, gərək insanın xilqətinin necəliyini dərk edək. Yəni insanın yaradılış mərhələ və prosesini dəqiqliklə dərk etmiş olaq.

Quran insanın xilqəti haqqında danışarkən, iki növ yaradılış növünə işarə edir:

**1 – Cismi yaradılış** (İnsanın torpaqdan yaranması)

İnsan cism olaraq torpaqdan yaradılıb və onun ilk yaradılış cinsi və növü, torpaqdan olub.

Bu barədə Allah-taala Muminun surəsinin 12-ci ayəsində buyurur:

«وَ لَقَدْ خَلَقْنَا الْإِنْسَانَ مِنْ سُلاَلَةٍ مِنْ طِينٍ»

“Həqiqətən, Biz insanı süzülmüş palçıqdan yaratdıq”.

Həmçinin Muminun surəsinin 14-cü ayəsində buyurur:

« ثُمَّ خَلَقْنَا النُّطْفَةَ عَلَقَةً فَخَلَقْنَا الْعَلَقَةَ مُضْغَةً فَخَلَقْنَا الْمُضْغَةَ عِظَاماً فَكَسَوْنَا الْعِظَامَ لَحْماً ثُمَّ أَنْشَأْنَاهُ خَلْقاً آخَرَ فَتَبَارَکَ اللَّهُ أَحْسَنُ الْخَالِقِينَ

“Sonra nütfəni laxtalanmış qan, (rüşeym) halına saldıq, sonra laxtalanmış qanı bir ət parçasına çevirdik. Sonra ət parçasını sümüklərə çevirdik, sonra sümükləri ətlə örtdük. Sonra da onu başqa bir yaradılışla inşa etdik (insan halına saldıq). Yaradanların ən gözəli olan Allah çox ucadır ”.

**2 – Ruhi yaradılış**

Məqsəd budur ki, Allah-taala insanı torpaqdan yaratdıqdan sonra, ona həyat bəxş etmək üçün, ruh da verib. Bu barədə Allah buyurur:

(نَفَخْتُ فِيهِ مِنْ رُوحِي)

(Ona) Öz ruhumdan üfürdüm”.[1]

---

1 Hicr, 29.

Ayədən açıq şəkildə başa düşülür ki, Allah insana xüsusi bir ruh verib. Bu ayədə diqqət edəcəyimiz məsələlərdən biri də budur ki, "Öz ruhumdan üfürdüm" cümləsindən, Allahdan hər hansı bir şeyin azalması anlaşıla bilər. Bir halda ki, bu heç də belə deyil. Allah bu cümləni ona görə bu tərzdə işlədib ki, insanın ruhunun şərafət, əzəmət və dəyərini çatdırsın. Yəni Allah insana özündən ayırıb bir ruh verməyib, bəlkə ona çox qiymətli və əzəmətli bir ruh bəxş etdiyi üçün, onu bu cür ifadə edir.

Əgər Muminun surəsinin yuxarıda zikr olunan 14-cü ayəsinin sonuna diqqət yetirsək, görərik ki, Allah bu yaradılış prosesini bəyan etdikdən sonra, öz əzəmət və ucalığına işarə edərək, özünü mədh edir.

**«فَتَبَارَكَ اللَّهُ أَحْسَنُ الْخَالِقِينَ»**

Yəni ruhun o qədər əzəməti vardır ki, Allah-Taala özünü tərifləyir və insan ruhunun əzəmətini də, elə bu ayə göstərir.

**«وَ لَقَدْ كَرَّمْنَا بَنِي آدَمَ»**

"Həqiqətən biz Bəni Adəmə (insan) kəramət libası geyindirdik".[1]

Bu ayə, insanın kəramət sahibi, həmçinin qiyaməti dərk edə biləcək bir varlıq olduğunu sübut edir. Amma insanla müqayisədə, digər varlıqlar bu dəyərdən məhrumdurlar. Ona görə də insan kəramət sahibidir.

Burada ortaya belə bir sual çıxır ki, bəs Kəramət libası nədir?

Bəzi təfsirlərdə insan bədəninin zahiri və quruluşu, kəramət kimi açıqlanır. Belə ki, insanın iki ayağı ilə getdiyi, əlləri ilə yazdığı və yediyi, həmçinin bir çox problemlərini həll edə biləcəyi üçün, bu insan üçün kəramət libası sayılır.

Fəxri Razinin təfsirində insan kəramətinin 10 cəhətinə işarə edilmişdir ki, onların hamısı insanın bədən və cisminə qayıdır.

Amma Quranın baxışına əsasən, insanın kəraməti, yalnız yuxarıda izah olunduğu kimi deyil. Qurana görə kəramət iki növdür:

1 – Qazanılan kəramət

Qazanılan kəramət, insanın özünün əldə etdiyi kəramətlərə deyilir. Misal üçün insanın təqva əldə etməsi, onun üçün kəramət hesab edilir. Bu barədə Allah buyurur: "Şübhəsiz, Allah yanında sizin ən dəyərliniz, ən təqvalı olanınızdır.[2]

---

1 İsra, 70.
2 Hücərat, 13.

«إِنَّ أَكْرَمَكُمْ عِنْدَ اللَّهِ أَتْقَاكُمْ»

2 – Zati kəramət

Zati kəramət isə, bir qədər əvvəl qeyd etdiyimiz kimi, insanın yaranışında qoyulmuş kəramətlərə deyilir.

"Şübhəsiz, Adəm oğullarını (bir çox nemətlər verməklə) şərəfləndirdik.(İsra,70).

«وَ لَقَدْ كَرَّمْنَا بَنِي آدَمَ»

**İnsan ruhunun növləri**

İnsanın iki növ ruhu vardır:

1 – İnsani ruh

Bu ruh yalnız insanlarda var və insanı digər canlılardan fərqləndirən və üstün tutan, məhz bu ruhdur. Bu ruh insanın əqli və ixtiyar qüdrətinin vasitəsi ilə, insanın cismini hərəkətə salır. Bu ruhun köməyi və gücü sayəsində, insan bir çox həqiqətləri dərk edir, sevir, nifrət edir və düşünür.

2 – Heyvani ruh

Bu növ ruh bütün canlılarda var. İnsan və digər canlılar bu ruhun vasitəsi ilə öz cismini hərəkət etdirir.

İnsanın ruhu o qədər dəyərlidir ki, Allah həmin ruhu özünə aid edir və buyurur: "(Ona) Öz ruhumdan üfürdüm".[1]

«نَفَخْتُ فِيهِ مِنْ رُوحِي»

Beləliklə "Şübhəsiz, Adəm oğullarını (bir çox nemətlər verməklə) şərəfləndirdik".[2] ayəsini oxuyanda, insanın kəramət, dəyər və böyüklüyünə işarə edildiyi məlum olur.

«لَقَدْ كَرَّمْنَا بَنِي آدَمَ»

"İnsanın kəraməti var" cümləsinin anlamı budur ki, insan növü digər varlıqlardan fərqlidir. İnsan aləmdə digər varlıqlarla müqayisədə, daha şərafətlidir. Bunun səbəbi isə, insanın zati kəramətindən qaynaqlanır.

İnsan ruhunun bir çox xüsusiyyətləri vardır ki, onlardan biri də, onun ruhuna yaxşı və pisin ilham olunmasıdır.

Bu barədə Allah buyurur: And olsun nəfsə, onu yaradıb surət verənə, Ona şər və xeyir duyğularını ilham edənə (and olsun)![3]

---

1 Hicr, 29.
2 İsra, 70.
3 Şəms, 7-8.

«وَ نَفْسٍ وَ مَا سَوَّاهَا فَأَلْهَمَهَا فُجُورَهَا وَ تَقْوَاهَا»

Yəni bu ruha həm yaxşı, həm də pis ilham olunmuşdur. Yaxşı və pisin ilham olunması bu mənadadır ki, insanın daxili və fitrətində yaxşı və pisi bilən nur vardır. Beləliklə daxildə yaxşılığa doğru meyli, pisliyə qarşı isə nifrət var. Bunları nəzərə alaraq deyə bilərik ki, fəsad və təqvanın ilham olunması, yalnız insana məxsusdur.

## *Birinci dərsin xülasəsi*

**Kəramət**

İnsanşünaslıq Quranda əhəmiyyətli mövzulardan biridir və bu mövzu, insanın hidayətində mühüm rola malikdir.

Bu mövzuda ilk araşdırma, insan varlığının bədən və ruhdan yaradılması haqqındadır.

"İsra surəsinin 70-ci ayəsinə əsasən Allah-taala insana həm kəramət vermişdir, həm də fəzilət".

Kəramət bir növ mənəvi böyüklük, dəyərli olmaq, qiymətin yüksək və ali olması mənasındadır.

Quran ayələrinə görə "Kəramət" iki hissəyə bölünmüşdür:

1. Qazanılan kəramət: İnsanın özünün qazanması ilə əldə edilən kəramət.
2. Zati kəramət: Allah-taalanın insanın xilqəti və zatında yaratdığı və insana bəxş etdiyi kəramət.

# İkinci dərs

# İnsanın kəraməti

İnsanın varlığı və xilqəti, digər varlıqların xilqəti ilə müqayisədə çox üstündür.

İnsanın özünün əldə etdiyi və qazandığı kəramət, təqva və alicənablıqdır. Bu vasitə ilə də insan izzət qazanır və Allahın dərgahında uca məqama sahib olur.

Quranın xəbər verdiyi kəramət isə, insanın varlığının daxilidir və bu, böyük bir sərmayədir. Ona görə də Allah buyurur: Şübhəsiz, Adəm oğullarını (bir çox nemətlər verməklə) şərəfləndirdik.[1]

«لَقَدْ كَرَّمْنَا بَنِي آدَمَ»

Muminun surəsinin 14-cü ayəsində cismin dəyişməsi, ət, sümük və digər üzvlərin yaranmasından söhbət açılır. Ruh isə fərqli və böyük bir sərmayədir və insan bu böyük sərmayə ilə yaradılıbdır. İnsanın varlığında gizli sərmayə, onun ruhudur. Quran buyurur ki, siz insanlar dünyaya gələndə bir şey bilmirdiniz, amma Allah, sizə bəxş etdiyi ət, göz, ağıl, qəlb və bu kimi vasitələr ilə, sizə bəzi elmləri öyrətdi ki, bunların köməyi ilə elm və təcrübə qazanasınız. Lakin bəzi elmlər, insanın yaradılışının ilk günündən, onun daxilində mövcud olub. Bu elmləri Allah-Taala insanın daxilinə ilham etmişdir.

İnsan varlığının əsas cövhəri də, elə həmin elmlərdir. (Günah və təqva insanın ruhu və varlığına ilham olunmuşdur).

Fücur yəni pisliyi dərk etmək, başqasına zülmü dərk etmək, başqasının haqqının tapdanmasını dərk etməkdir ki, bu halların dərkinin öyrənməyə ehtiyacı yoxdur. Bu halların dərki fitri və zatidir və insanın varlığı ilə bağlılığı vardır.

Allah buyurur: And olsun nəfsə, onu yaradıb surət verənə, ona şər və xeyir duyğularını ilham edənə (and olsun)![2]

Yəni Allah bizə bildirir ki, insanı varlıq sərmayəsi ilə yaradıb, onun vicdanında xeyir və şərri qalıcı olaraq ilham edib.

Allah-Təala insanın bu gizli sərmayəsini Peyğəmbərlər (s), İmamlar

1 İsra, 70.
2 Şəms, 7-8

(ə) və səmavi kitablarla qüvvətləndirir. Allah pislik (fücur) və yaxşılığı (təqva) insanın daxilində yerləşdirmişdir. Bunları dərk etmək üçün insanın yüz faiz Peyğəmbər (s) və səmavi kitablara ehtiyacı yoxdur, lakin Peyğəmbər (s) və səmavi kitablar, təqva və hidayət yolunda inasanı daha da qüvvətləndirir.

İnsandakı elm,  iki növ sərmayə şəklində mövcuddur:

Belə ki, insanın daxili varlığı futbol meydançası kimi deyil. İnsanın daxili varlığı zərərli şeyləri uzaqlaşdırır, faydalı və yaxşıları isə cəzb edir. İnsan pisliklərə nifrət edir və uzaqlaşır, yaxşılıqlara meyl edir. Elə bu, insandakı böyük sərmayənin varlığının göstəricisidir.

«لَقَدْ كَرَّمْنَا بَنِي آدَمَ»

## *İkinci dərsin xülasəsi*

**Kəramət və daxili sərmayələr**

İnsanın zati kəramətinin hissələrindən biri də, insanın xilqətinin əzəmətidir. Belə ki, insan çox dəyərli olan daxili bir sərmayə ilə yaradılmışdır. Şəms surəsinin 8-ci ayəsində bu mövzuya işarə edilir. Ona şər və xeyir duyğularını ilham edənə (and olsun)!.

Fücur və təqvanın ilhamından məqsəd aşağıdakılardır:

A) Mərifət və agahlıqla yaxşı və pisin seçilməsi

Yəni insan öz daxilindəki pak vicdan və agahlıq vasitəsi ilə yaxşılıqları seçir, pis işlərə qarşı isə ikrah hiss edib, onlardan uzaqlaşır.

B) Təmayül və istəklə yaxşılıqlar və paklıqlara daxili meyl, pisliklərə isə daxili nifrət

Məqsəd budur ki, insan öz istəyi və seçimi ilə yaxşılıqları seçir, pis işləri isə kənara atır.

Bu barədə Allah buyurur: Nəfsini günahdan təmizləyən nicat tapmışdır. Nəfsini günaha batıran isə ziyana düşmüşdür.[1]

قُد اَفلَحَ مَن زَكّها وَ قَد خابَ مَن دَسّها

Zikr olunan ayəyə istinadən, əgər insan daxili sərmayəsini puç edib, öz pak fitrətinin üstünü örtsə, onun daxili nuru sönər.

1 Şəms, 9-10.

Nur surəsinin 40-cı ayəsinə əsasən insan günah nəticəsində daxili sərmayələrini zülmətə çevirər və bu günahlar nəticəsində nəinki paklıqları görməkdən aciz qalar, bəlkə öz varlığından da qafil olar.

Yaxud (o kafirlərin əməlləri) dərin bir dənizdəki qaranlığa bənzəyər. (Elə bir dəniz ki,) onu dalğa üstünə dalğa örtər. Onun da üstündən bir bulud! Bir-birinin üstündəki qaranlıqlar! O, əlini çıxartsa, az qala onu görməz. Allah bir kimsəyə nur (hidayət) verməyibsə, artıq onun nuru (hidayətdən nəsibi) yoxdur.[1]

---

1 Nur, 40.

# Üçüncü dərs

# Adəmin xilqəti

«إِنِّي جَاعِلٌ فِي الْأَرْضِ خَلِيفَةً»

“Mən yer üzündə bir xəlifə yaradacağam”[1]

İnsana xas olan ən önəmli məsələlərdən biri də, onun Allah xəlifəsi olmasıdır. Yuxarıda qeyd olunan ayə, bizə bu mövzunu açıq şəkildə çatdırır. Əgər insan özünün xəlifətullah (Allahın xəlifəsi) olmasını araşdırsa, kəramətin sirrini daha yaxşı başa düşər və bununla da dərk etmiş olar ki, niyə başqa varlıqlar yox, məhz o kəramət sahibidir.

**Xəlifəliyin mənası**

- Alimlərin bəzisi xəlifəliyi canişinlik mənasında izah edirlər. Onların fikrinə görə, insan digər varlıqlardan fərqli olduğuna görə, elə yer üzündə Allahın canişini də, məhz insandır. **(خليفة الماضين)** – (Yer kürəsində keçmişdə yaranmış bütün insanların xəlifəsi).
- Bəziləri də deyir ki, Allahın xəlifələri, yer üzərində yaşayan mələklərdirlər. **(خليفة الملائكه)** – (Mələklərin xəlifəsi).

Amma Quran ayələrindən belə məlum olur ki, xəlifətullah Allah-Təalanın cilvəsidir. Yəni insanda Allahın sifətlərini özündə cilvələndirmək istedadı vardır. Əgər belə olmasaydı, niyə mələklər “Bu varlıq qan tökür, fəsad edir və biz sənin təsbihinə layiqik” deyə etiraz etmişdilər?

Mələklərin bu etirazı onu göstərir ki, məqsəd mələklərin və ya insanın xəlifə olması deyildi. Allah-taala mələklərə əsmanı öyrətdikdən sonra, onlara insanın yüksək məqamını göstərir.

Həqiqətdə bu prosesdə mühüm bir məsələ vardır ki, yalnız Adəm məsələsi yox, insan məsələsidir. Belə ki, bu mövzuya yalnız Adəmin məsələsinin qoyulması düzgün deyil. Yəni bütün insanlar xəlifətullahdırlar. Bütün insanlarda Allahın cilvəsi olmaq qabiliyyəti vardır. Bu kəramət varlıqlardan heç birinə verilməmişdir. İnsan

---

1 Bəqərə, 30.

xəlifətullah olduqda Allahın izni ilə elə işlər görə bilər ki, Allahın xəlifəsi olar və qeyri-adi işlər görə bilər.

**İnsanşünaslıq:**

İnsanşünaslıq insanın xilqətində mövcuddur və onun müxtəlif həqiqətlərə sahib olması, insanı tanıma mövzusunu ortaya çıxarır. Əgər insanşünaslıq mövzusuna Allah, mələklər və şeytan tərəfindən baxılsa, belə nəticə çıxarmaq olar :

1 – Şeytan (İnsanın keçmişini görür); (Çünki insan torpaqdan yarandığını bilir).

2 – Mələklər (İnsanın indisini görür); (Qan tökür və fəsad törətdiyini bilir) .

3 – Allah (İnsanın gələcəyini görür); (xəlifətullah olmaq istedadından xəbəri var).

Əllamə Təbatəbayi buyurur: İnsan təbiət baxımından heyvan, fitrət baxımından insandır. İnsanla heyvan arasında fərq budur ki, heyvan insan ola bilməz, amma əgər insan öz daxili istedadına çatmasa, özünü yuxarı çəkməsə, heyvan məqamında ola bilər, şəhvət və keçmişi ilə yaşaya bilər. Amma əgər öz dəyərini bilsə, xəlifətullah olar.

Mələklər insanın daxili istedadını görə bilmirlər, çünki mələklərin varlığında dəyişiklik adlı hiss yerləşdirilməmişdir. Quran mələklər haqqında buyurur:

« وَ مَا مِنَّا إِلاَّ لَهُ مَقَامٌ مَعْلُومٌ »

(Mələklər belə deyərlər:) “Bizim hər birimizin müəyyən bir məqamı vardır. (Saffat,164).

Şeytan insanın keçmişini görürdü. İnsanlara keçmişlərinə görə tənə vuranlar, həmin şeytani hissi özündə gücləndirən şəxslərdir. Ona görə də, insanın gələcəyinə ümid edib, onun gələcəyi üçün kömək etmək çox önəmlidir.

## *Üçüncü dərsin xülasəsi*

**Kəramət və insanın əxlaqı**

* İnsan kəramət sahibi olma səbəblərindən biri, onun xəlifətullah (Allah xəlifəsi) olmasıdır.

* Bəqərə surəsinin 30-cu ayəsi yalnız Adəmin deyil, insanın xəlifəliyinə də işarə edir.

* Xəlifə, öz müdirinin işlərini və onun niyyətlərini yerinə yetirməlidir.

İnsanın xəlifəliyi cərəyanında üç növ insanşünaslıq ortaya çıxır:

A) İnsanın keçmişinə olan baxış – O torpaqdır (Şeytanın insanşünaslıq baxışı).

B) İnsana hal-hazırdakı olan baxış – O heyvandır (Mələyin insanşünaslıq baxışı).

C) İnsanın gələcəyinə olan baxış – O xəlifətullahdır (Xaliqin insan barədə olan insanşünaslığı).

# Dördüncü dərs

# Əsmaullahın təlimi

Quran Bəqərə surəsinin 31-ci ayəsində, insanın bütün əsmanı öyrənə biləcək bir varlıq olduğuna işarə edir və diqqəti, onun bu qabiliyyətinə tərəf yönəldir. Beləliklə, Allah-Taala insana həmin təlimi verdiyini söyləyir «وَ عَلَّمَ آدَمَ الْأَسْمَاءَ كُلَّهَا»

Burada ortaya belə bir sual çıxır ki, Əsmadan məqsəd nədir?

İnsan bütün əsmanı öyrənə bilər? Allahın təlimindən məqsəd nədir?

İlk öncə bilməliyik ki, "Əsma" ismlər mənasındadır və ayədəki Əsma sözündən məqsəd, onun lüğət mənası deyil. Belə deyil ki, həzrət Adəm lüğətşünas olub.

- Bəzi təfsirlərdə əsmadan məqsəd belə izah olunur ki, insan aləmdəki məxluqatın varlıq sirlərini öyrənə bilər. Yəni insanın aləmin sirlərini öyrənmə qabiliyyəti vardır.
- Əsmanın başqa bir təfsiri isə, əsmaullahdır. Yəni insan Allahın bütün isimlərini özündə cəmləşdirə bilər. Çünki insan, xəlifətullah olan yeganə varlıqdır.

Bütün varlıqlar Allahın nişanəsidir və Allahın 101 adını özündə cilvələndirə bilən kəs xəlifətullah olar.

Mələyin iki məsələdə insanla fərqi vardır:

A) Mələk təklikdə və birbaşa Allahdan öyrənə bilməz və insan vasitəsilə öyrənməlidir. Buna görə də Allah Həzrət-Adəmə buyurur: "Ey Adəm, bunların adlarını onlara bildir![1]

قَالَ يَا آدَمُ أَنْبِئْهُمْ بِأَسْمَائِهِمْ

Mələklər kamil insandan öyrənməlidirlər (təlim). Bu ayədən nəticə alırıq ki, kamil insan elə bir mənəvi dərəcəyə çata bilər ki, mələklərə müəllimlik edə bilər.

B) Mələklər təlim verə bilmir və yalnız müəyyən xəbərlərə malik ola bilərlər.

Belə ki, mələklər yalnız aləmin sirləri və əsmaullahdan xəbərdar ola bilərlər. Amma insan, aləmin sirləri və əsmaullahı öyrənmişdir.

1 Bəqərə, 33.

«أَنْبَأَهُمْ بِأَسْمَائِهِمْ»

“Bunların adlarını onlara bildir!”[1]

İnsanın xəlifətullah olması cərəyanında səcdə hadisəsi də vardır. Həmin hadisədə, Allah əmr edir ki, mələklər Adəmə səcdə etsinlər.

«وَ إِذْ قُلْنَا لِلْمَلاَئِكَةِ اسْجُدُوا لِآدَمَ فَسَجَدُوا إِلاَّ إِبْلِيسَ أَبَى وَ اسْتَكْبَرَ»

Biz mələklərə: “Adəmə səcdə edin!” – dedikdə İblisdən başqa hamısı səcdə etdi. O isə təkəbbürlənərək boyun qaçırdı və kafirlərdən oldu.[2]

Mələklərin səcdə etməsinin vacibliyi haqqında bir neçə təfsir vardır:

A) İnsan mələklər üçün qiblədir, çünki bu səcdəni mələklərə Allah əmr etmişdi. (Bu, insanın əzəmətini çatdırır).

B) Mələklər səcdə etməliydilər, çünki mələklərin yaranışı kamil insan olmağın xilqətindədir.

Şeytanın Adəm qarşısında səcdə etməməsinin səbəbi:

1 – Şeytan şəriət aləmində yox, ümumiyyətlə Allahın əmrindən çıxıb, səcdə etmir və bu səcdədən imtina edir.

2 – Şeytanın yaranışı, insana xidmət etmək yox, bəlkə onu vəsvəsə etmək üçündür.

İnsan yer üzündə yaşamaq üçün beş təlim kursunu keçməlidir:

1) Öz dəyərini bilməlidir: İnsan əsmaullahın, bütün aləmin sirlərinin maliki hətta mələklərin müəllimi ola bilər.

2) Öz dostunu tanımalıdır: Mələklər insanın ixtiyarındadır və o, mələklə dost ola bilər.

3) Öz xarici düşmənini tanımalıdır: İnsanın düşməni Şeytandır və Şeytan, onun inkişafına maneçilik törədir.

Şeytanın insana qarşı olan düşmənçiliyinin səbəbi budur ki, o and içmişdir ki,

A) Vəsvəsə edəcək, B) Səcdədən imtina etmişdir.

4) İnsan öz daxilindəki düşmənini də tanımalıdır: Tamah insanın daxili düşmənlərindən biridir və insanın ayağını sürüşdürüb, harama tərəf çəkə bilər.

5) İnsan tövbə edə bilər: İnsan günah edib, mənəvi yolda yıxıla bilər və bununla da hər şey bitər. Amma Allah tərəfindən onun üçün rəhmət vardır və bu rəhmət, tövbə qapısıdır.

---

1 Bəqərə, 33.
2 Bəqərə, 34.

## *Dördüncü dərsin xülasəsi*

**Təlim kursu**

Allah tərəfindən əsmanın təlimi prosesində "Əsma"-dan məqsəd:

A) Əşyaların fəlsəfə, sirlər, keyfiyyət və xüsusiyyətləri

B) Əsmaullah (Allahın adları).

İnsanın mələkdən iki fərqi vardır.

1) İnsan birbaşa Allah tərəfindən təlim alır, mələk isə, kamil insan vasitəsilə.

2) İnsan elmə çatır, amma mələk yalnız xəbər əldə edə bilər.

Kamil insanın xəlifəliyi və Adəmin (ə) yerə enməzdən qabaq xəlifətullah olmaq prosesində, Allah-Taala insan üçün beş təlim kursu təşkil edir ki, həmin beş təlim kursunun vasitəsi ilə, insana yerdə yaşamaq şəraiti hazırlanmış olur. Bu beş təlim kursu aşağıdakılardan ibarətdir:

1) İnsan dəyərinin tanınması (Xəlifətullah ola bilər).

2) Xəlifətullah olma yolunun tanınması (Əsmanın təlimi).

3) Kamal yolunda insanın dost və yardımçısının tanınması (Mələklərin səcdəsi).

4) İnsanın daxili və xarici düşməninin tanınması (Şeytanın təkəbbürü və Adəmin vəsvəsəsi).

5) Məğlubiyyətdən sonra qayıdış yolu (Tövbə).

# Beşinci dərs

## Kəramət və ilahi əmanət

«إِنَّا عَرَضْنَا الْأَمَانَةَ عَلَى السَّمَاوَاتِ وَ الْأَرْضِ وَ الْجِبَالِ فَأَبَيْنَ أَنْ يَحْمِلْنَهَا وَ أَشْفَقْنَ مِنْهَا وَ حَمَلَهَا الْإِنْسَانُ إِنَّهُ كَانَ ظَلُوماً جَهُولاً»

Həqiqətən, Biz əmanəti göylərə, yerə və dağlara təklif etdik. Ancaq onlar bunu yüklənməkdən imtina etdilər və ondan (məsuliyyətindən) qorxdular. İnsan onu yükləndi. Həqiqətən, o, çox zalım və çox cahildir.[1]

Quranın müxtəlif yerlərində, insanın xəlifətullah olması və kəraməti haqqında bəhs olunmuşdur. İnsanın kəraməti ilə bağlı olan, həm də özü müstəqil bir mövzu olan məsələlərdən biri də, insanın əminullah (Əmanət daşıyan bir varlıq) olmasıdır. Bu mənada ki, insanlar bir növ əmanətə sahibdilər ki, həmin əmanət digər varlıqlarda yoxdur.

Ona görə Allah-taala buyurur: Biz əmanəti təqdim etdik...[2]

« إِنَّا عَرَضْنَا الْأَمَانَةَ »

Yəni onu (Əmanəti) insanın qarşısına qoyduq.

Əmanət insan üzərində bir vəzifə və borcdur. Hər bir insan bu əmanət qarşısında iki növ davrana bilər. Onlardan biri müsbət və bəyənilən, digəri isə mənfi davranışdır. Həmin davranışlar aşağıdakılardan ibarətdir:

1. İnsan öhdəsindən gələ biləcək işi yerinə yetirsin.(Əlbəttə həmin işi yerinə yetirərkən, heç bir sıxıntı və problem yaranmadığını bilsə).

2. İnsanın əlindən gəlir amma tənbəllik edir. (Əməldə problemi vardır)

İnsan özünə zülm edəndə bu əmanətə zülm edir. Bu həmin əmanətdir ki, insan onu əməl mərhələsinə çatdıra bilir, amma diqqətsizlik edir.

İnsanın Allahın verdiyi əmanətdə istedadı vardır. Əmanətdən məqsəd nədir? Bu barədə müxtəlif təfsirlər mövcuddur.

Aşağıda həmin açıqlamaları gətiririk:

Bir: İnsan ilahi vilayətə çatdıqda, Allah bəndəsi olar. Bəndəliyin son həddi budur ki, insan Allah övliyalarından olsun.

---

1 Əhzab, 72.

2 Əhzab, 72.

İki: İnsanın ixtiyar və iradəsi: İnsandan başqa aləmdə olan varlıqların iradə və ixtiyarı yoxdur.

Üç: İnsanın ağlı: Dərk və anlamanın ən üstün dərəcəsinə malik olan yeganə varlıq insandır.

Dörd: İnsanın bədən üzvləri: İnsanın qulaq, göz, əl, ayaq kimi bədən üzvləri İlahi əmanətdirlər və bu üzvlərlə günah İlahi əmanətə xəyanətdir.

Beş: Allahı tanımaqdır ki, həmin Mərifətullahdır.

Altı: İlahi vacibat və göstərişlər.

Əgər insan İlahi əmanətə xəyanət etməsə, Vəliyullah olur və öz ixtiyarı ilə kamil insan ola bilər.

Quran Əhzab surəsinin 72-ci ayəsində buyurur: Biz əmanəti...təklif etdik..

« ... إِنَّا عَرَضْنَا الْأَمَانَةَ »

Məqsəd budur ki, dağlar, yer və göylərin yaranışında belə ixtiyari şəkildə kamil olma məsuliyyətini qəbul etmək yoxdur. Amma bu, insanın yaranışında yerləşdirilmişdir. Allah-Təala Quranda buyurur: Bəzi insanlar dünyada elə yaşayırlar ki, öz dəyər və istedadlarını unudurlar, belə insanlar günbəgün tənəzzül edirlər və düzgün yolu itirirlər. Amma öz dəyər və istedadlarını bilən və yadlarında olan insanlar hidayət olunurlar.

Ən böyük dərd budur ki, insan özünü unudur.

Ona görə də ayənin axırında buyurur: Həqiqətən, o, çox zalım və çox cahildir.[1]

« ظَلُوماً جَهُولاً »

## *Beşinci dərsin xülasəsi*

**Kəramət və İlahi əmanət**

İnsanın kəramət cəhətlərindən biri, bu varlığın İlahi əmanətə dözümüdür ki, (Əhzab surəsinin 72-ci ayəsində) ona işarə olunmuşdur. Göylər, yer və dağın imtinası diqqət və xüzuya qarışmış qorxu ilə yanaşıdır.

Şeytanın səcdədən imtina etməsi, təkəbbürlü olub, özünü böyük

1 Əhzab, 72

görməkdən irəli gəlmişdi.

İnsanın yaranışında İlahi əmanət haqqında müxtəlif təfsirlər qeyd olunmuşdur.

Ağıl
Mərifətullah
İxtiyar
Vilayət və s...

Bu nəzəriyyələri ümumiləşdirməklə belə demək olar ki, ixtiyarla məsuliyyətli olmaq, öhdəçilik və kamal insanın dözdüyü həmin İlahi əmanətdir. Varlıqlara əmanətin təqdimi, bu varlıqların yaranış və təkvini mənasındadır ki, onların xilqətində bu əmanəti daşımaq istedadı yoxdur.

# Altıncı dərs

# İnsanın ruhu (1)

« وَ يَسْأَلُونَکَ عَنِ الرُّوحِ قُلِ الرُّوحُ مِنْ أَمْرِ رَبِّي وَ مَا أُوتِيتُمْ مِنَ الْعِلْمِ إِلاَّ قَلِيلاً»

(Ey Peyğəmbər!) Səndən ruh barəsində soruşurlar. De ki: "Ruh yalnız Rəbbimin bildiyi bir işdir. (Bu barədə) sizə çox az məlumat verilmişdir".[1]

Ötən dərslərdə "Quranda insanşünaslıq" mövzusu barədə məlumat verdik və bu nəticəyə gəldik ki, insan həm ruha, həm də cismə malik olan bir varlıqdır. Həmçinin öyrəndik ki, insan Allah xəlifəsi olmaq istedadına malikdir və o, başqa varlıqların daşıya bilməyəcəyi bir əmanətə sahibdir.

Quranda "Ruh" haqqında zikr olunan ayədə belə oxuyuruq: O gecə mələklər və Ruh (Cəbrail) Rəbbinin izni ilə hər bir iş üçün (yer üzünə) enərlər.[2]

تَنَزَّلُ الْمَلَائِكَةُ وَالرُّوحُ فِيهَا بِإِذْنِ رَبِّهِمْ مِنْ كُلِّ أَمْرٍ

Təfsirçilərin çoxu, ayədəki "Ruh" sözünün insana (insan ruhuna) aid olduğunu bildirirlər. Amma bəzi dəqiq və daha düzgün təfsirlərdə, ayədəki "Ruh"-un, mələklərdən fərqli bir varlığın ruhuna aid olduğu bildirilir.

Amma bəzi ayələrə diqqət yetirsək, görərik ki, Peyğəmbərdən (s) insanın ruhu haqqında soruşub, insan ruhunun həqiqətini öyrənmək istəyənlər də olub. Doğurdan da maraqlıdır ki, görəsən insanın ruhunun mahiyyət və keyfiyyəti nədən ibarətdir? Məhz bu sualın cavabını öyrənmək üçün, Peyğəmbərə (s) bu sual ünvanlanıb. Allah-taala buyurur: "Səndən ruh haqqında soruşurlar". [3]

وَ يَسْأَلُونَکَ عَنِ الرُّوحِ»

Ümumiyyətlə sual vermək və həmin sualı cavablamaq, inkişafın ilk pilləsidir. İslam dini sualdan qaçan din deyil, əksinə sual verməyi dəstəkləyən və insanın suallarını araşdıran bir dindir. Buna görə

1 İsra, 85.
2 Qədr, 4.
3 İsra, 85.

hədislərin bəzisində deyilir ki, soruşun, əgər soruşsanız dörd nəfər savab qazanar.

Yuxarıdakı ayəyə diqqət yetirsək, görərik ki, Allah-taala ayəni "Səndən soruşurlar" cümləsi ilə başlayır. Bu cümlədən başa düşürük ki, islam dini sualın əleyhinə olan bir din deyil, əksinə onu cavablamağın tərəfdarıdır.

Ayənin davamında Allah buyurur: De ki: "Ruh yalnız Rəbbimin bildiyi bir işdir. (Bu barədə) sizə çox az məlumat verilmişdir".[1]

Təfsirçilərin çoxusu, bu ayədə işlənən "Ruh"-dan məqsd, insanın ruhudur.

Bəzi Quran tərcümələrində, bu ayə yanlış tərcümə edilib. Belə ki, həmin tərcümələrdə ayəni oxuyanda, elə anlaşılır ki, guya ruh Allahın işlərindən biridir və insanlar bu işə heç cür müdaxilə edib, haqqında sual belə verə bilməzlər.

Bu növ tərcümələrin səbəbi, tərcüməçilərin Quranla daha yaxşı tanış olmadıqlarına görədir.

Danışdığımız ayədəki "Əmr" sözü, ərəb köklü bir kəlmədir və tərcümədə, "İş" mənasındadır. Amma Quranda bu söz, özünə məxsus mənaya malikdir.

Ona görə də Əllamə Təbatəbayi "Əl-Mizan" kitabında "Əmr" sözünü müxtəlif cəhətlərdən araşdırmışdır.

Quran da buyurur: "Yaranış da Allaha məxsusdur və əmr də Allaha məxsusdur".[2]

لَهُ الْخَلْقُ وَالْأَمْرُ

Bu ayədən başa düşülür ki, iki növ aləm var. Onlardan biri Yaranış, digəri isə Əmr aləmidir.

Yaranış aləmi tədrici yaradılmış, Əmr aləmi isə ani və birdəfəlik baş verir.

Allah-taala "Əmr aləmi" haqqında buyurur: O, bir şeyin olmasını istədiyi zaman ona yalnız: "Ol!" - deyə əmr edər. O da dərhal olar.[3]

إِنَّمَا أَمْرُهُ إِذَا أَرَادَ شَيْئًا أَنْ يَقُولَ لَهُ كُنْ فَيَكُونُ

Gördüyümüz kimi, Əmr aləminin sistemi belədir ki, bir şeyə "ol"

---

1 İsra, 85..
2 Əraf, 54.
3 Yasin, 82.

deyilsə, həmin şey dərhal olur. Amma yaradılış aləmindəki proses tədricidir.

Misal üçün insanın ana bətnində inkişaf edib, insan şəklinə çevrilib, dünyaya gəlməsi üçün doqquz ay lazımdır.

Allah-taala insanın ana bətnindəki tədrici yaradılışı barədə buyurur: Sonra nütfəni laxtalanmış qan (rüşeym) halına saldıq, sonra laxtalanmış qanı bir ət parçasına çevirdik. Sonra ət parçasını sümüklərə çevirdik, sonra sümükləri ətlə örtdük. Sonra da onu başqa bir yaradılışla inşa etdik (insan halına saldıq). Yaradanların ən gözəli olan Allah çox ucadır![1]

**ثُمَّ خَلَقْنَا النُّطْفَةَ عَلَقَةً فَخَلَقْنَا الْعَلَقَةَ مُضْغَةً فَخَلَقْنَا الْمُضْغَةَ عِظَامًا فَكَسَوْنَا الْعِظَامَ لَحْمًا ثُمَّ أَنْشَأْنَاهُ خَلْقًا آخَرَ ۚ فَتَبَارَكَ اللَّهُ أَحْسَنُ الْخَالِقِينَ**

Tədrici yaradılış üçün, alma toxumunun alma ağacına çevrilməsini də misal gətirmək olar. Belə ki, hər birimiz bilirik ki, alma toxumunun alma ağacına çevrilməsi zaman aparır. Yaradılması zaman aparan və tədrici olan varlıq xəlq (yaranış) aləmindən hesab edilir.

İnsana ruhun verilməsi, Əmr aləminə məxsusdur. Allah bu barədə buyurur:

**فَإِذَا سَوَّيْتُهُ وَنَفَخْتُ فِيهِ مِنْ رُوحِي فَقَعُوا لَهُ سَاجِدِينَ**

Onu insan surətinə salıb ona Öz ruhumdan üfürdüyüm zaman dərhal ona səcdə edin!”[2]

Mələklər də belə yaradılırlar. Yəni onların yaradılışı da bir anda olur.

Mələklərin hər biri müəyyən məqama malikdir və onların tənəzzül və inkişafı olmur. Onlar bir dəfəyə və ani yaradılan Əmr aləminə məxsusdurlar.

Allah mələklər barədə buyurur: (Mələklər belə deyərlər:) “Bizim hər birimizin müəyyən bir məqamı vardır.[3]

**وَمَا مِنَّا إِلَّا لَهُ مَقَامٌ مَعْلُومٌ**

Allah-taala ruhun həqiqətinə işarə edərək, buyurur: (Ey Peyğəmbər!) Səndən ruh barəsində soruşurlar. De ki: “Ruh yalnız Rəbbimin bildiyi bir işdir.[4]

**وَ يَسْأَلُونَکَ عَنِ الرُّوحِ قُلِ الرُّوحُ مِنْ أَمْرِ رَبِّي**

---

1 Muminun, 14.
2 Sad, 72.
3 Sad, 163.
4 İsra, 85.

İnsanın ruhu Əmr aləminə aiddir.

Əmr aləminə mələkut aləmi də deyilir. Əmr aləmi batini əmr, ruh aləmi və mücərrəd aləmdir.

Ümumiyyətlə dünyadakı varlıqlar iki növdür:

1- Maddi varlıq. 2- Mücərrəd varlıq.

Ona görə də insan, maddi varlıq hesab edilən hiss vasitələri ilə ruhu tanıya bilməz.

(Bu barədə) sizə çox az məlumat verilmişdir”.[1]

وَمَا أُوتِيتُمْ مِنَ الْعِلْمِ إِلَّا قَلِيلً

Zikr olunan ayənin bir mənası budur ki, insanların çox az bir qismi bu mövzu (Ruhun həqiqəti) barədə elmə sahib ola bilər. Başqa bir mənası isə budur ki, insanların ixtiyarında olan vasitələrlə, Ruhun həqiqətini çox az dərk etmək mümkündür. Yəni maddi hissiyyat vasitələri ilə (göz, qulaq və s…) ruh barədə çox az elm əldə etmək mümkün olar. Ruhun həqiqətini tanımaq üçün, vəhy, təfəkkür və s. kimi digər vasitələrə ehtiyac var.

Necə ki, insanın bədəninin qüvvətli və güclü olması üçün, su və yeməyə ehtiyacı var, Ruhun da güclənməsi və inkişafı üçün, özünə məxsus mənəvi qidaya ehtiyacı var. Ruhun qidası, elm, mərifət və ibadətdir.

Həm cismin, həm də ki, ruhun düzgün qidalanması çox önəmli mövzulardan biridir. Ona görə də, Allah buyurur: Elə isə insan yediklərinə bir nəzər salsın![2]

فَلْيَنْظُرِ الْإِنْسَانُ إِلَىٰ طَعَامِهِ

Hədislərdə “Təam”-dan (yemək) məqsəd elm qeyd olunmuşdur. Bəs elmin təamı nədir?

Elm ruhun təamıdır və ruh əmr aləmindəndir. Əmr aləminin xüsusiyyəti budur ki, əgər bu barədə geniş şəkildə danışılıb, araşdırılsa, insanşünaslıq bəhsindən əlavə imamşünaslıq mövzusu da ortaya çıxacaq.

Ümumiyyətlə insan elə bir yerə çata bilər ki, əmr aləminin köməyi ilə, insanları hidayət etsin. Hidayət bəzən vəhy ayələrinin tanınması ilə də olur.

---

1 İsra, 85.
2 Əbəsə, 24.

يهدون بالوحى

Bu növ hidayət, peyğəmbərlikdə olur. Bəzən isə hidayət imamət vasitəsi ilə olur.

Bu barədə Allah buyurur: Biz onları əmrimizlə (insanları) doğru yola gətirən imamlar (rəhbərlər) etdik.[1]

وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا

Bu növ hidayət də, əmr aləmi ilə bağlıdır. Çünki bu hidayətdə, ruh və mələkut aləmi tanınmalıdır. Ruh və mələkut aləmi tanınarsa, insanın ruhunun hansı vəziyyətdə olduğunu bilib, ona uyğun şəkildə hidayət etmiş olarıq.

Misal üçün həkim öz işini düzgün icra etmək üçün, iki mühüm şeyi öyrənməlidir. Birincisi xəstəliklər və dərmanları, ikinci isə, təcrübəyə əsasən, xəstənin xəstəliyini aşkar edib, düzgün formada onu müalicə etməlidir.

Həkim bu prosedurları yerinə yetirmək üçün, xəstəliyin əlamətlərini bilməli, xəstənin nəbzini ölçməli, gözünün rənginə diqqət yetirməli və xəstənin cismində olan əlamətlərə diqqət yetirməlidir.

İnsanları haq yola yönəldən İmamın da işləri, həkimin işlərinə bənzəyir. İmam insanın ruhunda olan əlamətlər vasitəsi ilə, onu müalicə və hidayət etməyə səbəb olur.

Ona görə də Quran buyurur: Biz onları əmrimizlə (insanları) doğru yola gətirən imamlar (rəhbərlər) etdik.[2]

وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا

# İnsanın ruhu (2)

(Əmr) aləminə aid olan mövzular, bu kitabda danışılanlardan çox geniş və daha ətraflıdır. Əmr aləminin insanşünaslıq mövzusuna aid olan hissəsindən bunu öyrəndik ki, ruh əmr aləminə məxsus olan bir varlıqdır.

Allah Quranda buyurur: Allah yolunda öldürülənlərə (şəhid olanlara) "ölü" deməyin. Əksinə, onlar (Allah dərgahında) diridirlər, lakin siz bunu dərk etmirsiniz.[3]

1 Ənbiya, 73.
2 Ənbiya, 73.
3 Bəqərə, 154.

وَلَا تَقُولُوا لِمَنْ يُقْتَلُ فِي سَبِيلِ اللَّهِ أَمْوَاتٌ ۚ بَلْ أَحْيَاءٌ وَلَٰكِنْ لَا تَشْعُرُونَ

Bəziləri bu ayəni elə başa düşə bilər ki, Allah yolunda ölənlər həqiqətən diri yox, bəlkə tarixdə və insanların yaddaşında qaldıqları üçün, diri kimi hesab olurlar. Bu yanlış düşüncədir. Həqiqətdə isə Allah yolunda ölənlər, həqiqətən də diridirlər. Allah yolunda ölənlər şəhiddir və şəhidlərdə elə bir varlıq var ki, cism və bədənin aradan getməsi ilə, həmin varlıq, aradan getmir. Həmin varlıq, uca ruhdur ki, öləndən sonra da diri qalmağa davam edir.

Ayədəki maraqlı cümlələrdən biri də budur ki, Allah buyurur: "Ölü deməyin"...

Ali-İmran surəsində isə, Allah belə buyurur: Allah yolunda öldürülənləri (şəhid olanları) heç də ölü zənn etmə! Əsl həqiqətdə onlar diridirlər. Onlara Rəbbi yanında ruzi (cənnət ruzisi) əta olunur.(Ali-İmran,169).

وَلَا تَحْسَبَنَّ الَّذِينَ قُتِلُوا فِي سَبِيلِ اللَّهِ أَمْوَاتًا ۚ بَلْ أَحْيَاءٌ عِنْدَ رَبِّهِمْ يُرْزَقُونَ

Ayənin mənasından belə başa düşülür ki, Allah yolunda dünyasını dəyişənləri əsla ölü zənn etmək olmaz. Ümumiyyətlə, bu fikri heç zehin və xəyalınızdan da keçirməyin ki, onlar ölüdür.

Onların  Rəbblərinin yanında olduqları və onun bəxş etdiyi ruzidən bəhrələndiklərinə yəqin etmək lazımdır.

Şəhidlər haqqında nazil olan ayələr, ruhun qeyri-maddi olmasına işarə edir.

Ruhun qeyri-maddiliyini sübut edən digər ayə isə, Fəcr surəsindədir. Ayədə Allah buyurur: (Qiyamət günü Allah-təala mömin kimsəyə belə buyuracaqdır: ) "Ey (öz imanından, əməlindən və Allahın vədindən) xatircəm olan kəs! (Və ya: "Ey arxayın nəfs!")

Dön Rəbbinə, sən Ondan razı olaraq, O da səndən![1]

يَا أَيَّتُهَا النَّفْسُ الْمُطْمَئِنَّةُ ارْجِعِي إِلَىٰ رَبِّكِ رَاضِيَةً مَرْضِيَّةً

Növbəti ayələrdə isə belə buyurur:

(Əməlisaleh) bəndələrimin zümrəsinə daxil ol!

(Onlarla birlikdə) Cənnətimə varid ol!"[2]

فَادْخُلِي فِي عِبَادِي وَادْخُلِي جَنَّتِي

1 Fəcr, 28

2 Fəcr, 29,30.

Bu ayə onu göstərir ki, Allah qayıdış çağırışını, qəbirstanlığa dəfn olunaraq, çürümüş maddi bədənə etmir. Həmçinin onu da bilirik ki, insan “Qayıt” xitabına layiq olan bir varlıqdır. Allah da, elə insanın bu xüsusiyyətinə görə ona xitab edəcək.

Quranda bəzi ayələr də var ki, insanların bu dünyadan köçdükdən sonra, Bərzəx adlı bir aləmdə də yaşadıqlarını sübut edir. Bərzəx ayələri isə, varlığın qeyri-maddi olduğunu çatdırır və Allahla görüşün (Məqam və mənəviyyat baxımından) baş verməsi (liqaullah) anlamını bildirir.

Bu barədə Allah buyurur: Ey insan! Sən (ölənə qədər) Rəbbinə doğru çalışıb çabalayırsan. Sən Ona qovuşacaqsan![1]

**يَا أَيُّهَا الْإِنْسَانُ إِنَّكَ كَادِحٌ إِلَىٰ رَبِّكَ كَدْحًا فَمُلَاقِيهِ**

Əlbəttə ki, Allahla görüşdən məqsəd, Allahı cismlə görmək deyil. Bəlkə ayədəki məna, Allahın cəlal və camalını, rəhmət və cəzasını, behişt və cəhənnəmini görməkdir. Bunların özü, elə Liqaullah, yəni Allaha qovuşmaq və onu görmək mənasındadır.

Liqaullahın mövzusunun daha dəqiq və incə mənası vardır. Mövzumuz liqaullah olmadığı üçün, həmin dərinlikləri gətirmirik. Amma bunu da bilmək lazımdır ki, insan liqaullaha çatana kimi hərəkətdədir.

Ona görə də Allah buyurur: Ey insan! Sən (ölənə qədər) Rəbbinə doğru çalışıb çabalayırsan. Sən Ona qovuşacaqsan![2]

**يَا أَيُّهَا الْإِنْسَانُ إِنَّكَ كَادِحٌ إِلَىٰ رَبِّكَ كَدْحًا فَمُلَاقِيهِ**

## *Altıncı dərsin xülasəsi*

**İnsanın ruhu**

Bildiyimiz kimi insan müqəddəs ruha malik olan bir varlıqdır. İsra surəsinin 85-ci ayəsinə əsasən bu ruh əmr aləminə məxsusdur.

Əraf surəsinin 54-cü ayəsinə əsasən isə, əmr aləmi bu dünyada olan iki aləmdən biridir.

A) Yaradılış aləmi

Misal üçün insanın cisminin, eləcə də digər tədrici yaradılmış varlıqların yaradılışı, yaradılış aləminə məxsusdur.

1 İnşiqaq, 6.
2 İnşiqaq, 6.

B) Əmr aləmi

Mələklər, ruh və bu kimi bir dəfəyə yaranan varlıqlar, əmr aləminə aiddir.

İnsanın ruhu, cism və maddədən ayrıdır və ölümlə aradan getmir.

Ali-İmranın 169-cu ayəsi və Bəqərənin 154-cü ayəsinə əsasən şəhidlərin cismi aradan getsə də, şəhidlər indi də diridirlər.

İnsan öləndən sonra, cisimdən əlavə diri qalan cəhəti də vardır.

# Yeddinci dərs

# Qəlb, ruh (1)

Qurani-kərim, insanşünaslıqla bağlı müxtəlif mövzulara işarə etmişdir. Bu barədə ayələrin çoxusunda danışılan mövzu, insanın bədən və ruha malik olduğu haqqındadır. Belə ki, həmin ayələri mütaliə edəndə, insanın maddə və ruha sahib olan bir varlıq olduğu məlum oldu.

Allahın yaratdığı heyvanlar kimi bəzi varlıqlar, yalnız yerə aiddir və yerdə yaşayırlar. Bəziləri isə yalnız göyə aiddirlər. Misal üçün mələklər kimi. Amma bu iki növ varlıq arasında elə bir dəyərli varlıq var ki, həm yerdə yaşayır, həm də ki, mələklərin yaşadığı mənəvi göylərə səfər edib, orada da yaşamağa qabiliyyəti var. Bəli, həmin varlıq, insandır.

Dərsin davamında insan bədəninin xəstələndiyi kimi, ruhunun da xəstələnə biləcəyi mövzusunu araşdırmaq istəyirik. Əgər Quranın bəzi ayələrini diqqətlə oxusaq, görərik ki, Quranda da həmin mövzuya işarə edilir. Yəni bədənin xəstəliyə düçar olduğu kimi, bəzən insanın ruhu da xəstələnə bilər.

Bədən öldüyü kimi, bəzən ruh da ölür. Bu baxımdan da, Quranda insanşünaslıq mövzularından biri də, ruhun xəstələnmə və ölməsi mövzusudur. Ruh ölən vaxt, insan hələ də  nəfəs alsa belə, onun yaşayışının mənəvi inkişafı olmur.

Allah-taala ruhu ölmüş dirilər barədə buyurur: Onlar kar, lal və kordurlar. Buna görə də (doğru yola) qayıtmazlar.[1]

**صُمٌّ بُكْمٌ عُمْيٌ فَهُمْ لَا يَرْجِعُونَ**

Ayəyə diqqət yetirsək, görərik ki, ruhu ölən şəxslər, "Həqiqətə qarşı kar və kor" olarlar.

Qəlb və ruhun ölümü bəhsi çox genişdir.

Ruhu ölən kəslər « **ميت الاحياء** » (canlı meyyitdirlər). Quran belə adamları nəfəs alan ölülər adlandırır. Bəzi insanlar üfüqi ölülərdir ki, Məlikül-məut (Ölüm mələyi) vasitəsilə Allah tərəfindən canları alınır və qəbirstanlıqda dəfn olunurlar. Amma bəzi insanların evləri qəbirstanlıqdır.

1 Bəqərə, 18.

Peyğəmbəri-əkrəm (s) buyurur: “Evlərinizi Quran oxumaqla zinətləndirin və onu qəbirə çevirməyin”.

زَيّنوا بيوتكم بتلاوة القرآن و لا تتخذوها قبورا

Hədisin mənası budur ki, əgər insan Allahla öz əlaqəsini kəssə və Quranla ünsiyyətdə olmasa, həmin insan mənəvi və ruh baxımından ölər və onun evi qəbirstanlıq olar.

Belə ölülərə, üfüqi ölü yox, şaquli ölü deyilir. Yəni nəfəs almasına baxmayaraq, ruhi cəhətdən ölüdür.

İnsan ruhunun digər xəstəlik mövzularından birinə də, Quranın bir neçə ayələrində rast gəlmək olar. Belə ki, Əhzab surəsinin 32-ci ayəsində Allah buyurur: Ey Peyğəmbər zövcələri! Siz başqa qadınlar kimi deyilsiniz. Əgər Allahdan qorxursunuzsa, (yad kişilərlə) ədalı danışmayın, yoxsa qəlbində xəstəlik olan bir kimsə (sizə qarşı) ümid bəsləyər. Düzgün danışın!

يَا نِسَاءَ النَّبِيِّ لَسْتُنَّ كَأَحَدٍ مِنَ النِّسَاءِ ۚ إِنِ اتَّقَيْتُنَّ فَلَا تَخْضَعْنَ بِالْقَوْلِ فَيَطْمَعَ الَّذِي فِي قَلْبِهِ مَرَضٌ وَقُلْنَ قَوْلًا مَعْرُوفًا

Ayədəki “Qəlbində xəstəliyi olan” - ifadəsi onu çatdırır ki, qəlbdə də xəstəlik ola bilər.

Öz şəhvətini nəzarətdə saxlaya bilməyən insanın, əxlaqi xəstəliyi vardır.

Allah-taala Əhzab surəsinin başqa bir ayəsində isə belə buyurur: O zaman münafiqlər və qəlblərində xəstəlik olanlar: “Allah və peyğəmbəri bizə yalnız yalan şeylər vəd ediblər”, - deyirdilər.[1]

وَإِذْ يَقُولُ الْمُنَافِقُونَ وَالَّذِينَ فِي قُلُوبِهِمْ مَرَضٌ مَا وَعَدَنَا اللَّهُ وَرَسُولُهُ إِلَّا غُرُورًا

Ayədən məlum olur ki, bəzi insanların etiqad xəstəliyi vardır və imanları zəifdir. Onların Allahı və Peyğəmbəri tanımaqla bağlı problemləri vardır. Bir qədər çətinliyə düşəndə, Allah və Peyğəmbərə etiqadları sual altına gedir və deyirlər ki, Allah və Peyğəmbər bizə vədə verdi və sapındırdı.

Quran isə buyurur ki, bu sözləri qəlblərində nifaq olan münafiqlər deyir, ya da ki, qəlblərində xəstəlik olan və imanları zəif olanlar. Bu cür insanlar, Allah və Peyğəmbərə (s) qarşı çox zəif imana malik olduqları üçün, kiçik çətinlik və sadə şübhə ilə, dərhal daxilindəki xəstəliyi aşkar

---

1 Əhzab, 12.

edirlər.

Allah-taala yenə insanın ruh və qəlbinin xəstəliyinə işarə edərək, Bəqərə surəsinin 10-cu ayəsində belə buyurur: Onların qəlblərində xəstəlik (küfr, nifaq) vardır. Allah onların xəstəliyini daha da artırmışdır. Yalan söylədiklərinə görə onlar üçün şiddətli bir əzab vardır.

فِي قُلُوبِهِمْ مَرَضٌ فَزَادَهُمُ اللَّهُ مَرَضًا ۖ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ بِمَا كَانُوا يَكْذِبُونَ

Allah və möminləri aldatmaq istəyən münafiqlərin işləri hiyləgərlik və yalançılıqdır. Daim aldatmaqla məşğul olan kəsin qəlbində xəstəlik olar.

Nəticədə isə, ruh həm ölür, həm də ki, xəstələnər.

Quran buyurur: Biz Qurandan möminlər üçün şəfa və rəhmət olan, zalımların isə yalnız ziyanını artıran ayələr nazil edirik.[1]

وَنُنَزِّلُ مِنَ الْقُرْآنِ مَا هُوَ شِفَاءٌ وَرَحْمَةٌ لِلْمُؤْمِنِينَ ۙ وَلَا يَزِيدُ الظَّالِمِينَ إِلَّا خَسَارًا

Ayədən məlum olur ki, Quran şəfa verəndir. Yəni xəstələnmiş ruh, Quran vasitəsi ilə sağala bilər.

Deməli, insanşünaslıq mövzusunda ruh xəstələnə bildiyi kimi, müalicə də ola bilər. Ruhun müalicə olması üçün ilk öncə ona bəzi məlumatlar verilməli, daha sonra isə, ruh məşq etdirilməlidir. Əgər bu iki mərhələ lazım olan kimi tətbiq olunsa, ruh şəfa tapar və mənəvi xəstəliklərdən sağalar.

## Qəlb-ruh (2)

يَوْمَ لَا يَنْفَعُ مَالٌ وَلَا بَنُونَ إِلَّا مَنْ أَتَى اللَّهَ بِقَلْبٍ سَلِيمٍ

İnsanın ruhu şəhvət, tamahkarlıq, nifaq və bu kimi günahlar nəticəsində xəstələnir.

Quranın bəzi ayələrində, insanın ruhunda baş verən xəstəliklər barədə, geniş şəkildə danışılır.

Quran buyurur ki, əgər insan şəhvət, tamah və dünyapərəstliklə yaşasa, “Qəlbində xəstəlik olar”[2]. Əgər o, cənnətə daxil olmaq istəyirsə, qəlbini sağaltmalıdır.

Qiyamət günü insana heç kəs və heç bir şey kömək edə bilməyəcək

1 İsra, 82.
2 Bəqərə, 10.

Allah-taala buyurur: O gün nə mal-mülk, nə də övladlar fayda verər.[1]

يَوْمَ لَا يَنْفَعُ مَالٌ وَلَا بَنُونَ

Başqa bir ayədə isə Allah belə buyurur: Ey iman gətirənlər! Alış-verişin, dostluğun və şəfaətin olmayacağı gün gəlməzdən əvvəl sizə verdiyimiz ruzidən infaq edin! İnkar edənlər əsil zalımlardır.[2]

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا أَنْفِقُوا مِمَّا رَزَقْنَاكُمْ مِنْ قَبْلِ أَنْ يَأْتِيَ يَوْمٌ لَا بَيْعٌ فِيهِ وَلَا خُلَّةٌ وَلَا شَفَاعَةٌ ۗ وَالْكَافِرُونَ هُمُ الظَّالِمُونَ

Bu ayədə mal və mülkünün bir başa özünə yox, alqı-satqısına işarə edilir. Məqsəd budur ki, dünyanın qayda-qanunlarında hər hansı bir evi alıb, onu icarəyə vermək olar, amma bu işlərin qiyamətdə insana heç bir faydası olmaz. Əslində malın orda heç bir dəyəri yoxdur.

Əvvəlki ayədə isə belə buyurur: Nə də övladlar fayda verər.(Şüəra, 88).

وَلَا بَنُونَ

Yəni insanın dünyadakı əlaqələri, qiyamətdə ona heç bir fayda verə bilməz. Əslində insan qiyamətdə, dünya qaydalarına olduğu kimi, öz mənzilində rahatlığa çata bilmir. Eləcə də, ata, övlad və digər yaxınlarla qurduğu bağlılıq və münasibəti, qiyamətdə təşkil edə bilmir. Yəni qiyamətin şərtləri, dünya şərtlərindən çox fərqlidir.

Elə isə biz nə etməliyik? Qiyamətdəki şəraitimizi yaxşıya doğru tənzimləmək üçün bizə nə lazımdır?

Bu suala Allah Şüəra surəsində cavab verir. Belə ki, Allah buyurur: Ancaq təmiz bir qəlblə Allahın hüzuruna gələn kimsə bundan istisnadır! (Şüəra,89).

إِلَّا مَنْ أَتَى اللَّهَ بِقَلْبٍ سَلِيمٍ

Yəni dünyada qəlbini mənəvi çirkablardan təmizləyən şəxs, qiyamət günü bir çox əzab və çətinliklərdən uzaq olar.

Saffat surəsində də həmin mövzuya toxunulur. Belə ki, Allah buyurur: Bir zaman o, Rəbbinin hüzuruna təmiz bir qəlblə gəlmişdi. (Saffat, 84).

إِذْ جَاءَ رَبَّهُ بِقَلْبٍ سَلِيمٍ

Bu ayə onu göstərir ki, qəlb xəstə ola bildiyi kimi, sağala da bilər. Belə bir sual ortaya çıxır ki, qəlbin xəstəliyinə səbəb olan şey nədir və

1 Şüəra, 88.
2 Bəqərə, 254.

həmçinin onu sağaltmağın yolu nədir? Bir qədər əvvəldə açıqladığımız ayələrdən bu nəticəyə gəldik ki, şəhvət və tamah qəlbin xəstəliyinə səbəb olur.

Həmin ayəni diqqətlə oxuyanda, qəlbin xəstələnmə səbəbi məlum olur. Allah buyurur ki, tamahkarlıq və şəhvani nəfsə tabe olmaq, insanın qəlbinin xəstələnməsinə səbəb olar.

"Ey Peyğəmbər zövcələri! Siz başqa qadınlar kimi deyilsiniz. Əgər Allahdan qorxursunuzsa, (yad kişilərlə) ədalı danışmayın, yoxsa qəlbində xəstəlik olan bir kimsə (sizə qarşı) ümid bəsləyər. Düzgün danışın!"( Əhzab,32).

فَيَطْمَعَ الَّذِي فِي قَلْبِهِ مَرَضٌ

Nifaq və bu kimi günahlar, qəlbin xəstəliyinin amilidir. Əgər insan öz ruhunu bu günahlardan təmizləməsə, Allah dərgahına sağlam qəlblə gələ bilməz. Ona görə də insan gərək diqqətli olsun ki, dünyada qəlbi zərər görüb, korlanmasın. Əgər insan davamlı olaraq günah etsə və özünü islah etməyə çalışmasa, tədricən günah onun qəlbini xəstələndirər və o həddə çatar ki, artıq onu sağaltmaq mümkün olmaz.

Allah bu barədə buyurur: Xeyr! Əksinə, qazandıqları günahlar onların qəlblərini bürümüşdür (kirlətmişdir). (Mutəffifin, 14).

كَلَّا ۖ بَلْ ۜ رَانَ عَلَىٰ قُلُوبِهِمْ مَا كَانُوا يَكْسِبُونَ

Ayədə zikr olunan **"رين" "ران"** sözündən götürülüb. "Rin" sözü isə, çirk mənasındadır. Belə anlaşılır ki, davamlı olaraq günah edib, həmin günahlardan çəkinməyənlərin qəlbinə, çirk yığılar. İnsan günah edəndə qəlbinə çirk düşür. Qəlb çirklənəndə xəstələnir və onun sağlamlığı aradan gedir və belə olduğu təqdirdə, artıq insanın qəlbi, "qəlb-i səlim" (Quranda zikr olunan sağlam qəlb) ola bilmir. Bu səbəbdən bizə sifariş olunmuşdur ki, xəstəliklərdən uzaq durmağa çalışaq və bu da onu göstərir ki, bədən və cism xəstələndiyi kimi, ruh da xəstələnir.

İnsan öz bədənini tanımağa çalışdığı kimi, ruhunu da tanımalıdır. Bədənin həkimə ehtiyacı olduğu kimi, ruhun da həkimə ehtiyacı var. Əgər insan ruhunu tanıyıb, onu xəstəliklərdən qorusa, onun ruhu sağlam olar.

## *Yeddinci dərsin xülasəsi*

**Qəlb = ruh**

İnsan ruhunun bədən kimi müxtəlif dəyişiklikləri vardır.

1. **Ruhun sağlamlığı**
2. **Ruhun xəstələnməsi**
3. **Ruhun ölümü və s...**

Quran ayələrində müxtəlif ruhi xəstəliklərə işarə olunmuşdur:

A) Əxlaqi xəstəlik (Əhzab 12-32) insanın tamahkarlığı kimi.

B) Etiqadi xəstəlik (Bəqərə 10 – Əhzab 12) imanın zəifliyi, nifaq və.s kimi.

C) Siyasi xəstəlik (Maidə 52)

Quran bir çox ayələrdə Qiyamət günü insanın nicatını sağlam qəlbə malik olmaqdan asılı bilir.

# Səkkizinci dərs

# Ümumi kütlənin hidayəti (1)

**فَمَنْ يُرِدِ اللَّهُ أَنْ يَهْدِيَهُ يَشْرَحْ صَدْرَهُ لِلْإِسْلَامِ**

Quranda istifadə olunan bəzi sözlər, bizim işlətdiyimiz kəlmələr ilə fərqli məna daşıyır. Məsələn, “Qəlb” sözü bizim leksikonumuzda, bədəndə qan dövranının mərkəzi mənasında işlənir. Eləcə də “Sinə” tənəffüs yerinə deyilir.

Halbuki, Quranda qəlb və sədr (sinə) müxtəlif mənalarda işlənmişdir. “Sağlam qəlb”, sağlam olan ruh, sədr sözü isə, qəbul etmək və anlamaq hissi olan insanın sinəsidr.

Bu mənada olan ayələrdən biri, Ənam surəsinin 125-ci ayəsidi. Həmin ayədə Allah-Təala insanı iki xüsusiyyətdə təqdim edir. Onlardan biri, qəlbləri islamı qəbul etmək üçün açıq olan insanlar, digəri isə, qəlbləri islamın qəbulu və haqqa təslim olmaq üçün bağlı olan insanlardır. Deməli, sədr burada bədəndəki sinə deyil, insan ruhunu qəbul edən hissədir.

**فَمَنْ يُرِدِ اللَّهُ أَنْ يَهْدِيَهُ يَشْرَحْ صَدْرَهُ لِلْإِسْلَامِ ۖ وَمَنْ يُرِدْ أَنْ يُضِلَّهُ يَجْعَلْ صَدْرَهُ ضَيِّقًا حَرَجًا كَأَنَّمَا يَصَّعَّدُ فِي السَّمَاءِ**

Allah kimi doğru yola yönəltmək istəyərsə, onun qəlbini İslama açar, kimi (haqq yoldan) azdırmaq istəyərsə, göyə çıxırmış kimi onun qəlbini daraldar. (Ənam,125).

Ayədə oxuyuruq ki, Allah kimi hidayət etmək istəsə, onun hidayətini elə bu dərk qüvvələrindən başlayır. İnsanın cismi, əli və ayağı onun qəlbi və ruhuna tabe olarsa, o vaxt insan hidayət olar. Əgər insanın ruhu sağlam olarsa, üzvlər də saleh əməlləri dərk edib, qəbul edər.

Ayədə Allah buyurur ki, “Allah kimi doğru yola yönəltmək istəyərsə, onun qəlbini İslama açar”

Bu cümlədən məlum olur ki, hidayətin birinci addımı, insanın qəlbinin mənəvi çirkablardan təmizlənib, həqiqəti qəbul etmək üçün hazırlanmasıdır.

**وَمَنْ يُرِدْ أَنْ يُضِلَّهُ يَجْعَلْ صَدْرَهُ ضَيِّقًا**

Diqqət etsək, görərik ki, ayənin bu cümləsində “Kimi istəsə, hidayət etməz” cümləsi işlənib. Allahın insanı hidayət etməməsinin mənası,

onu öz halına buraxması anlamındadır. Elə bu, əsl zəlalət mənasını verir. Bunu da unutmaq olmaz ki, Allahın hidayəti əvvəldə hamıya şamil olunur. «هدى للناس» (Allahın hidayəti, bütün insanlar üçündür).

Amma insan bu hidayətə müsbət cavab versə, Allah ona yeni bir hidayət bəxş edər və bu hidayət də, elə şərh-i sədrdir (Qəlbin islama tərəf açılması) .

Əgər insan ibtidai hidayətə müsbət cavab versə, Allah insanın qəlbini (ruhunu) açar. (Ruhun genişlənməsi və açılmasının mənası barədə, daha sonra danışacağıq).

Allahın ibtidai hidayətinə fitrət və vicdanı ilə təslim olmayan insanlar barədə Allah belə buyurur: Onun qəlbini daraldarıq.[1]

يَجْعَلْ صَدْرَهُ ضَيِّقًا

Təbii ki, qəlbi daralmış insan da heç vaxt hidayət olmaz.

كَأَنَّمَا يَصَّعَّدُ فِي السَّمَاءِ

Ona görə də buyurur:"...Göyə çıxırmış kimi onun qəlbini daraldar".[2]

Belə bir insanın qəlbi o qədər kiçilər ki, əgər ona desələr gəl haqqa təslim və tabe ol, iki rükət namaz qıl və ya bir dəfə əlini dua üçün qaldır və ya hər hansı sadə bir ibadət işini yerinə yetir" o, bu işləri heç vaxt etməz. Bu işlər belə vəziyyətdə olan bir insana, asimana uçmaq kimi çətin gələr.

Davamında buyurur: "Biz bu insanların qəlbində "Rics" yerləşdirmişik və bu, İlahi bir qanundur. Əgər insan hidayətə təslim olsa, ona yeni bir hidayət verilər. Yox əgər hidayətə təslim olmasa, Allah onu öz halına buraxar.

İnsanı öz halına buraxmağın mənası budur ki, Allah onu zəlalət və azğınlığa salar. Allahın insanı azdırmasının mənası, ona hər hansı bir azdırıcı vasitənin verməsi anlamında deyil. Bəlkə bu mənadadır ki, Allah insanı öz halına buraxdığı zaman, insan öz şəhvət və qəzəbinə tabe olaraq, azğınlığa tərəf yaxınlaşar.

Zaman keçdikcə, insan "Əmmarə" nəfsin əlində pisliyə və günaha sövq olunaraq ona giriftar olar. Allah-taala insana qarşı olan öz hidayət, rəhmət və nemətini kəsdiyi zaman, insan qəzəb, şəhvət və əmmarə nəfsin əlində əsir olur və öz halına buraxılır.

---

1 Ənam, 125.
2 Ənam, 125.

Elə bunun mənası da azğınlıqdır. Bu bəhslərdən belə bir nəticəyə yetişdik ki, əgər insan Allahın hidayəti müqabilində təslim olsa, ikinci hidayətə çatar ki, bu hidayətə də "Mükafat" deyirlər.

Allah-taala Bəqərə surəsində buyurur: Onlar Rəbbi tərəfindən göstərilən doğru yoldadırlar.[1]

أُولَٰئِكَ عَلَىٰ هُدًى مِنْ رَبِّهِمْ

Həmin surənin ikinci ayəsində buyrulur: O, təqva sahiblərinə doğru yolu göstərən bir Kitabdır.[2]

هُدًى لِلْمُتَّقِينَ

"Hudən-lilmuttəqin"( Doğru yolu göstərən) olmağın səbəbini isə, surənin sonrakı ayəsini gətirərək, açıqlayır və buyurur: Onlar Rəbbi tərəfindən göstərilən doğru yoldadırlar.[3]

أُولَٰئِكَ عَلَىٰ هُدًى مِنْ رَبِّهِمْ

Beləliklə bu nəticəyə gəldik ki, insan üçün iki növ hidayət vardır. Birinci hidayətdə insanın fitrəti pak işə dəvət olunur, daxili sərmayəsi gözəl işə dəvət olunur, xaricdən isə xarici hüccətlər, peyğəmbərlər (ə) və səmavi kitablar onu düz yola hidayət edir. Əgər insan bunlara müsbət cavab versə, ona ikinci hidayət verilir. İkinci hidayət isə, insanın qəlbinin böyüməsi və açılmasıdır.

Yox əgər insan ibtidai hidayətə müsbət cavab verməsə, zəlalətə düçar olar. Zəlalət isə, elə cəzadır.

Quran terminində zəlalətin mənası "Olmaq" mənasında deyil, əksinə "Yoxluq" mənasını ifadə edir. Əslində zəlalətin mənası Allahın insanı zəlalətə daxil etməsi yox, bəlkə insanı öz halına buraxmasıdır.

Başqa sözlə desək, "azğınlıq" hər hansı bir şeyə malik olmamaq və hidayətdən bəhrələnməmək deməkdir. İnsandan onun hidayətini götürmək, zəlalət anlamını verir. Ayədə də Allah buyurur ki, ruhunu günahla çirkləndirənlər, nəticə etibarı ilə, qəlblərini təslim olmaq üçün kiçiltmiş olurlar.

1 Bəqərə, 5.
2 Bəqərə, 2.
3 Bəqərə, 5.

# Ümumi kütlənin hidayəti (2)

وَلَٰكِنْ مَنْ شَرَحَ بِالْكُفْرِ صَدْرًا فَعَلَيْهِمْ غَضَبٌ مِنَ اللَّهِ وَلَهُمْ عَذَابٌ عَظِيمٌ

..Kim iman etdikdən sonra Allahı inkar edər və qəlbini küfrə açarsa, onlara Allahdan bir qəzəb gələr. Onlar üçün böyük bir əzab vardır.

Quran iki növ "şərhi-sədr"(Qəlbin genişlənməsi)-dən söhbət açır. Onlardan birinə Ənam surəsndə işarə edilir. Allah buyurur: "...Onun qəlbini İslama açar.[1]

Ayənin mənası budur ki, Allah hidayətə müsbət cavab verənlərin qəlbini, Allahın əmrlərinə təslim olmaq üçün böyüdər və həqiqətdə bu insanlar haqqı rahat qəbul edərlər.

Şərhi-sədrin ikinci növü də var. Bu növ Şərh-sədr bu mənadadır ki, tədricən insanın qəlbi böyüyür və get-gedə o, rahatlıq tapar. Nəhl surəsində Allah-taala buyurur: ...Allahı inkar edər və qəlbini küfrə açarsa...[2]

مَنْ شَرَحَ بِالْكُفْرِ صَدْرًا

Ayədən başa düşülür ki, küfr üçün qəlbi açılan kəsin qəlbi, inad və günah etmək üçün də açıq olar.

Əgər insan Allahın hidayətini qəbul edib, yaxşı insan olana kimi Allaha itaət etsə, qəlbi islam üçün açılar. Bundan sonra yaxşı iş görmək onun üçün rahatdır və bu yolda onun qarşısında heç bir çətinliyi olmaz. Belə insalar üçün günah etmək daha çətin və ağırdır. Yəni insanın qəlbində və ruhunda belə bir qayda var ki, əgər yaxşı işini davam etdirsə, bu iş onda adətə çevrilər və insanın ayrılmaz xasiyyəti kimi olar. Belə olduqda isə, yaxşı işləri rahat şəkildə yerinə yetirə bilər. Səbəbi isə budur ki, həmin yaxşı və bəyənilər işlər, insanın varlığının hissələrindən birinə çevrilmişdir. Quran bu barədə Əla surəsində buyurur: Biz sənə ən asan olanı (İslam dinini) müyəssər edəcəyik.[3]

وَنُيَسِّرُكَ لِلْيُسْرَىٰ

---

1 Ənam, 125.
2 Nəhl, 106.
3 Əla, 8.

Ayədən də məlum olur ki, Allah-taala yaxşı işlərin Peyğəmbər (s) üçün daha asan etdiyini bildirir. “Yusra” sözü, savab işlər və ibadət mənasındadır.

Allah-taala “Leyl” surəsində buyurur:

Kim (haq sahibinə) haqqını verər, Allahdan qorxar,Və ən gözəl olanı (kəlmeyi-tövhidi) təsdiqləyərsə, Biz də ən asan olanı (cənnətə girə bilməyi) onun üçün asanlaşdırarıq.[1]

فَأَمَّا مَنْ أَعْطَىٰ وَاتَّقَىٰ وَصَدَّقَ بِالْحُسْنَىٰ فَسَنُيَسِّرُهُ لِلْيُسْرَىٰ

Əgər insan bəxşiş, təsdiq və təqva əhli olsa, eləcə də əməldə yaxşı işlər yerinə yetirsə,ruhunda bu xeyirli işlər vərdiş halına çevrilər. Nəticədə isə, yaxşı işlərə qarşı olan vərdişi və xasiyyəti, onun üçün mükafat hesab olar. Ona görə də Allah buyurur: Və ən gözəl olanı (kəlmeyi-tövhidi) təsdiqləyərsə, Biz də ən asan olanı (cənnətə girə bilməyi) onun üçün asanlaşdırarıq.[2]

وَصَدَّقَ بِالْحُسْنَىٰ فَسَنُيَسِّرُهُ لِلْيُسْرَىٰ

Bu xüsusiyyətə yiyələnən insana, yaxşı işlər asan olar və həmin işləri rahat və çətinlik hiss etmədən yerinə yetirər.

Yəni nəfs, şəhvət və dünyapərəstlik hissi, onu sədəqə verməməyə və yaxşı işlərdən uzaqlaşmağa təhrik edə bilməz. Bu xasiyyətdə olan insan üçün, sədəqə vermək, gecə Allah üçün ibadət etmək və yaxşı iş görmək rahatdır. Çünki həmin insan, hidayət olduğu kimi də, Allaha təslim olmuşdur. Bu xasiyyətdən uzaqlaşıb, özündə yaxşı işləri adət şəklinə çevirməyən insanlar barədə isə Allah-taala belə buyurur: Ancaq kim xəsislik edər, özünü (Allaha) möhtac görməz və ən gözəl olanı (kəlmeyi-tövhidi) təkzib edərsə, onun üçün də ən çətin olanı (cəhənnəmə girməyi) asanlaşdırarıq.[3]

وَأَمَّا مَنْ بَخِلَ وَاسْتَغْنَىٰ وَكَذَّبَ بِالْحُسْنَىٰ فَسَنُيَسِّرُهُ لِلْعُسْرَىٰ

Ayələrdən belə nəticəyə gəlirik ki, hər kim öz malını xeyir işlər üçün xərcləməkdən çəkinib, simiclik edərək onu gizlətsə, həmçinin yaxşı işləri inkar edib, o işlərdən uzaq dursa, Allah həmin şəxsi öz halına buraxar. Nəticədə isə onun qəlbi mənfi yöndə böyüyərək, küfr və günah üçün açılar.

---

1 Ləyl, 5-7.
2 Ləyl, 6-7.
3 Ləyl, 8-10.

Quranda qəlb mövzusuna aid olan ayələri mütaliə edəndə, belə məlum olur ki, iki növ Şərhi-sədr (Qəlbin genişlənməsi) mövcuddur: Onlardan biri, qəlbin pak və yaxşı işlər üçün açılmasıdır. Belə insanların qəlbi yaxşı işlər üçün genişlənib, böyüyür, əyri işlər üçün isə kiçilib, daralır və artıq onun üçün günah etmək çətinləşir.

Amma qəlbi əyri işlər üçün açılan şəxs, yaxşılıq etməkdən məhrum olar.

Allah-taala hər bir insanın qəlbini saf olaraq yaradır. Belə ki, insanlar yaradıldıqları ilk günlərdə, neytral bir qəlbə malikdilər. Yəni onların qəlbi nə xeyir işlərə, nə də ki, pis işlərə uyğun tərzdə genişlənməmiş olur. Amma zaman keçdikcə xeyir işlər və ya şər və günah işlərin nəticəsində, onların qəlbi əməllərinə uyğun şəkildə genişlənməyə başlayır. Yəni insanın əməl və rəftarlarının, ruhuna təsir edib, onun genişlənməsinə təsir etməsi, danılmaz bir faktdır. Əgər insan saleh əməl sahibi olsa, Allaha təslim olmaq üçün Şərhi-sədr əldə etmiş olar. Amma əgər günah əhli olsa və həmin günahları davamlı şəkildə təkrarlasa, onun qəlbi itaətsizlik və günah üçün genişlənər.

## *Səkkizinci dərsin xülasəsi*

### Hamının hidayəti

Allah-taala bütün insanları xeyrə tərəf hidayət etmişdir. Bu hidayətə, ibtidai hidayət deyilir. İbtidai hidayət, ümumi və hər kəsə şamil olan bir hidayətdir.

Əgər insan ilahi hidayəti qəbul etsə, onun qəlbi haqqın qəbulu üçün Şərhi-sədr qazanar və bu hidayət həmin bəndənin mükafatı olar.

Yox əgər insan ilahi hidayəti rədd etsə, ilahi cəzaya düçar olar və qəlbi paklıqlara qarşı qaralar.

Quran ayələrində iki növ Şərhi-sədr bəyan olunmuşdur.

A) Müsbət Şərhi-sədr.

Əməlin ilahi hökmlər üçün asan olması və ilahi itaət üçün məşq etməsi.

B) Mənfi Şərhi-sədr.

Bəyənilməyən işləri yerinə yetirməyin asanlaşması və ilahi üsyan üçün məşq etmək.

# Doqquzuncu dərs

# Haqqa dəvət (1)

وَإِذَا قَرَأْتَ الْقُرْآنَ جَعَلْنَا بَيْنَكَ وَبَيْنَ الَّذِينَ لَا يُؤْمِنُونَ بِالْآخِرَةِ حِجَابًا مَسْتُورًا

Quranda insanşünaslıq mövzusu, müxtəlif baxımlardan izah olunur. Bu mövzunun mühüm cəhətlərindən biri də, insanın qəlbi mövzusudur ki, mənəviyyat və irfana aiddir.

Quran buyurur: İnsan əvvəldə daxili sərmayə ilə birlikdə yaradılmışdır. Keçmiş bəhslərdə açıqladıq ki, Allah-taala insana iki növ sərmayə bəxş edib. Onlardan biri daxili, digəri isə xarici sərmayədir.

وَنَفْسٍ وَمَا سَوَّاهَا فَأَلْهَمَهَا فُجُورَهَا وَتَقْوَاهَا

Daxili sərmayədən məqsəd, insanın vicdanı və nəfsidir. Məhz həmin vicdan və nəfs vasitəsi ilə insan paklığa və haqqa tərəf yönəlir. Bu dəyərli sərmayə vasitəsi ilə insan həqiqətləri görüb, haq yolda addımlayır.

Xarici sərmayə isə, peyğəmbərlər (ə) və səmavi kitablardır. Deməli, insanı haqqa və xeyir işlərə tərəf dəvət edənin biri daxildən, digəri isə xaricdəndir. İnsanın bu iki dəvətə müsbət ya mənfi cavab verməsinin fayda və zərərləri barədə, keçən dərsdə danışmışıq.

Qeyd etmişdik ki, əgər insan Allahın hidayətini qəbul etsə və Allaha itaət edib, ona təslim olsa, qəlbi haqqa uyğun şəkildə böyüyər, haqqı görmək və haqqı yerinə yetirmək onun üçün asanlaşar. Ona görə də əgər insan dünya işləri barədə düşünüb, xeyir işləri yerinə yetirməkdə bir qədər yubansa, nigaran qalar və həmin xeyir işi təxirə sala bilər. Amma sədəqə və xeyir əhli olsa, artıq düşünmədən həmin xeyir işləri yerinə yetirər və bu işlərin icrası onun üçün rahat olar.

Ona görə də Allah ayədə buyurur:

Biz də ən asan olanı onun üçün asanlaşdırarıq.[1]

فَسَنُيَسِّرُهُ لِلْيُسْرَىٰ

Əksinə, əgər Allahın hidayət və dəvətinə, eləcə də daxili dəvəti, peyğəmbər (ə) və səmavi kitabların dəvətinə müsbət cavab verməsə və günah işlərə davam etsə, aşağıdakı ayənin misdaqına çevrilər.

1 Ləyl, 7.

فَأَلْهَمَهَا فُجُورَهَا وَتَقْوَاهَا

Ayənin mənası belədir: Ona şər və xeyir duyğularını ilham edənə (and olsun)![1]

Yəni insan itaətsizlik etsə, nəfsi ona şər işləri ilham edər. Yox əgər insan haqqa itaət etsə, nəfsi ona xeyir işləri ilham edib, bu işləri ona asanlaşdırar və beləliklə də onun qəlbi xeyir işlər üçün böyüyər. Necə ki, Allah buyurur: Biz də ən asan olanı onun üçün asanlaşdırarıq.[2]

فَسَنُيَسِّرُهُ لِلْيُسْرَىٰ

Allahın hidayətinə qarşı cavab verməyin keyfiyyəti, ruhun böyüməsi, təslim və ya küfr üçün şərhi-sədrə malik olmaqda, çox təsirə malik olan bir amildir. Əgər insan Allaha təslim olmaq üçün şərhi-sədri haqqa tərəf yönəlsə, xeyir iş görər, şərhi-sədri küfr üçün böyüyəndə isə, rahat şəkildə günah edər və bu günah işləri davam etmək üçün, haqqa qarşı inadkarlıq göstərər.

Mümkündür ki, bəzi insanlar ilk dəfə yalan danışan zaman, üzləri qızarır, nigaran və narahat olurlar. Amma yalan danışmağa davam edəndə, yalan onlarda adət şəklinə və həyatlarının ayrılmaz bir xasiyyətinə çevrilir. Yalan danışmaq onlar üçün nəfəs almamaq kimi mümkünsüz bir hala çevrilir. Belə insanlar yalan danışarkən xəcalət çəkmir, əksinə bu günahdan ləzzət də alırlar.

Quran ayələrinə əsasən, əgər insan hidayət və haq dəvəti qəbul edərsə, onun anlamaq hissləri daha da fəal olar. Bu mövzu, insanın xeyir işləri qəbul edib, onları icra etməsinə dəlalət edən məsələyə aiddir.

Şərhi-sədr mövzusunda, insanın vəzifəsi yaxşı işlərin daha çox həddə yerinə yetirməsidir. Çünki insanın qəlbi böyüdükcə, daha çox yerinə yetirdiyi işlərə qarşı adət edir və bununla da qəlbi həmin işlərin icrasına qarşı genişlənər. Əgər insan Allaha yaxın olub, hidayət yolunda daha çox fəal olarsa, haq və batili görər və nəticədə Allaha təslim olar. Bu barədə Allah buyurur:

Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla-nahaqqı ayırd edən (bir nur) verər.[3]

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِنْ تَتَّقُوا اللَّهَ يَجْعَلْ لَكُمْ فُرْقَانًا

---

1 Şəms, 8.
2 Ləyl, 7.
3 Ənfal, 29.

Ayədən məlum olur ki, əgər insan təqvalı olsa, daxili və xarici dəvət və hidayətə müsbət cavab verər.

يَجْعَلْ لَكُمْ فُرْقَانًا

Ayənin mənası budur ki, təqvalı olan şəxsə, Allah "Furqan" verər. Furqan haqqı batildən ayıran düşüncə və əqlə deyilir. Yəni insan təqvaya sahib olsa, onun anlamaq və dərki çoxalar. Məqsəd budur ki, ola bilər ki, insan əvvəllər bəzi məsələləri dərk edə bilmirdi, amma ona "Furqan" verildiyi üçün, artıq bilmədiklərini öyrənir və bir çox məsələləri daha yaxşı dərk edə bilir.

Ona görə də Allah buyurur: Əgər Allahdan qorxsanız...

إِنْ تَتَّقُوا اللَّهَ

Yəni necə ki, ikinci sinif dərslərini oxumaq, birinci sinifin dərslərini oxumağa bağlıdır, eləcə də "Furqan" əldə etmək üçün, "Təqva"-ya yiyələnmək lazımdır.

Allah başqa bir ayədə bəzi insanların "Nur" vasitəsi ilə hərəkət etdiyini bildirir. Bu barədə Allah buyurur: Özünə də insanlar arasında gəzmək üçün nur verdiyimiz şəxs.[1]

وَجَعَلْنَا لَهُ نُورًا يَمْشِي بِهِ فِي النَّاسِ

Allahın əmrinə təslim olan şəxsin həyat və yaşayışında nur var. İnsan həmin nur vasitəsi ilə yeni dərklər əldə edir və bu dərk, insanı ətrafındakılardan fərqləndirir. Ona görə də Allah buyurur: Əgər Allahdan qorxsanız, O sizə haqla nahaqqı ayırd etmə bacarığı verər (Ənfal,29).

إِنْ تَتَّقُوا اللَّهَ يَجْعَلْ لَكُمْ فُرْقَانًا

Əlbəttə zikr olunan ayənin mənasına diqqət yetirsək, başa düşərik ki, əgər insan ayənin mənasına əməl etməsə (Təqvaya yiyələnməsə), əksinə günah edib, kafir olub və Allaha şərik qoşsa, Furqandan məhrum qalar.

ان عصيتم و كفرتم و اشركتم

Bu baxımdan, Furqana nail olmaq üçün, zikr olunan ayəyə əməl etmək lazımdır.

إِنْ تَتَّقُوا اللَّهَ يَجْعَلْ لَكُمْ فُرْقَانًا

1 Ənam, 122.

Çünki əgər insan həmin ayəyə əməl etməsə, haqla batil arasında fərq qoyub, onları bir-birindən ayırd edə bilməz.

Bu mövzuyu Allah-taala digər bir ayədə fərqli şəkildə açıqlayır.

Sən Quran oxuduğun zaman səninlə Axirətə inanmayanların arasına gözəgörünməz pərdə çəkdik.[1]

وَإِذَا قَرَأْتَ الْقُرْآنَ جَعَلْنَا بَيْنَكَ وَبَيْنَ الَّذِينَ لَا يُؤْمِنُونَ بِالْآخِرَةِ حِجَابًا مَسْتُورًا

Ayədən anlaşılır ki, davamlı günah etməklə məşğul olanlar "Furqan"-dan uzaq düşər və həmin insanlar ilə peyğəmbər (s) arasında mənəvi pərdə yaranar.

Bu insanların ruhu ciddi şəkildə kirlənər və sonunda elə vəziyyətə düşərlər ki, haqqla batil arasında fərq qoyub, onları bir-birindən ayıra bilməzlər.

Ayənin "Sən Quran oxuduğun zaman" və "Axirətə inanmayanlar" cümlələrini oxuyub, onların mənası haqqında diqqətlə düşünəndə, məlum olur ki, mənəvi kar və korluğa, eləcə də hidayət yolu və furqandan uzaqlaşmağın səbəbi, günah və imanın yoxluğudur. Yəni imansızlıq və günahdır ki, insanın mənəvi korluğuna və Peyğəmbər (s) ilə arasında hicab yaranmasına səbəb olur.

Ayənin sonunda "Məstur" sözü işlənib. Bu söz "Gizli" anlamını verir. Ona görə də ayə, "Səninlə onların arasında biz gizli hicab yerləşdirdik" olaraq tərcümə edilib.

İnsanın yaşayış mühitindəki bəzi maneələr olduğu kimi, mənəvi aləmdə də bəzi maneələr olur. Misal üçün, yaşadığımız evin otaqları arasında, onları ayıran divarlar var. Bu divarlar otaqlar arasında bir maneədir. Biz bir otaqdan digər otağı görmədiyimizin səbəbini anlayırıq. Bilirk ki, otaqlar arasında divar var. Eyni zamanda da həmin maneələri görürük. Amma bəzən daxilimizdə maneələr var və həmin maneələr bizimlə mənəvi aləm arasında divar rolunu oynayır və biz o maneələri görmürük.

Bu baxımdan Mütəal Allah ayədə "Gizli" sözündən istifadə edir və Quran ayələrinə əsasən bu gizli hicab, qəlbin (ruhun) üzərindəki mənəvi hicabdır.

---

1 İsra, 45.

# Haqqa dəvət (2)

İnsanın etdiyi günahlar, axirət əzabından əvvəl insanı dünyada böyük bir əzaba giriftar edir və o da budur ki, günahlar nəticəsində onun qəlbinə pərdə çəkilir, artıq haqqı görmür, eşitmir və demir. Allahın dəvət və hidayəti iki daxili və xarici sərmayə əsasındadır.

Əgər insan günah edib, Allahın dəvətini qəbul etməsə, Allah yenə də ona möhlət verər.

Ona görə də Allah bəzi ayələrdə buyurur: Ola bilsin ki, onlar (haqq yola) qayıdarlar.[1]

لَعَلَّهُمْ يَرْجِعُونَ

Tövbə edib, Allaha tərəf qayıtsınlar deyə, onlara möhlət verilir. Amma əgər qayıtmasalar və tövbə şansını əldən versələr, qəlbləri qaralıb, möhürlənər. Quran bu barədə buyurur: Allah onların qəlblərini və qulaqlarını möhürləmiş, gözlərini də pərdələmişdir. Onlar üçün böyük bir əzab vardır.[2]

خَتَمَ اللَّهُ عَلَىٰ قُلُوبِهِمْ وَعَلَىٰ سَمْعِهِمْ ۖ وَعَلَىٰ أَبْصَارِهِمْ غِشَاوَةٌ ۖ وَلَهُمْ عَذَابٌ عَظِيمٌ

Hər kəs bilir ki, qurtarmış və bitmiş şeylərə möhür vurulur. Misal üçün məktubu yazıb, bitirdikdən sonra, ona möhür vurulur. Məktuba möhür vurulmasının mənası budur ki, məktubda yazılası və deyiləsi sözlər qurtardı.

İnsanın qəlbinə möhür vurulmasının mənası da budur ki, artıq həmin insanın hidayət olma şansı qalmayıb. Çünki ona deyiləsi sözlərin hamısı deyilib, verilən fürsətlər də qurtarıb. Tövbə fürsətlərini əldən verdiyi üçün, onun qəlbinə mənəvi möhür vurulur.

Həmin insanlar şəhvətlərinə tabe olduqları üçün haqqı tanımır, görmür və demirdilər. Günah işləri nəticəsində, sanki "bizim qulaqlarımız ağır, gözlərimiz kor və dilimiz laldır" deyirdilər.

Günahlarına davam etdikləri üçün, Allah bunları öz halına buraxdı. Nəticədə isə, həqiqətən kor, kar və lal oldular. Günahı təkrarlama və davam etmə onlarda hicab yaratdı və bununla da artıq haqqı görə bilmədilər.

Həmin insanlar, ilk günlərdə haqqı görsələr də, ona qarşı inad edib,

1 Səcdə, 21
2 Bəqərə, 7.

şəhvət və qəzəblərinə müsbət cavab verirdilər. Onlar, davamlı şəkildə günaha aludə olaraq, (Günahın mənası budur ki, insan əməldə və ya həm dildə, həm də əməldə haqqı qəbul etməyib, onu eşitməsin və dilində də onu təsdiq etməsin) elə bir vəziyyətə çatdılar ki, sağlam düşüncə və ağılın qəbul edə biləcəyi "Vəhy", "Hədis" və "Quran ayələri" kimi həqiqətləri danıb, onları uydurma hesab etdilər.

Özlərini belə səviyyəyə düşürən insanları, Allahın əzabı ilə qorxutmağın heç bir mənası yoxdur.

Ona görə də Allah buyurur: Onlar dedilər: "Öyüd versən də, verməsən də, bizim üçün fərqi yoxdur. [1]

قَالُوا سَوَاءٌ عَلَيْنَا أَوَعَظْتَ أَمْ لَمْ تَكُنْ مِنَ الْوَاعِظِينَ

Ayəyə diqqət yetirsək, görərik ki, qəlbi korlanan insanlar üçün nəsihətin belə faydası yoxdur. Hatta onlar, özləri bunu etiraf edir.

Başqa bir ayədə isə, mütəal Allah qəlbi korlanan insanlar barədə Peyğəmbərə (s) belə buyurur: Sən onları qorxutsan da, qorxutmasan da, onlar üçün eynidir, iman gətirməyəcəklər.[2]

وَسَوَاءٌ عَلَيْهِمْ أَأَنْذَرْتَهُمْ أَمْ لَمْ تُنْذِرْهُمْ لَا يُؤْمِنُونَ

Allah ayədə Peyğəmbərə (s) bu həqiqəti çatdırır ki, qəlbi məhv olmuş insanı cəhənnəm əzabı ilə qorxutmaqla, qorxutmamağın heç bir fərqi yoxdur. Yəni olnların daxilində artıq mənəvi maneə yaranıb və onlar həqiqətləri dərk etmə gücünü əldən veriblər.

Ona görə də Allah İsra surəsində buyurur:

Sən Quran oxuduğun zaman səninlə Axirətə inanmayanların arasına gözəgörünməz pərdə çəkdik.[3]

Yəni qəlb mənəvi hicabla örtüləndə, artıq həm xaricdəki, həm də öz daxilindəki nidaları eşitmir. Belə insanlar, sözün həqiqi mənasında mənəvi kar, kor və laldılar.

Allah-taala digər surənin ayələrində bu mövzunu başqa cür izah edərək, buyurur:Xeyr, həmin gün onlarla Rəbbi arasına pərdə çəkiləcək![4]

كَلَّا إِنَّهُمْ عَنْ رَبِّهِمْ يَوْمَئِذٍ لَمَحْجُوبُونَ

Ayənin mənası budur ki, həmin insanlar qiyamət günü qəlbləri ilə

1 Şüəra,136.
2 Yasin,10.
3 İsra,45.
4 Mutəffifin,15.

rəbblərini görə bilmirlər və Allahın rəhmətindən uzaq düşəcəklər. Əlbəttə ki, burada "Uzaq düşmək" sözünün mənası, məkan məsafəsi anlamında deyil. Məqsəd budur ki, qəlblərində hicab yaranan insanlar, həmin mənəvi maneəyə görə Allahdan uzaq düşəcəklər. İnsanın qəlbi mənəvi hicaba bürünəndə, həqiqətlərə yaxın olsa da, onları görmür. Çünki günahlar nəticəsində insanın qəlbi kirlənir və nəticədə də həqiqətləri görməkdən aciz qalır.

Bu barədə Allah, yuxarıdakı ayədən öncə nazil olan ayədə buyurur: Xeyr! Onların qəlbini qazandıqları (günahlar) bürümüşdür.[1]

كَلَّا ۖ بَلْ ۜ رَانَ عَلَىٰ قُلُوبِهِمْ مَا كَانُوا يَكْسِبُونَ

Bəzən insan hər hansı bir şeyin üzərində örtük olduğu üçün, onu görmür. Misal üçün üzərinə pərdə salınmış kitaba baxdığımız zaman, təbii ki, həmin kitabı görməyimiz mümkün deyil. Amma əgər kitabın üzərində həmin pərdə olmasa, biz o kitabı görüb, üzərində yazılanları da oxuya bilərik.

Allah peyğəmbərə (s) buyurur: Artıq bu gün gözündən pərdəni götürdük. Sən bu gün sərrast görürsən![2]

فَكَشَفْنَا عَنْكَ غِطَاءَكَ فَبَصَرُكَ الْيَوْمَ حَدِيدٌ

Bu ayədə Allah peyğəmbərə (s) xitab edir və qiyamət günü pərdələrin götürüləcəyini bildirir. Ayədən məlum olur ki, Allah ilə insan arasında mənəvi maneənin yaranma səbəbi, insanın özündədir. Məhz daxildəki pərdə nəticəsində insan bir çox həqiqətləri görə bilmir.

İnsan öz günahları ilə, qəlbinə və mənəvi dəyərinin varlığına hicab çəkir. Öz varlığını hicaba bürüdüyü vaxt, xaricdə olan həqiqətləri görmür və haqqı qəbul edə bilmir.

Bu insanlar barədə Allah buyurur:

Onlar kar, lal və kordurlar (haqqı eşitməz, danışmaz və görməzlər). Buna görə də (öz pis adətlərindən, yaramaz əməllərindən) dönməzlər.[3]

صُمٌّ بُكْمٌ عُمْيٌ فَهُمْ لَا يَرْجِعُونَ

Əgər insan günah etməyə davam etsə, gözü kor, dili lal və qulağı kar olar. Əksinə, əgər Allahın hidayətinə müsbət cavab verib, günahlardan uzaqlaşaraq, itaət əhli olsa, Allahın əmr və göstərişlərinə təslim olar.

---

1 Mutəffifin,14.
2 Qaf, 22.
3 Bəqərə, 18.

Mütəal Allah, onun hidayət yolunu qəbul edib, haqq yola təslim olan şəxs barədə buyurur: Məgər Allahın, köksünü İslam üçün açdığı və Rəbbinin nura yönəltdiyi şəxs (kafirlə eyni ola bilərmi)? [1]

أَفَمَنْ شَرَحَ اللَّهُ صَدْرَهُ لِلْإِسْلَامِ فَهُوَ عَلَىٰ نُورٍ مِنْ رَبِّهِ

İtaəti qəbul edib, günahlardan uzaqlaşan şəxsə, Allah tərəfindən bir nur verilər. İnsan həmin nur vasitəsi ilə haqqı görüb, onu batildən ayırmağı bacarar.

Amma əgər insan itaətsizlik və batil yolu seçsə, həmin nurdan məhrum qalıb, mənəvi qaranlıqda qərq olar. İnsanşünaslıq mövzusunda qeyd etdik ki, insanın həm daxilində, həm də xaricində bir sərmayəsi var. Əgər insan həmin dəyərli və əhəmiyyətli olan sərmayələrə qarşı bilərəkdən etinasız davransa, bədbəxt olar.

Necə ki, Allah buyurur: Onu (günaha) batıran isə ziyana uğramışdır.[2]

وَقَدْ خَابَ مَنْ دَسَّاهَا

Çünki artıq həmin iki sərmayə yoxdur, amma ilk günlərdə insan onlardan istifadə edib, düz yolu taparaq, hidayət nurunu əldə edə bilərdi. Amma artıq bu fürsəti əldən vermiş oldu. Ona görə də özünü belə vəziyyətə salan insan, öz halına buraxılır. İnsan da öz halına buraxılan zaman, sərmayəsini dəfn edir, qəzəb, şəhvət və xəyalla yaşamağa davam edir.

Amma əksinə, əgər insan bu sərmayədən düzgün istifadə edərək, öz mənəvi dəyərini yüksəyə qaldıra bilsə, həmin sərmayələr də dəfn olmaz. Yəni insan bu sərmayələr vasitəsi ilə həm daxili, həm də xarici dəvətlərə müsbət cavab versə, lazımi addımlar atsa, haqqı qəbul etsə və təslim olsa, bu vaxt onun furqan və nuru çoxalar, dərki genişlənər, və mənəvi uğur qazanmış olar.

Ona görə də Allah buyurur: Nəfsini (günahdan) təmizləyən uğur qazanmışdır.[3]

قَدْ أَفْلَحَ مَنْ زَكَّاهَا

---

1 Zumər, 22.
2 Şəms,10.
3 Şəms, 9.

## *Doqquzuncu dərsin xülasəsi*

**Haqqa dəvət**

İnsan iki növ "Daxili" və "Xarici" sərmayə ilə haqqa dəvət olunur.

İnsan bu iki sərmayəni qəbul edəndə, onda yeni baxış və furqan yaranaraq, ona yeni nur əta olunur. Məhz bu nur vasitəsi ilə insanın hidayəti artaraq, inkişaf edir.

Əgər insan haqqın dəvətini qəbul etməsə və hidayət nuruna daxildən və xaricdən cavab verməsə, həqiqətdən mənəvi hicaba düçar olar.

Quran ayələrinə əsasən, günah və üsyan, nur, dərk və ağıl çırağı ilə bir-birinin əksinə olan həqiqətlər kimi tanıtdırılır.

# Onuncu dərs

# İnsanın ixtiyarı (1)

إِنَّا هَدَيْنَاهُ السَّبِيلَ إِمَّا شَاكِرًا وَإِمَّا كَفُورًا

Təfsirçi və ilahiyyatçılar arasında insan haqqında mübahisəyə səbəb olan Quran mövzularından biri də, insanın ixtiyar sahibi olub, olmaması mövzusudur.

Bu mövzunun ən əsas suallarından biri budur ki, görəsən insan ixtiyara malik olan bir varlıqdırmı? Əşərilər kimi bəzi məzhəblər, bir çox ayələrin zahirinə istinad edərək, çalışırlar ki, insanın ixtiyarının olmamasını sübut etsinlər.

Amma əgər Quran ayələrini diqqətlə oxusaq, bu nəticəyə gələrik ki, insan ixtiyar sahibdir. Eyni zamanda da onun ixtiyarı fərqlidir. Bu barədə gələcək dərslərdə geniş şəkildə məlumat verəcəyik.

İnsanın ixtiyar sahibi olmasına aid olan ayələrə diqqət yetirsək, həmin ayələri bir neçə hissəyə bölmək olar.

Ayələrin bəzisi insanın ixtiyar sahibi olduğunu çatdırır. Misal üçün aşağıdakı ayəni oxuyanda, açıq şəkildə məlum olur ki, insan ixtiyar sahibidir və insanın qarşısında qarşı tərəfin vəzifəsi, yalnız doğru yolu göstərməkdir.

Misal üçün Allah buyurur:

Şübhəsiz ki, Biz ona yol göstərdik! Fərqi yoxdur, ya şükür etsin, ya da naşükür olsun.[1]

Bu ayə onu çatdırır ki, Allahın insana bəxş etmək istədiyi şey, onun hidayət olmasıdır və Allah həmin doğru yolu insana göstərir. Eyni zamanda da, bu düz yolu qəbul edib, etməmək də, insanın öz ixtiyarındadır. İnsan istəsə hidayət yolunu seçər, istəsə də, küfr və itaətsizliyi.

Kəhf surəsində də bu ayənin məzmununda bir ayə var. Allah buyurur: Kim istəyir inansın, kim də istəyir inanmasın.[2]

فَمَنْ شَاءَ فَلْيُؤْمِنْ وَمَنْ شَاءَ فَلْيَكْفُرْ

1 İnsan,3.
2 Kəhf,29.

Diqqət etmək lazımdır ki, ayədəki "Kim istəyir" cümləsindən məqsəd bu deyil ki, insanların haqq yoldan uzaqlaşıb, yanlış yola getməsinə Allah razıdır və ona görə də onlara icazə verir. Xeyr, əlbəttə ki, belə deyil. Cümlənin mənası budur ki, dünya, ixtiyar dünyasıdır və insanlar etdikləri işlərdə, inandığı əqidələrdə azaddırlar. Bu aləmdə məcburiyyət yoxdur. İnsan öz seçimlərini ixtiyarla seçməlidir. İman gətirsə də, kafir olsa da, bu işi öz ixtiyarı ilə etməlidir. Ona görə də ayədə buyurur: Kim istəyir inansın, kim də istəyir inanmasın.[1]

فَمَنْ شَاءَ فَلْيُؤْمِنْ وَمَنْ شَاءَ فَلْيَكْفُرْ

Bu məzmunda olan ayələr, aydın şəkildə izah edir ki, iman və ya küfr yolunu seçməkdə, insanlar ixtiyar sahibidir.

Bəzi ayələr də var ki, Allah həmin ayələrdə, bütün insanları imana gətirəcək gücə və qüdrətə malik olduğunu bildirir. Yəni həmin ayələrdə, Allahın insanları icbari şəkildə imana hidayət edə biləcək gücə malik olduğu bildirilir. Məqsəd budur ki, Allah istəsə, insanların hamısını imana yönəldərdi və o, bu gücə və qüdrətə malikdir.

Həmin mənada olan ayələrdən biri də, Rəd surəsindədir. Allah buyurur: Məgər iman gətirənlərə bəlli olmadımı ki, əgər Allah diləsəydi, bütün insanları hidayətə (doğru yola) yönəldərdi?[2]

لَوْ يَشَاءُ اللَّهُ لَهَدَى النَّاسَ جَمِيعًا

Amma Allahın istək və iradəsi, insanları məcburi şəkildə haqq yola yönəltməsi deyil. Çünki insan bu dünyada mənəvi yöndə inkişaf edib, kamala çatması üçün, gərək haq yolu öz istək və ixtiyarı ilə seçsin.

Mövzuya aid olan bəzi ayələr də var ki, həmin ayələrdə insana verilən cəza və ya mükafatın səbəbi açıqlanır. Belə ki, insan verilən cəza və ya mükafat, onun öz seçimi əsasında olur. Çünki doğru və ya yanlış yolu, onun özü, öz ixtiyarı ilə seçib.

Hər halda, bu növ ayələr də onu sübut edir ki, insan ixtiyar sahibidir.

Mütəal Allah Nəcm surəsində buyurur:

İnsana ancaq öz zəhməti (səyi, çalışması, əməli) qalar! (Nəcm,39).

وَأَنْ لَيْسَ لِلْإِنْسَانِ إِلَّا مَا سَعَىٰ

Həmçinin Fussilət surəsində buyurur:

1 Kəhf, 29.
2 Rəd, 31.

Yaxşı iş görənin xeyiri özünə, pislik edənin də zərəri özünə olar. (Ya Peyğəmbər!) Sənin Rəbbin (haqsız yerə) bəndələrə zülm edən deyildir![1]

مَنْ عَمِلَ صَالِحًا فَلِنَفْسِهِ ۖ وَمَنْ أَسَاءَ فَعَلَيْهَا ۗ وَمَا رَبُّكَ بِظَلَّامٍ لِلْعَبِيدِ

Yəni yaxşı və ya pis işləri yerinə yetirən, insanın özüdür. Əgər insan saleh işlərlə məşğul olsa, bu onun öz xeyrinədir. Yox əgər özünü günah işlərə aludə etsə, bu onun əleyhinə və zərərinə olacaq.

Bu və bu məzmunda olan ayələr, onu göstərir ki, mükafat və cəza, insanın əməl və ixtiyarının nəticəsdir.

Allah-taala başqa bir ayədə buyurur:

Hər kəs öz əməlinin girovudur![2]

كُلُّ نَفْسٍ بِمَا كَسَبَتْ رَهِينَةٌ

Yəni insan əməlinin qarşılığında mükafatlanıb, cəzalandırılacaq.

Allah-taala ayədəki "Öz əməlinin" cümləsini işlətməklə, insanlara bunu çatdırır ki, yaxşı işləri yerinə yetirib, xoşbəxt olan da, pis işlərlə davamlı məşğul olub, özünü bədbəxt edən də, elə insanın özüdür.

# İnsanın ixtiyarı (2)

كَلَّا إِنَّ الْإِنْسَانَ لَيَطْغَىٰ

Ayələrin zahiri mənası və onların açıqlamasından anlaşılan budur ki, insan ixtiyar sahibidir. Buna görə də, insanın əməli onun işinə və iradəsinə aid edilir. İnsanın ixtiyar sahibi olması, həm fəlsəfi dəlillər, həm mötəbər hədis kitabları, həm də ki, Quran ayələri ilə sübuta yetirilir.

Ayələrin iki qrupu araşdırıldı. Həmin ayələdə, aydın şəkildə insanın seçim sahibi olduğu bildirildi. Belə ki, bəzi ayələrdə, insanın ixtiyar sahibi olduğu, bəzi ayələrdə isə onun qazandığı əməllər nəticəsində, cəza və ya savab verilməsi açıqlandı.

İnsanın ixtiyarı haqqında olan ayələrin üçüncü qrupu isə, peyğəmbərlərin (ə) göndərilməsi və onların risalətinə aiddir. Allah-taala bu barədə buyurur: Kitabı (Quranı) və (oradakı) hikməti onlara öyrətsin, onları (günahlardan) təmizləsin![3]

---

1 Fussilət, 46.
2 Muddəssir, 38.
3 Bəqərə, 129.

وَيُعَلِّمُهُمُ الْكِتَابَ وَالْحِكْمَةَ وَيُزَكِّيهِمْ

Ayənin mənasına diqqət yetirsək, görərik ki, Allah-taala peyğəmbərləri (ə), insanlara kitab və hikmət öyrədib, qəlblərini günahdan təmizləyərək, ürək və ruhlarını paklandırsınlar deyə göndərib. Bu risalət o vaxt öz yerini tutar ki, insanlar öz ixtiyarı ilə seçim etmiş olsunlar.

Çünki əgər insan ixtiyar sahibi olmasa, yuxarıdakı ayənin heç bir anlamı olmazdı.

Belə ki, peyğəmbərlərin (ə) və həmçinin səmavi kitabların göndərilməsi, buna görə idi ki, insan təlim və tərbiyə vasitəsi ilə kamala çatsın. Çünki hamımız bilirik ki, təlim və tərbiyə, insanın ixtiyar və seçimindən asılıdır. Əgər insanın ixtiyarı olmasa, təlim və tərbiyənin nə mənası var?! İnsan seçimə malik olan bir varlıq olduğu üçün, təlim və tərbiyə vasitəsi ilə də, kamil insan olmaq da, ona aid olan bir mövzudur.

Əgər insan azad seçimə sahib olmasa, təlim-tərbiyənin mənası olmaz.

Quran və peyğəmbərlərin (ə) risalətinin əsas hədəfi olan təlim və tərbiyənin mənası, insanın ixtiyar sahibi olmasındadır. Ona görə də insanın təlim və tərbiyəyə istedadı vardır.

Eyni zamanda da unutmamalıyıq ki, insanın ixtiyar sahibi olması, bu anlama gəlmir ki, digər amillər insana təlim və tərbiyə yolunda təsir etmir. İxtiyarlı olmağın mənası, seçimin insanın öz öhdəsində olmasını bildirir. Bu seçimdə, digər amillərin insanın qərar qəbul etməsi üçün min bir şərait yaratması da mümkündür. Beləliklə, Quran ayələrindən aldığımız nəticə budur ki, təlim və tərbiyədə digər amillər olsa da, yenə də insan öz seçimində ixtiyar sahibidir. Misal üçün İbrahim surəsində Allah-taala Şeytanın dilindən belə nəql edir: Əslində mənim sizin üzərinizdə heç bir hökmüm (sizi özümə tabe edə biləcək heç bir qüdrətim) yox idi. Lakin mən sizi (günah işlətməyə, Allaha asi olmağa) çağırdım, siz də mənə uydunuz.[1]

وَمَا كَانَ لِيَ عَلَيْكُمْ مِنْ سُلْطَانٍ إِلَّا أَنْ دَعَوْتُكُمْ فَاسْتَجَبْتُمْ لِي

Ayənin mənasına diqqət yetirsək, üç mühüm olan nöqtəyə işarə edildiyi məlum olacaq:

a) Şeytanın insanları pis işlərə məcbur etmədiyi.

---

1 İbrahim, 22.

b) Şeytan insanları pis işlərə sadəcə dəvət edir.
c) İnsanlar özləri, öz seçimləri ilə Şeytanın dəvətini qəbul edirlər.

Əslində insanlar ixtiyar sahibi olduğu üçün, onlara məsuliyyətli olmaq tapşırılır, qiyamət günündə cəza verilir, behişt və cəhənnəmi qazanmış olurlar. Əgər insan ixtiyar sahibi olmasa, cəza mükafat, cənnət və cəhənnəmin nə mənası olardı?!

Cənnət və cəhənnəmin varlığından məlum olur ki, insan əməlinə görə məsuliyyət daşıyır.

Ona görə də Quran Şeytanın dilindən bizə buyurur ki, Şeytan deyəcək ki, "Mən ki, sizin həyatınıza müdaxilə etmirəm, sizi əyri yola məcbur etmirəm. Mənim işim dəvət və bəzəməkdir. Mən sizin üçün min bir şərait düzəldirəm ki, siz əyri yolu seçəsiniz. Bu yolu özünüz (insan) seçirsiniz".

Şeytanın bu dəvətini, bir misal ilə açıqlayaq. Belə ki, misal üçün əgər bir insanı qonaqlığa dəvət edirlər. Ona dəvətnamə göndərilməyənə qədər, həmin insan o qonaqlığa gedib, getməmək barədə düşünmür. Çünki hələ qonaqlıq mövzusu gündəmdə deyil. Amma dəvətnamə göndəriləndən sonra, bu hiss yaranır ki, qonaqlığa getsin, yoxsa yox. Nəticədə getsə də, getməsə də, bu işi öz ixtiyarı ilə edir. Əgər günah məclisi və ya əksinə, savab məclisidirsə, məsuliyyətini özü, öz ixtiyarı ilə daşıyır.

Ona görə də Allah Şeytanın dilindən belə buyurur: Çağırdım, siz də mənə uydunuz.[1]

Allah Nəhl surəsində buyurur: Onun hakimiyyəti yalnız onu özünə dost tutanlar və Allaha şərik qoşanlar üzərindədir.[2]

إِنَّمَا سُلْطَانُهُ عَلَى الَّذِينَ يَتَوَلَّوْنَهُ وَالَّذِينَ هُمْ بِهِ مُشْرِكُونَ

Əgər insan Şeytanın vilayətini qəbul etsə, qapı-pəncərəsini onun üzünə açsa, bu vaxt Şeytan daxil olar. Əgər insan qəlbinin qapı və pəncərəsini Şeytanın üzünə bağlasa, Şeytan onun qəlbinə daxil ola bilməz.

Ona görə də Allah buyurur: Şübhəsiz ki, Şeytanın hiyləsi zəifdir![3]

إِنَّ كَيْدَ الشَّيْطَانِ كَانَ ضَعِيفًا

1 İbrahim, 22.
2 Nəhl,100
3 Nisa, 76.

Amma əgər insan qapını Şeytanın üzünə açsa, Şeytan ona nüfuz edə bilər.

Şeytan ilk olaraq insana pis işləri sadəcə təklif edir və ona, pis yolları, yaxşı, düz və xoşbəxtçiliyə səbəb olan bir yol kimi tanıtdırmağa başlayır. Bu vaxt insanda vəsvəsə yaranmağa başlayır və insan həmin işi yerinə yetirməyə başlayır. Əgər insan Şeytanın bu hiyləsinə daim əməl etsə, eləcə də özündə bu işi adət şəklinə çevirsə, Şeytan vəsvəsəsi qarşısında əsir olar. Bu gedişatla, insan o həddə çatar ki, Şeytanın vilayətini qəbul edər. Nəticədə isə, Şeytan ona alçaq işlərin icrasını da vəsvəsə edər. Necə ki, Allah buyurur: "Şeytan sizi yoxsulluqla qorxudaraq alçaq işlərə sövq edər" ayəsinin misdaqına .[1]

Əlbəttə Şeytanın vilayətinə daxil olmaq mövzusu, geniş bir mövzudur. Amma bunu bilməkdə də fayda var ki, Şeytanın vilayətinə daxil olmaq mövzusunda da, insanın ixtiyar və seçim məsələsi var. Hər halda, insan gərək daim və hər bir şəraitdə mübarizə aparsın, xasiyyətinə çevrilə biləcək və ya da çevrilmiş yanlış adətləri ilə mübarizə aparsın.

Unutmamalıyıq ki, Şeytanın ilk vəsvəsəsində yalnız dəvət var və bu dəvətdə Şeytan yalnız təklif edir. İnsan da Şeytanın vəsvəsəsini qəbul ya rədd etməkdə ixtiyar sahibidir. Yuxarıda dedik ki, insan Şeytanın vilayətinə daxil olan zaman da, ixtiyar sahibidir. Amma həmin vaxt Şeytanla cihad etmək, mübarizə aparmaq lazımdır.

## *Onuncu dərsin xülasəsi*

**İnsanın ixtiyarı**

İnsan ixtiyara malikdir və Quran ayələri bu mövzu haqqında iki formada dəlil gətirir:

A) Aydın şəkildə insanın ixtiyarına dəlalət edən ayələr.

B) Seçim mövzusu o vaxt məna verə bilər ki, insan ixtiyar sahibi olsun.

**إِنَّا هَدَيْنَاهُ السَّبِيلَ إِمَّا شَاكِرًا وَإِمَّا كَفُورًا**

İnsan surəsinin 3-cü ayəsi kimi ayələr aydın şəkildə insanın ixtiyarına dəlalət edir.

1 Bəqərə, 268.

Əgər insanın ixtiyarı olmasaydı:

A) Peyğəmbərlərin (ə) təlim və tərbiyə ayələrinin mənası olmazdı.

B) Cəza və mükafat ayələrinin mənası olmazdı.

C) İnsan şeytanın vəsvəsəsi müqabilində dura bilməz və onlara qarşı aciz qalardı.

# On birinci dərs

# İnsan ixtiyar sahibidir

Allahın adlarından biri olan "Xaliq" sözünün mənası, yaradan deməkdir. Mütəal-Allah Quranın bir çox ayələrində bildirir ki, varlıq aləmindəki bütün varlıqları o yaradıb və ondan üstün digər bir varlıq yoxdur. (Rəd surəsi: 16, Ənam surəsi: 101-102, Zumər surəsi: 62, Ğafir surəsi: 43).

Burada qarşıya belə bir sual çıxır ki, əgər Allah hər bir şeyi yaradıb, deməli insanın işləri də Allahın xilqətinə aiddir? Yəni insanların işlərini də Allah yaradıb və insanlar bu işlərin icrası üçün yalnız vasitə rolunu oynayır?

Bu suala cavab tapmaq üçün, aşağıda açıqlanan mövzuya diqqət yetirmək lazımdır.

**Yaranışda tövhid:**

Allahın xəlq etməkdə şəriki olmadığı və xaliqlikdə vahid olması, yaranışda tövhid deməkdir. Aləmdə hər bir şey, Allahın iradə və səbəbi ilə baş verir. Zahirdə görünən hər şey səbəb yox, bəlkə vasitədir. Quranda bu mövzuya aid bir çox ayələr mövcuddur. Misal üçün Allah buyurur:

Göyləri və yeri yaradan, göydən yağmur endirən, o yağmurla sizin üçün ruzi olaraq (cürbəcür) meyvələr yetişdirən, əmri ilə dənizdə üzmək (yüklərinizi bir yerdən başqa yerə daşımaq) üçün gəmiləri sizə (sizin mənafeyinizə) tabe və çayları sizə ram edən Allahdır![1]

Yəni Allahın əmri ilə yağdırılan yağış vasitəsi ilə, insanlar üçün meyvə və ruzi göndərilir. Bu su insanlar üçün səbəb və vasitədir. Ona görə də deyə bilərik ki, insanlar öz əməllərinin səbəb və vasitələridir.

Fəsad, pislik və təfriqə insanın özünün vasitə və səbəbi ilə həyata keçirilir. İşlərin çoxunun səbəbi, yerinə yetirilən işin özüdür.

Bütün səbəb və vasitələrin varlığı, Allahın varlığınna qayıtdığı kimi, vasitə və səbəblərin xasiyyəti də, Allahın varlığına qayıdır.

Amma işlərin bəzisi qeyri-iradi və insanın meyli üzündən baş vermir. Misal üçün od yandıran xasiyyətə malikdir. Amma Allahın iradəsi

1 İbrahim,32.

olmadan, odda olan bu xasiyyət, özünü göstərə bilməz. Və ya başqa bir misal ilə açıqlamaq istəsək, su və ona aid xüsusiyyəti misal gətirə bilərik. Suda batmaq insanın havasız qalaraq, boğulmasına səbəb olur. Bu, suyun xüsusiyyətidir. Amma yenə də, Allahın istəyi olmasa, suda bu xasiyyət qalmaz. Necə ki, atəşin İbrahimi (ə) yandırmadığı, suyun Musanı (ə) boğmadığı kimi.

Səbəb və nəticə qanunu qəbul normal və olunan bir qanundur. Allahın tək Xaliq olduğu da inkar edilməz bir qanundur. Varlıq aləmində Allahdan başqa kimsə vahid (tək) deyil. İradə və ixtiyar aləmində insanın əməlləri səbəb olur, amma bu müstəqil iradə deyil. İnsanın iradəsi Allahın istəyinə bağlıdır, amma bu o demək deyil ki, Allah insanın iradəsini əlindən alıb.

Allahın istəyi iradə əsasında olmasıdır. Belə ki, həm iradənin olması və həm də iradənin təsiri Allahdandır.

İnsanın işlərinin necə baş verməsi barədə, üç fikir söyləmək olar:

1- İnsan etdiyi işlər qarşısında məcburdur və onun bu işlərə dair ixtiyarı yoxdur.

Bunu açıqlamaq üçün, çırağı misal gətirmək olar. Yəni necə ki, lampa birbaşa yanır və yandırıb- sönməkdə onun heç bir ixtiyarı yoxdur, eləcə də insan etdiyi işlər qarşısında ixtiyara malik deyil. Bütün işləri məcbur və qeyri ixtiyari şəkildə yerinə yetirir.

2- İnsan tamamilə azaddır.

Bu nəzəriyyəyə əsasən, insan bütün işlərində öz başına buraxılıb, iradə etdiyi bütün işləri yerinə yetirə bilər. Belə ki, Allah belə, onun işlərinə dəxalət etmir. Yəni işlərdə, insanı dayandıran heç bir qüvvə yoxdur.

3- İnsan azaddır, amma malik olduğu hər azadlıq qarşısında da, məsuliyyət daşıyır və onlara görə cavab verməlidir.

Təbii ki, insanın azadlığı var, amma o, həmin azadlığa cavabdeh olmalıdır. Bu dünya sınaq dünyasıdır. İnsan malik olduğu ixtiyarla, özünü kamala çatdıraraq, mənəvi cəhətdən yüksəlir. İnsan malik olduğu ixtiyar vasitəsi ilə, ruhunu əzəmət və böyüklüyə çatdıra biləcəyi kimi, eyni zamanda da,öz seçimi ilə, özünü süqut və tənəzzülə düşürə bilər .

İnsanın ixtiyar sahibi olması, Allahın istəyidir. İnsanın bu dünyada kifayət qədər ixtiyar və iradəsi var, eyni zamanda da bu ixtiyarın həddi və hüdudu da var. Elə düşünməməliyik ki, Allah insanların işlərinə dair

sakit qalıb, heç dəxalət etmir.

Bilməliyik ki, biz insanlar hətta ixtiyar və iradə qüdrətinə sahib olduğumuz halda belə, yenə də, tamamilə Allaha möhtacıq. İnsanlar bilməlidir ki, hər zaman Allaha möhtacdılar.

Allah istəsə, insanın ruzisini kəsib, yaşayışına son qoyub, onun sahib olduğu hər bir şeyi əlindən ala bilər.

Deməli insanın həyatı, qüdrəti, ixtiyarı və varlığı Allaha bağlıdır. Əgər O istəsə, hər bir şeyi insandan alar.

Allaha bağlı və ona möhtac olmaq, "Əfali tövhidi"-ni dərk etməkdir.

Xaliqlikdə tövhid, səbəb və nəticənin Allaha bağlılığı anlamındadır.

Bilmək lazımdır ki, varlıq aləminə hakim olan, yalnız Allahın güc və qüdrətidir.

Bu aləmdə, Allahın qüdrətindən başqa, hər hansı bir işin yaranmasına səbəb olan, digər bir qüdrət yoxdur. Hər bir şeyin yaranışı, Allahın hakimiyyəti altındadır. Allah bu barədə buyurur: Allahın insanlar üzərində əhatəsi vardır. (Buruc, 20. Bəqərə, 19).

Allahın aləmdəki hakimiyyəti haqqında danışılanlardan belə nəticə alırıq ki, insan öz işlərində tam şəkildə məcbur deyil, eləcə də tam ixtiyara malik deyil. Yəni insan, etdiyi işlər qarşısında nə məcbur deyil, nə də tam ixtiyar sahibi. Bəlkə o, bu iki hökmün arasındadır.

## *On birinci dərsin xülasəsi*

### Yaradılışda tövhid

Cəbr məktəbinin şübhələrindən biri də, İlahi xaliqiyyətdə tövhiddir.

Bu tövhidə görə bütün əşyaların, o cümlədən insanın hərəkətlərinin yaradıcısı Allahın özüdür. Bu şübhənin cavabı belədir ki, aləmdə müstəqil bir failimiz (işi görən) var. İşlərin İlahi qüdrət, eləcə də onun feyzi və izni sayəsində baş verməsi, digər faillərin də olması ilə ziddiyyət təşkil tapmır.

Quran ayələri və məsumların (ə) hədislərindən belə məlum olur ki, insanın felləri iki işin arasında yer tutur. Yəni həm ixtiyar sahibidir, həm də ki, ona aid olan bəzi işlər, onun ixtiyarı olmadan baş verir. Yəni insan bir çox işləri öz seçimi ilə edir, amma eyni zamanda da tam olaraq öz öhdəsinə də buraxılmır. İnsan nə tam azaddır və nə də tam şəkildə məcbur. Çünki belə olsa, o, Allahın səltənət dairəsindən xaric olmuş sayılardı. Belə bir şeyin baş verməsi də, mümkün deyil.

# On ikinci dərs

# İnsanın ixtiyarı və işlərə cavabdeh olması

Qiyamət, cənnət və cəhənnəm, peyğəmbərlər (ə), təlim və tərbiyənin zəruriliyi və bu kimi mövzuların varlığı, ixtiyarla əlaqəli olan mövzulardır.

Allah Quranda buyurur: Biz ona haqq yolu göstərdik. İstər (nemətlərimizə) minnətdar olsun, istər nankor (bu onun öz işidir). (İnsan surəsi, ayə 3).

إِنَّا هَدَيْنَاهُ السَّبِيلَ إِمَّا شَاكِرًا وَإِمَّا كَفُورًا

Amma insanın ixtiyar sahibi olduğunu şübhə altına apara biləcək bəzi mövzular var. Misal üçün, Allahın qəza və qədər mövzusu kimi. Bəziləri deyirlər ki, əgər insan ixtiyar sahibidirsə, bəs Allahın insanlar üçün yazdığı işlər ilə, seçim məsələsi necə uyğunlaşır?

Əlbəttə qəza və qədər mövzusu, geniş və uzun bir mövzudur. Amma qeyd olunan şübhəyə cavab vermək lazımdır. Ona görə də burada az da olsa, qəza və qədər haqqında danışmaq lazımdır.

**Qəza və qədərin mənası**

Allahın iradəsi dedikdə, bu nəzərdə tutulur ki, aləmdə olan hər bir şey, Allahın iradəsindən xaric deyil.

İlahi elm dedikdə isə, məqsəd budur ki, Allah hər şeyi əzəldən bilir və ilahi elm əzəlidir. Əgər Allah gələcəkdə hər hansı bir işin baş verəcəyini bilirsə, o hadisə mütləq baş verməlidir və mümkün deyil ki, nəsə onun baş verməsinə mane olsun. Əgər Allahın elmi qəti və əməli olmasa, bu cəhl hesab olar. Bir halda ki, Allahın elmi qəti və dəqiqdir və o, bəşərin əməllərindən agahdır. Amma Allahın elmi, heç də insanların öz seçimlərində məcbur olduqları anlamına gəlmir. Yəni insanlar, etdikləri əməlləri nəticəsində, özlərinin gələcəkdəki yaşayışlarına mənfi və ya müsbət təsir göstərirlər. Bu təsirlər qəti şəkildə olsa da, olmasa da, bu Allahın elmində olur. Bu baxımdan da, Allahın elmi və insanın ixtiyarı mövzusu, bir-birinə zidd deyil.

Eyni zamanda da, Allah öz işlərini qəti şəkildə bilir.

Varlıq aləmində iki növ hadisə var:

A) Səbəbləri ixtiyarsız olan və şüura malik olmayan hadisələr.

Allahın elmi həmin ixtiyarsızlıq əsasındadır və bəzi səbəblər ixtiyarladır və şüura malikdir.

B) Zərurət cəbr anlamında deyil.

1- İnsanın ixtiyarı

Qəza və qədər aləminə aid olan heç bir şey, Allahın iradəsindən kənarda deyil. Əgər Allah istəsə, istənilən iş sona çatar, yox əgər istəməsə, həmin hadisə baş verməz.

2- Qəza və qədərlə münasibətdə iradə şübhəsi.

**Şübhə və dəlilin fərqi:**

Dəlil, insanın elə bir sübut tapmasına deyilir ki, başqa bir şeydə ixtiyara sahib olmasın.

Şübhə isə, ixtiyarın olduğunu bildirir. Yəni insan şübhə etdiyi şey barədə soruşur, amma problemi tapıb, həll edə bilmir.

Bu deyilənlər, insanın ixtiyarsızlığına səbəb deyil. Amma bəziləri şübhə yaradırlar ki, əgər insan muxtardırsa, onda Allahın iradəsi mövzusu necə olur? Və ya əgər insan ixtiyar sahibidirsə, bəs Allahın elmi necə olur?

İradə aləmdə baş verən hadisə ilə bağlıdır. Allah insanın bu aləmdə ixtiyarla yaşamasını istəmişdir. Məsələn, Allah istəyib ki, atəş yandırıcı xasiyyətə malik olsun.

Həmçinin Allah insanın ixtiyara malik olmasını istəyir. Əgər Allah istəməsəydi, insanın ixtiyarı da olmazdı. Ona görə də, insanın bu iradə və ixtiyarı Allaha bağlıdır. Əgər Allah istəməsə, bizim heç bir iradə və ixtiyarımız olmaz. İnsan əməllərinə görə cavabdehlik daşıdığına görə, ixtiyara malik olmalıdır.

Amma Allah bu iradəni əbəs yerə insana verməmişdir. Əgər Allah istəsəydi, hamı Allaha iman gətirər, kimsə Allaha küfr etməz və hamı düzgün yola qədəm basardılar. Amma əgər bu cür olsaydı, bu icbari iradə olar və insanın kamal və məqamının dəyəri qalmazdı.

İnsanın kamala çatması üçün, Allah ona iki yolu göstərir:

Onlardan biri, yaxşı və düz yolu ona göstərməsi, ikincisi isə, ona pis yolu göstərməsidir.

Şeytan əvvəldə şər qüvvə deyildi, amma öz ixtiyarı ilə şəri seçdiyi üçün, şər qüvvəyə çevrildi. Belə bir sual ortaya çıxır ki, nəyə görə Allah şər qüvvə olan Şeytana, qiyamətə kimi möhlət verdi? Həmçinin bu sual yaranır ki, niyə ona bu möhləti, məhz qiyamətə kimi verdi?

Niyə Allah şər və vəsvəsəyə malik olan, eləcə də  insanı vəsvəsəyə sürükləyən bir varlığa qiyamətə qədər möhlət verir?

Cavab: Bu vəsvəsə və şər, insanın ixtiyarını ondan almır və onun iki yol qarşısında seçimə buraxır. Əgər insan öz ixtiyarı ilə iki yoldan, düzgün yolu seçsə, kamala çatar.

Əgər vəsvəsə və şərrin, eləcə də xeyir və yaxşılığın cazibəsi olmasaydı, insanın daxilində xeyir və şər ilhamları olmazdı.

İnsanın daxilindəki vəsvəsə, elə həmin batini vəsvəsə və nəfsidir. Xarici vəsvəsə isə, həmin şeytan və iblisdir.

Həmçinin xarici ilhamlar peyğəmbərlər (ə), imamlar (ə) və səmavi kitablardır ki, əgər bu cazibələr olmasaydı, insanın ixtiyarı güclənməzdi. Elə bu cazibələr vasitəsi ilə də, insan ya kamala çatır, ya da ki, süquta uğrayır. İnsanın ixtiyarının inkişaf səbəbi,  daxilindəki cazibələrdir. Bu cazibələr vasitəsi ilə insan kamala çatır və həmin insanda həmin cazibələrin olması, onu digər varlıqlardan fərqləndirir.

Bütün bu deyilənləri nəzərə alaraq, məlum olur ki, Allahın iradəsi, insanın ixtiyarı ilə ziddiyyət təşkil tapmır.

## *On ikinci dərsin xülasəsi*

**Cəbrilərin şübhəsi**

Cəbrilərin şübhələrindən biri:

*  İnsan və onun hərəkətləri İlahi qəza və qədərin nəzarəti altındadır. Allah-taala insanın hansı işləri görəcəyindən xəbərdardır.

Başqa sözlə desək, Allahın mütləq elmi, insanın hərəkətlərinə də şamil olunduğundan insan məcburdur.

Bu şübhəyə cavab

* İlahi elmin insanın hərəkətlərinə bağlılığı üsulu fərdin ixtiyari hərəkəti kimidir. Çünki elm məluma tabedir, məlum elmə yox.

Cəbrilərin şübhəsi: İlahi iradəyə əsasən bütün aləm ilahi iradəyə bağlıdır.

Əgər hamı, o cümlədən insanın hərəkətləri ilahi istəkdən asılıdırsa, insan işlərində məcburdur.

Cavab: İnsanın işi öz iradəsi ilə gerçəkləşir və həmin nizam (insanın iradəsi ilə yerinə yetirilən iş) ilahi iradəyə bağlıdır. Allah da, insanın iradə ilə yaşamasını istəmişdir. Deməli, işlər Allahın izn və iradəsinə bağlı olsa da, bu o demək deyil ki, insan etdiyi işləri məcbur olaraq və seçim etmədən yerinə yetirir.

# On üçüncü dərs

# İnsan ixtiyara malikdir.

* İnsan, öz işləri qarşısında cavabdehlik daşıdığı üçün, ixtiyara malik olan bir varlıqdır.

* İnsanın öz vicdanına müraciət edən zaman, ixtiyar sahibi olduğunu başa düşür. Həmin vaxt o, etdiyi hər bir işin, öz istəyi ilə yerinə yetirib və ya ondan uzaqlaşmağa qadir olduğunu bilir.

* İnsanda "Bu işi yerinə yetirim, yoxsa yox, filan yerə gedim, yoxsa getməyim" suallarının yaranması, onun ixtiyara malik olmasını sübut edir.

* Elmi baxımdan insanın şəxsiyyətini üç amil müəyyən edir. Bu üç şey, cəmiyyətdə insanın taleyini və şəxsiyyətini formalaşdırır:

A) Genetika, B) Mühit, C) Mədəniyyət.

* Quranda bu üç amilə işarə olunur.

Əgər genetik amili misal ilə açıqlamaq istəsək, şoran torpağı misal gətirə bilərik. Belə ki,şoran torpaqda, toxum çıxmaz və ya çıxsa da, oradan lazım olan və gözlənilən məhsulu əldə edə bilmərik.

İnsanların bəzisi yüksək ağıla, bəziləri isə az ağıla malikdir. Bəzi insanlar xoş əxlaqlı, digərləri isə pis əxlaq və davranışa malikdilər. Bütün bunların insan genetikası ilə bağlılığı vardır.

Ona görə də, yuxarıda qeyd olunan üç amil, insanın həyatına təsir edib, onun formalaşmasına ciddi təsir edir.

Əgər Nuh surəsini mütaliə etsək, görərik ki, Nuh (ə) Allahdan öz azğın qövmün məhvini istəyir. Çünki bu qövmün nəsli gələcəkdə həmin qövm kimi azğın olacaqdır. Belə ki, bu qövmün çoxalması da ziyanlıdır. Beləliklə, irsliyin insan şəxsiyyətində mühüm təsiri vardır.

* Məsum imamlardan (ə) bəzi hədislər nəql olunur ki, həmin hədislərdə imamlar (ə) hansı xüsusiyyətə malik olan nəsillərlə ailə qurub, qurmamağı tövsiyə edirlər ki, bu tövsiyələrə əməl etməklə, insanlar gələcəkdəki bir çox problemlərdən uzaq durmuş olsunlar.

Burada ortaya belə bir sual çıxır ki, genetika insanın ixtiyarını ondan alırmı?

Varislik həm cismə, həm anatomiyaya, həm də ki, insanın ruhuna təsir edir. Amma bu təsir yüz faizlik deyil.

Allah buyurur: (Allah) ölüdən diri, diridən də ölü çıxardır, öləndən sonra torpağı dirildir. Siz də (qiyamət günü dirildilib qəbirlərinizdən) belə çıxardılacaqsınız. (Rum, 19).

Təfsir kitablarına əsasən, ayədəki “diri” sözü “mömin”, “ölü” sözü isə “kafir” mənasını ifadə edir.

İnsan bunu bilməlidir ki, əgər daxili istəkləri ilə mübarizə aparsa,özünü müsbət yöndə dəyişə bilər.

Eyni zamanda da unutmaq lazım deyil ki, hər bir işdə son sözü insanın özü deyir. Bunu nəzərə alaraq, deyə bilərik ki, hər bir halda insan ixtiyar sahibidir.

Amma yenə də, genetika, mühit və mədəniyyətin insan şəxsiyyətinə təsir etməsi danılmaz bir faktdır.

**Mühit amili**

İnsanın dağda, səhrada, quru, rütubətli, soyuq və ya isti yerdə yaşaması, onun şəxsiyyətinə təsir edir. Amma bizim danışdığımız mövzu, məkan təsirləri haqqında deyil. Yəni misal olaraq biz deyə bilmərik ki, dağda yaşayan insanların hamısı filan xasiyyətə, səhrada yaşayan insanlar isə başqa bir xasiyyətə malikdilər. Və ya soyuqda yaşayanların hamısı, filan əxlaqi davranışa malikdilər.

Amma eyni zamanda da, insan mübarizə yolu ilə yaşadığı mühitin əksinə olan şəraitlə də yaşaya bilər. İnsanın mübarizə aparması, onun ixtiyara malik olmasını sübut edir.

Bunu daha yaxşı izah etmək üçün, Həzrət Musanın (ə) yaşadığı şəraiti misal gətirib, açıqlamaq olar. Bilirik ki, Musa (ə) Fironun sarayı və evində böyüsə də, müvəhhid (Tək Allahı qəbul edən) oldu. Yaxud Asiya diktator mühitində Fironla yaşayırdı. Bu iki şəxsin misalı, onu sübut edir ki, insan öz mühitinin yaratdığı şəraitə qarşı çıxıb, çətinliklə də olsa, mübarizə apararaq, kamala çata bilər.

Bunları nəzərə alaraq, yenə unutmamalıyıq ki, son sözü və nəhayi qərarı, insanın özü, öz azad seçimi ilə müəyyən edir.

İradəsi zəif olanlar, öz mühitlərinə qalib gələ bilmir və həmin şəraitə adət edirlər. İradəsi güclü olanlar isə, mühitin şəraiti ilə mübarizə aparıb, həmin mühitə qalib gəlir və hətta bəzən mühitin şəraitini dəyişdirirlər.

Buna görə insan mühit və irsi təsirlərə qalib gəlib, özünü dəyişdirə bilər. Bu mövzunu daha ətraflı dərk etmək üçün, İbrahim Peyğəmbərin (ə) həyatında baş verən bir hadisəyə diqqət yetirək. Həzrət İbrahim (ə)

bir şəhərdə yalnız idi. Bu mənada ki, şəhər əhli bütpərəst idi, amma o, həmin şəhərdə öz imanını qoruyurdu. Bütpərəstlər şəhəri tərk edəndə, Həzrət İbrahim (ə) bütləri sındırdı. Şəhərdəki bütpərəstlik mühiti, İbrahimə (ə) öz imanını qoruyub, saxlamaqda maneə törətmədi.

Həmçinin mühitə qalib gələnlər Asiya və Musa (ə) kimi şəxsləri nümunə gətirmək olar.

Əshabi-Kəhf də, həmçinin mühitlə mübarizə aparıb, kamala yetişən şəxslərdən idilər.

Onlar rifah halında yaşayırdılar, məqam sahibi idilər. Amma bununla belə, rifah və məqamları onlara mənfi təsir göstərə bilmədi və yeganə olan Allahı seçdilər. İxtiyarları öz əllərində olub, doğru yolu seçdikləri üçün də, kamala çatdılar.

Beləliklə, mühit və şərait pis olsa da, son sözü insanın iradəsi deyir.

## *On üçüncü dərsin xülasəsi*

**İnsanın taleyi**

İnsan taleyində inkar olunmayan amillərdən biri də, "İrsi təsir" amilidir.

Ruhi və əxlaqi xüsusiyyətlər cismani xüsusiyyətlər kimi genetik amillər yolu ilə (genlər) valideyndən övladlara ötürülür. Amma bu, insanın öz işlərində məcbur olduğu mənasında deyil.

İrsi təsir, şəxsin rəftar və əməllərinə tam yox, bəlkə müəyyən qədər təsirə malikdir ki, insan mübarizə yolu ilə həmin mənfi təsirləri özündən uzaqlaşdıra bilər.

İnsan şəxsiyyətinə təsirli amillərdən biri də, "mədəniyyət və mühit"-dir.

İnsanlar yaşadıqları mühitin rəngini alır və böyüdükləri mədəniyyətə uyğun formada rəftar edirlər.

Yenə də unutmamalıyıq ki, irsi təsir, mühit və mədəniyyət amillərinin təsiri, o həddə deyil ki, insanın ixtiyarını aradan aparsınlar.

İnsanın iradəsi mövcud mühit və mədəniyyətə hakim ola bilər.

# On dördüncü dərs

# İnsanın imtahanı

Əgər Quran ayələrinə diqqət etsək, görərik ki, Qurandakı "İnsanşünaslıq" mövzusunda, insanın imtahanı barədə çox danışılır.

Hər bir insan sınağa çəkilməlidir. Bu, Allahın dəyişməz bir qanunudur.

Allah-taala Ənkəbut surəsinin 2 ci ayəsində buyurur: İnsanlar imtahana çəkilmədən yalnız: "İman gətirdik!" - deməklə onlardan əl çəkiləcəyinimi hesab edirlər?

**أَحَسِبَ النَّاسُ أَنْ يُتْرَكُوا أَنْ يَقُولُوا آمَنَّا وَهُمْ لَا يُفْتَنُونَ**

Yəni əgər insanlar dildə "İman gətirdik" desələr də, yenə də sınağa çəkiləcəklər.

İmtahan fərdi yox, bəlkə ümumidir. Adi insanlar sınağa çəkildiyi kimi, hətta peyğəmbərlər (ə) belə imtahan olunacaqlar. Amma sınaqların keyfiyyəti fərqlidir.

Həmçinin Allah Əraf surəsinin 168-ci ayəsində buyurur: Onları (İsrail oğullarını) yer üzündə tayfalara ayırdıq. Onlardan əməlisaleh olanlar da, olmayanlar da vardı. Bəlkə, (haqq yola) qayıdarlar deyə onları yaxşılıq və pisliklərlə imtahan etdik.

**وَقَطَّعْنَاهُمْ فِي الْأَرْضِ أُمَمًا ۖ مِنْهُمُ الصَّالِحُونَ وَمِنْهُمْ دُونَ ذَٰلِكَ ۖ وَبَلَوْنَاهُمْ بِالْحَسَنَاتِ وَالسَّيِّئَاتِ لَعَلَّهُمْ يَرْجِعُونَ**

Ayəyə diqqət etsək, görərik ki, imtahanın keyfiyyəti fərqlidir. Amma yenə də bilməliyik ki, hər kəs mütləq sınağa çəkiləcək.

Mütəal Allah Kəhf surəsində buyurur: Biz onlardan (insanlardan) hansının daha gözəl əməl sahibi olduğunu yoxlamaq üçün yer üzündəki hər şeyi, ona məxsus bir zinət olaraq yaratdıq. (Kəhf, 7).

Yəni Allah ayədə bizə bunu başa salır ki, yer üzərində yaratdığı hər bir şey, insanın özünün yox, bəlkə yerin zinətidir.

Bəzən insan, yerin zinəti ilə, özünün həqiqi zinətini səhv salır. Allah-taala bütün bu bəzək və gözəllikləri ona görə yaradıb ki, insanlar dünya həyatından yorulmasınlar. Sanki Allah insanlara elə bir süfrə açıb ki, dünya yaşayışı onlar üçün böyük bir qonaqlıq kimi olsun. Amma eyni zamanda da, bu qonaqlıq vasitəsi ilə insanları sınağa da çəkir. Allah

bunu ona görə edir ki, nemətə şükr edib, etməyənlər ortaya çıxsınlar. Quran ayələrinə əsasən, Allah həm yer, həm də ki, insanlar üçün zinət meyarı müəyyən edib. Misal üçün Allah-taala Hucərat surəsinin 7-ci ayəsində buyurur: ...Lakin Allah sizə imanı sevdirib onu qəlblərinizə gözəl göstərdi....

Bu ayəyə əsasən başa düşülür ki, Allah-taala imanı, insanın zinəti kimi tanıtdırır.

Ona görə də, Allaha iman, insan üçün zinətdir. Necə ki, yer üzündə yaşıllıqlar və ağacların sayı nə qədər çox olsa, bir o qədər də, yer zinətlənib gözəlləşər. Eləcə də, Allaha iman və məhəbbət nə qədər çox olarsa, insanın qəlbinə də bir o qədər zinət verilər.

Qəbul olmayan dualardan biri də budur ki, insan Allahdan, sınağa çəkilməməyini istəsin. Amma belə dua anlamsız bir duadır. Çünki hər kəs sınağa çəkiləcək və bu, Allahın dəyişməz bir qanunudur. Yaxşı olar ki, insan "İlahi! imtahanlardan başı uca çıxmağı nəsib et!" deyərək dua etsin.

İmtahan mövzusunu araşdıranda, bir neçə sual ilə qarşılaşırıq. Həmin suallar aşağıdakılardan ibarətdir:

Hər kəs sınağa çəkilr və bu imtahan ümumidirmi? İmtahanın fəlsəfəsi nədir və nə üçün insanlar imtahana çəkilir?

İmtahanla bağlı Quran ayələrinə əsasən, Allah imtahanı özünə aid edir və imtahan mövzusu barədə danışarkən, onu "Rəbb"-ə aid etmişdir. Rəbb Allahın adlarından biridir və mənası, "Tərbiyə edən"-dir. Ona görə də, imtahanı Rəbb götürür. Allah şagirddən imtahan götürən müəllim kimidir. Allah insanı ona görə sınağa çəkir ki, insan bu vasitə ilə möhkəmlənib, digər çətinliklərə də hazır olsun.

İnsan istedada malik olan bir varlıqdır.  Ona görə də, onun istedadı məhsuldar və yetkin olmalıdır. Hadisələr, müsibət və çətinliklər insanı kamala çatdırır.

İmtahanın əsas məqsədi, insanın kimliyinin müəyyən olması deyil, bəlkə insanın seçdiyi məqam və məqsədə çatmağını müəyyənləşdirməkdir.

Eləcə də, bilməliyik ki, imtahan qarşısındakı davranışın seçimi də, insanın öz ixtiyarı və seçimi ilə olur.

Yəni sınaqlar qarşısında istədiyi kimi davranmağı da, insanın özü seçir və o, bu məsələdə tam ixtiyar sahibidir.

İnsanın həqiqi dəyəri və onun mənəvi ölçüsü, müxtəlif hadisələr zaman üzərə çıxır.

Sınaqlar ortaya çıxdığı vaxt, insanın təqvalı, yoxsa təqvasız, düz danışan, yaxud da yalançı olduğu da ortaya çıxır.

Allah Fəcr surəsinin 15-ci ayəsində buyurur: İnsana gəldikdə, nə zaman Rəbbin onu imtahana çəkib ehtiram etsə, ona bir nemət versə, o: "Rəbbim mənə ehtiram göstərdi!" –deyər.

**فَأَمَّا الْإِنْسَانُ إِذَا مَا ابْتَلَاهُ رَبُّهُ فَأَكْرَمَهُ وَنَعَّمَهُ فَيَقُولُ رَبِّي أَكْرَمَنِ**

Ayəni oxuyanda, başa düşürük ki, Allah insana ruzi və neməti ona görə verir ki, insan mənəvi və ruhi baxımından güclənsin, nemət bolluğu zamanı özünü itirib, tüğyan etməsin və öz yaşayışında daim Allahın varlığını hiss etsin.

Verdiyi hər neməti ondan alıb, nemət və ruzisini azaldanda isə, insanın səbr xasiyyətini gücləndirmək üçün edir.

## *On dördüncü dərsin xülasəsi*

### İmtahanın qaydası

Ənkəbut surəsinin birinci ayəsinə əsasən imtahan qaydası ümumi olsa da, imtahanın keyfiyyət və növləri insanlar üçün müxtəlifdir. Əraf surəsinin 168-ci ayəsinə əsasən, imtahanlar yaxşı və pis işlər olaraq, iki yerə bölünüb tanıtdırılır:

A) Gözəlliklərlə imtahan: Məqsəd, nemətlərlə sınağa çəkilməkdir.

B) Pisliklərlə imtahan: Məqsəd, insanlara verilən nemətləri onlardan almaqla, onları sınağa çəkməkdir.

Allah-taala mütləq alimdir. Buna görə də insanların gələcəyindən xəbərdardır.

İlahi imtahanın fəlsəfəsi, Allahın bilməsi üçün deyil. Fəcr surəsinin 15 və 16-cı ayələrinə əsasən, Allahın insan üçün "Rəbb" (Tərbiyə edən) olması, insan imtahanının mənşəyidir. Allah insanın Rəbbi olduğuna görə, onu imtahana çəkir.

İmtahandan məqsəd ya yetkinlik və çiçəklənməyə, ya da tənəzzülə çatmaqdır.

# On beşinci dərs

# Ümumi imtahan

Quran ayələrinə görə, insanların sınağa çəkilməsi barədə bəzi əhəmiyyətli və diqqət yetiriləsi məsələlər var. Aşağıda həmin məsələlərə işarə edəcəyik.

1- İmtahan ümumi və hamı üçündür.

2- İmtahanı insandan "Rəbb" (tərbiyə edən) olan Allah götürür, müəllim yox. Bu sınaqda, insanın bilib, anlama və öyrənməsi yox, onun püxtələşməsi lazımdır.

3- İnsanlar müxtəlif üsullar vasitəsi ilə sınağa çəkilir.

İnsanlar bir-birindən fərqli olduğu kimi, onların sınaq zamanı da fərqlidir. Bəzən onlara nemət verilməklə imtahana çəkilir, bəzən əllərindəki nemət alınaraq, bəzi vaxtlar da imtahanın başqa növləri ilə sınağa çəkilirlər.

Misal üçün "Yəhud" qövmünün halal-haram əhvalatı, şənbə günü ayın tutulması və bu kimi hadisələr, onlar üçün imtahan idi.

Yaxud da, İbrahim (ə) üçün oğlu İsmaili (ə) qurban olaraq kəsmək əmri, ağır bir imtahan idi.

Beləliklə, imtahan bəzən insandan nemət almaq, bəzən də ona nemət verməklə baş verir.

Allah Quranda buyurur:

Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbr edənlərə müjdə ver. [1]

وَلَنَبْلُوَنَّكُمْ بِشَيْءٍ مِنَ الْخَوْفِ وَالْجُوعِ وَنَقْصٍ مِنَ الْأَمْوَالِ وَالْأَنْفُسِ وَالثَّمَرَاتِ ۗ وَبَشِّرِ الصَّابِرِينَ

Ayədən də məlum olur ki, Allah insana verdiyi neməti azaldıb, kəsməklə, onu sınağa çəkərək, səbr xasiyyətini gücləndirir. Ona görə də Allah ayənin sonunda buyurur: Səbr edənlərə müjdə ver.[2]

وَبَشِّرِ الصَّابِرِينَ

Bəzən də insan nemət və mal verilməsi ilə imtahan olunur.

Allah Quranda buyurur: Kitabdan xəbəri olan (bir başqa) kimsə isə

---

1 Bəqərə, 155.

2 Bəqərə, 155.

belə dedi: “Mən onu sənə bir göz qırpımında gətirərəm!” (Süleyman) taxtı yanında hazır durmuş görən kimi dedi: “Bu, Rəbbimin lütfündəndir ki, məni sınağa çəksin, görək şükür edəcəyəm, yoxsa nankor olacağam! Kim şükür etsə, ancaq öz xeyrinə şükür etmiş olar, kim də nankor olsa, (bilsin ki), həqiqətən, Rəbbim (onun şükrünə ) möhtac deyildir, Səxavətlidir!”[1]

**فَلَمَّا رَآهُ مُسْتَقِرًّا عِنْدَهُ قَالَ هَٰذَا مِنْ فَضْلِ رَبِّي لِيَبْلُوَنِي أَأَشْكُرُ أَمْ أَكْفُرُ ۖ وَمَنْ شَكَرَ فَإِنَّمَا يَشْكُرُ لِنَفْسِهِ ۖ وَمَنْ كَفَرَ فَإِنَّ رَبِّي غَنِيٌّ كَرِيمٌ**

Süleymanın vəziri Bilqeysin taxtını gətirəndə Süleyman bu sözləri demişdi: Allahın mənə bu səhabələri, (dost köməkçi və şagird) verməsi, mənim üçün bir fəzilətdir. Amma eyni halda da, bu mənim imtahanımdır ki, həmin nemətlərlə özümü mənəvi yöndə böyüdürəm və Allaha yaxınlaşıram.

Allahın insana verdiyi nemətlər vasitəsi ilə, insan bəzən şöhrətə çatır, bəzən də maddi var-dövlətə. Təəssüf ki, bəzi hallarda, insanın mal-dövləti artanda, məğrur olur, tüğyan və təkəbbür edir.

İnsanın Allah qarşısında şükr etməsi, Allahın buna ehtiyacı olduğuna görə deyil. Allahın heç kimə və heç bir şeyə ehtiyacı yoxdur. Çünki o, həm zəngin, həm kərim və həm də bəxş edən və ehtiyacsızdır. Əslində Allaha şükr etməklə, insan özünü kamal həddinə çatdırır.

**وَلَنَبْلُوَنَّكُمْ بِشَيْءٍ مِنَ الْخَوْفِ وَالْجُوعِ وَنَقْصٍ مِنَ الْأَمْوَالِ وَالْأَنْفُسِ وَالثَّمَرَاتِ ۗ وَبَشِّرِ الصَّابِرِينَ**

Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbr edənlərə müjdə ver.[2]

Yuxarıdakı ayədən bu nəticəni əldə edirik ki, imtahanın keyfiyyəti müxtəlifdir. Bəzən Allah nemət verməklə imtahan edir və bəzən də nemət və ruzini almaqla. Mütəal Allah Əraf surəsində bu məsələni daha yaxşı və daha ətraflı şəkildə bəyan edərək, buyurur: Biz onları yer üzündə ümmətlərə böldük. İçərilərində həm əməlisaleh olanlar, həm də belə olmayanlar vardır. Biz onları yaxşılıq və pisliklə sınadıq ki, bəlkə (doğru yola) dönələr.[3]

**وَقَطَّعْنَاهُمْ فِي الْأَرْضِ أُمَمًا ۖ مِنْهُمُ الصَّالِحُونَ وَمِنْهُمْ دُونَ ذَٰلِكَ ۖ وَبَلَوْنَاهُمْ بِالْحَسَنَاتِ وَالسَّيِّئَاتِ لَعَلَّهُمْ يَرْجِعُونَ**

---

1 Nəml, 40.
2 Bəqərə, 155.
3 Əraf,168.

Əgər insan hər hansı bir mənəvi məqam və dərəcəyə çatıbsa, mütləq imtahandan keçərək, həmin məqamı əldə etmişdir.

Həzrət Əmirəlmöminin (ə) hicri 36-cı ildə Azərbaycanın hakimi Əşəs bin Qeysə məktubunda belə yazmışdır:

“Öhdəndə olan iş sənin nan-xuruşun deyil, əksinə, sənin boynunda bir əmanətdir. Səni həmin işə təyin edən kəs əmanətin gözətçiliyini öhdənə qoymuşdur. Belə olmasın ki, istədiyini rəiyyətə buyurasan, göstəriş verilmədən mühüm bir işə addım atasan. Sənin əlindəki mal, izzət və cəlal sahibi olan Allahın mallarındandır. Və sən onun xəzinədarı olaraq, onu mənə tapşırmalısan. Ümidvaram sənin üçün ən pis valilərdən olmayım, vəssəlam.»

Ona görə də insan hər hansı bir məqama çatanda, əmanəti necə qoruyacağını fikirləşməlidir.

Təfsir alimləri, Muzzəmmil surəsinin 2-ci ayəsinin açıqlamasında belə yazırlar: Həzrət Muhəmmədə (s) peyğəmbərlik verilən zaman, o həzrət öz evinə daxil oldu, daha sonra əbasını başının üstünə çəkərək, öz-özünə bu sözləri dedi: Mən ümmətimi necə hidayət edəcəyəm, bu məsuliyyətin yükünə necə dözəcəyəm? Elə həmin anda da, bu bir ayə nazil oldu. Ayədə Allah Peyğəmbərə (s) buyurdu: Allahla ol ki, qalib olasan, ümidsiz olma.

İnsan bəzən nemətin bolluğu, bəzən isə nemətin azalıb, kəsilməsi ilə imtahana çəkilir. Ona nemət verildiyi vaxt, öz iman və iradəsini gücləndirmək üçün çalışır və bu davamlı çalışmalar nəticəsində də, nemətlər ilə düzgün şəkildə davranmağı öyrənir.

Nemətin bolluğu zamanı, insan nemət sahibi olan Allahı unutmamalı və əlində olanlardan münasib zamanda istifadə etməlidir.

Amma bəzi insanlar nemətə çatanda tüğyan edir, imtahandan kəsilməyə səbəb olan digər işləri görürlər. Allah-tala Yunus surəsində bu barədə buyurur: İnsanlara üz verən bəladan sonra onlara bir mərhəmət daddırdığımız zaman ayələrimizə qarşı hiyləgərlik etməyə çalışarlar. De: “Allah daha tez hiylə qurar”. Şübhəsiz ki, elçilərimiz (mələklər) qurduğunuz hiylələri yazırlar.[1]

**وَإِذَا أَذَقْنَا النَّاسَ رَحْمَةً مِنْ بَعْدِ ضَرَّاءَ مَسَّتْهُمْ إِذَا لَهُمْ مَكْرٌ فِي آيَاتِنَا ۚ قُلِ اللَّهُ أَسْرَعُ مَكْرًا ۚ إِنَّ رُسُلَنَا يَكْتُبُونَ مَا تَمْكُرُونَ**

1 Yunus, 21.

Təfsirçilərin bəzisi bu fikirdədir ki, dünya yalnız nemətlər dünyası deyil. Allah Quranda buyurur ki, insan dünyanın meyvəsini yox, bəlkə yalnız onun çiçəyini görür.

İnsan, dünya nemətlərini əhatə etdiyini xəyal edir və tamamilə əhatə olunanda isə, dünyadan  getmək vaxtı çatır. İnsan nemət sahibi olanda hiyləgər olur. Pulları çox olan kəslər ailələrini belə unudurlar.

İnsanların bir qrupu nemət əldə edəndə, şükr əvəzinə, tüğyan edir və hiylə işlədirlər.

Mütəal Allah bu barədə buyurur: Onlar özlərinə edilmiş xəbərdarlığı unutduqları zaman hər şeyin qapılarını onların üzünə açdıq. Özlərinə verilən şeylərə sevindikləri vaxt isə onları qəflətən yaxaladıq və onlar naümid qaldılar.[1]

Yəni insan nemət əldə etdiyi vaxt, daxildən şad olur, xaricdən isə bununla iftixar edir.

Allah tərəfindən insana nemət veriləndə, bu o demək deyil ki, insan başqaları qarşısında buna iftixar edib, özünü böyük göstərib, başqalarına isə kiçik gözlə baxsın.

Quranda işarə olunan üçüncü məsələ isə, Bəni-İsrail ilə bağlıdır.

Allah-taala buyurur: Onlara bir yaxşılıq üz verəndə: “Bu, bizə məxsusdur!”– deyərdilər. Onlara bir pislik üz verdikdə isə, Musa və onunla birlikdə olanları uğursuzluq əlaməti sayardılar. Əslində onların uğursuzluğu Allah yanındadır, lakin onların çoxu (bunu) bilmir.[2]

**فَإِذَا جَاءَتْهُمُ الْحَسَنَةُ قَالُوا لَنَا هَٰذِهِ ۖ وَإِنْ تُصِبْهُمْ سَيِّئَةٌ يَطَّيَّرُوا بِمُوسَىٰ وَمَنْ مَعَهُ ۗ أَلَا إِنَّمَا طَائِرُهُمْ عِنْدَ اللَّهِ وَلَٰكِنَّ أَكْثَرَهُمْ لَا يَعْلَمُونَ**

İnsanlar nemət əldə etdiyi zaman, üç hissəyə bölünürlər:

1- Bəziləri hiylə işlədir

2- Bəziləri bununla fəxr edirlər.

3- Bəziləri isə, neməti verəni unudur və bu nemətin mənbə və səbəbkarının özləri olduğunu zənn edirlər.

1 Ənam, 44.

2 Əraf,131.

Amma insanlar içərisində bəziləri də var ki, nemət qarşısında uca Allaha şükür edir və hər bir nemətin səbəbini Allahdan bilir və onu heç vaxt unutmurlar.

Ona görə də Süleyman (ə) buyurur: "Bu, Allahın mənə nemət və fəzlidir".[1]

## *On beşinci dərsin xülasəsi*

**İlahi nemətlər**

Bəqərə surəsinin 155-ci ayəsində, insanlardan nemətin alınmasının aclıq, mal və canla imtahan kimi, müxtəlif növləri bəyan edilir.

Zahiri məqama çatmaq və ilahi nemətlərdən faydalanmaq da, imtahanın başqa bir növüdür. (Nəml surəsinin 40-cı ayəsində bu barədə danışılır).

Quranın müxtəlif ayələrində, Allahın nemәti qarşısında insanların fərqli davranışları açıqlanır.

Belə ki, insanlar nemət qarşısında fərqli davranır və o davranış növləri aşağıdakılardan ibarətdir:

1- İnsanların bəzisi nemət əldə etdikləri zaman, günah etmək üçün hiylə və çirkin plan cızmağa əl atırlar.[2]

2- Bəziləri də özlərini başqalarına böyük göstərməklə məşğul olurlar.[3]

3- Bəziləri də, əllərindəki nemətləri özlərinin hünəri ilə qazandıqlarını düşünüb, Allahı unudurlar[4].

4- Allah övliyaları isə, neməti İlahi fəzl bilirlər.[5]

---

1 Nəml, 40.
2 Yunis, 21.
3 Hud,10.
4 Əraf, 131.
5 Nəml 40.

# On altıncı dərs

# İnsanşünaslıq mövzusu (üstünlük)

Quranda danışılan mövzulardan biri, “Təsxir” mövzusudur. Təsxir ərəb sözüdür və mənası “İxtiyara buraxmaq”-dır. Bu sözü daha geniş şəkildə açıqlamadan öncə, bu barədə olan ayələrdən birinə diqqət yetirək.

Allah-taala buyurur: Göyləri və yeri yaradan Allahdır. O, göydən su endirib onunla sizin üçün ruzi olaraq meyvələr yetişdirdi. Əmri ilə dənizdə üzsünlər deyə gəmiləri, eləcə də çayları sizin xidmətinizə verdi. O, (öz orbiti üzrə) dövr edən Günəşi və Ayı da sizin xidmətinizə verdi. Gecəni və gündüzü də sizin ixtiyarınıza verdi.

O sizə istədiyiniz hər şeydən verdi. Əgər Allahın nemətlərini saymaq istəsəniz, onları sayıb qurtara bilməzsiniz. Həqiqətən, insan çox zalım və çox nankordur.[1]

**اللَّهُ الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ وَأَنْزَلَ مِنَ السَّمَاءِ مَاءً فَأَخْرَجَ بِهِ مِنَ الثَّمَرَاتِ رِزْقًا لَكُمْ ۖ وَسَخَّرَ لَكُمُ الْفُلْكَ لِتَجْرِيَ فِي الْبَحْرِ بِأَمْرِهِ ۖ وَسَخَّرَ لَكُمُ الْأَنْهَارَ وَسَخَّرَ لَكُمُ الشَّمْسَ وَالْقَمَرَ دَائِبَيْنِ ۖ وَسَخَّرَ لَكُمُ اللَّيْلَ وَالنَّهَارَ وَآتَاكُمْ مِنْ كُلِّ مَا سَأَلْتُمُوهُ ۚ وَإِنْ تَعُدُّوا نِعْمَتَ اللَّهِ لَا تُحْصُوهَا ۗ إِنَّ الْإِنْسَانَ لَظَلُومٌ كَفَّارٌ**

Ayədən məlum olur ki, Allah gəmini insanların ixtiyarına buraxdı ki, onlar hərəkət edə bilsin, ay və günəşi, gecə və gündüzü, eləcə də yerdə göydə olan hər bir şeyi insanın ixtiyarında qoydu. Təsxir sözünün geniş mənası budur ki, Allah öz nemətlərini insanın ixtiyarında buraxıb. Burada ortaya belə bir sual çıxır ki, Allahın bu nemətləri insana xidmət etmək üçündür, yoxsa, yox, bu nemətlər sadəcə insanın ixtiyarına qoyulub? Və ya bu nemətlər, insanın xeyrinədir, yoxsa sadəcə insanın istifadəsi üçündür?

Bu suallara cavab vermək üçün “Təsxir” barədə bir qədər izaha ehtiyac var.

Təsxirin iki ümumi mənası vardır. Onlardan biri, nemətlərin insanın göstərişi ilə olduğu mənasınadır. Digəri isə, nemətlərin insanın göstərişi ilə olmadığı anlamındadır.

1 İbrahim, 32-34.

Misal üçün ay və günəş ki, bunlar insan üçün həm nemət və həm də ona xeyir verənlərdir. Amma eyni zamanda da, bunların hər ikisi insanın göstərişi ilə onun ixtiyarına buraxılan nemətlər deyil.

Allah-taala Loğman surəsində buyurur: Allahın göylərdə və yerdə nə varsa, hamısını sizə ram etdiyini, açıq və gizli olan nemətlərini sizə bol-bol verdiyini görmədinizmi? İnsanlardan elələri var ki, elmi, doğru yol göstərən bir rəhbəri və aydınladan bir kitabı olmadan Allah barəsində mübahisə edər.[1]

Və ya Mütəal Allah Casiyə surəsində buyurur: O, göylərdə və yerdə nə varsa, hamısını Öz tərəfindən (bir lütf olaraq) sizin xidmətinizə vermişdir. Şübhəsiz ki, düşünüb öyüd alanlar üçün bunda (Allahın varlığını və qüdrətini göstərən) dəlillər vardır.[2]

وَسَخَّرَ لَكُمْ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ جَمِيعًا مِنْهُ ۚ إِنَّ فِي ذَٰلِكَ لَآيَاتٍ لِقَوْمٍ يَتَفَكَّرُونَ

Həmçinin Nəhl surəsində buyurur: Təzə ət yeyəsiniz və bəzək əşyalarını çıxarıb istifadə edəsiniz deyə, dənizi də sizin xidmətinizə verən Odur. Gəmilərin orada suları yara-yara üzdüyünü görərsən. (Bütün bunlar) Onun lütfündən istəməyiniz və şükür etməyiniz üçündür.[3]

وَهُوَ الَّذِي سَخَّرَ الْبَحْرَ لِتَأْكُلُوا مِنْهُ لَحْمًا طَرِيًّا وَتَسْتَخْرِجُوا مِنْهُ حِلْيَةً تَلْبَسُونَهَا وَتَرَى الْفُلْكَ مَوَاخِرَ فِيهِ وَلِتَبْتَغُوا مِنْ فَضْلِهِ وَلَعَلَّكُمْ تَشْكُرُونَ

Həmçinin Həcc surəsində də belə buyurur:

Görmürsənmi ki, Allah yerdə olanları və Onun əmri ilə dənizdə üzən gəmiləri sizin xidmətinizə vermişdir?! Göyü də izni olmadıqca yerə düşməməsi üçün tutub saxlayır. Şübhəsiz ki, Allah insanlara qarşı çox şəfqətli və mərhəmətlidir.[4]

أَلَمْ تَرَ أَنَّ اللَّهَ سَخَّرَ لَكُمْ مَا فِي الْأَرْضِ وَالْفُلْكَ تَجْرِي فِي الْبَحْرِ بِأَمْرِهِ وَيُمْسِكُ السَّمَاءَ أَنْ تَقَعَ عَلَى الْأَرْضِ إِلَّا بِإِذْنِهِ ۗ إِنَّ اللَّهَ بِالنَّاسِ لَرَءُوفٌ رَحِيمٌ

Yuxarıda qeyd olunan ayələrdən belə nəticəyə gəlmək olar ki, “Təsxir”, insana fayda çatdırmaq üçün, nemətlərin onun ixtiyarına buraxılması deməkdir.

Təsxir mövzusu, insanın əzəmətli bir varlıq olduğunu göstərir. Belə ki, aləmdə olan hər şey insanın ixtiyarına buraxılıb. Elə bunu nəzərə

1 Loğman, 20.
2 Casiyə, 13.
3 Nəhl, 14.
4 Həcc, 65.

alaraq, insanın varlıqlar arasında ən üstün varlıq olduğunu başa düşmək olar. Allah-taala yerdə və göydə olan nemətləri, insanın kamala çatması üçün yaradıb və onun ixtiyarına qoyub.

İnsan göy və yerin hədəfidir.

Bu ayələr onu göstərir ki, Allahın insana verdiyi ixtiyar və üstünlüklər, insanın xeyrinədir. İnsan astronomiya, geologiya və bu kimi elmləri öyrənməlidir. Çünki bu elmlərin hamısı onun xeyrinədir.

Bunları nəzərə alaraq, "Təsxir"-in iki qism olduğu anlaşılır:

Onlardan bir qismi, insanın xidmətində olan nemətlər, digəri isə, insanın ixtiyarına buraxılan nemətlərdir.

İnsan, ixtiyarında olan bütün bu nemətlər ilə, aləmdəki varlıqları öz ixtiyarı altına salar, onlara nəzarət edər və onları öz məqsədi üçün yönləndirə bilər.

İnsan aləmdəki bütün nemətlərin onun ixtiyarına buraxıldığını dərk etsə və bu təsəvvürü özündə gücləndirsə, yavaş-yavaş bu dünyadan, eləcə də bu dünyada olan hər bir şeydən azad olar və bununla da, mənəvi azadlığa yetişər.

## *On altıncı dərsin xülasəsi*

**Varlıqların təsxiri**

Quranda insanşünaslıq məsələlərindən biri "insan üçün varlıqların təsxiri" mövzusudur.

İbrahim surəsinin 31-34-cü ayələrində Allah-taala təsxirin növlərinə işarə edir.

Təsxir həm insanın ixtiyarında olan işlərə, həm də ki, Allahın əmri ilə insanın xidmətində olan nemətlərə şamildir.

Quranda təsxir ayələrinin mesajı

1- İnsanın əzəməti – Bu dünyanın ən kamil varlığıdır.

2- Aləmi tanımaq üçün insanın həvəsləndirilməsi. Bütün bu kainat insanın əhatəsində ola bilər.

3- İnsanın məxluqları ixtiyarında saxlamasının mümkün olması.

# On yeddinci dərs

## Təkvini vilayət

Ötən dərsdə qeyd etmişdik ki, insanın əzəmətini sübut edən mövzulardan biri də, "Təsxir" mövzusudur. Həmçinin bunu da öyrəndik ki, təsxir ərəb sözüdür və mənası "İxtiyara buraxmaq"-dır. Bu mənada ki, Allah-taala varlıq aləmində olan hər bir şeyi insanın ixtiyarında (təsxirində) qoyub və insan da gərək bu nemətlərdən düzgün şəkildə istifadə etsin. İnsanın ixtiyarına buraxılan, ay, günəş, gecə və gündüz, heyvanlar, meşələr, dənizlər və bir çox digər nemətləri misal gətirmək olar.

Təbii ki, insanın xidmətinə verilən nemətlərin həddi var. Amma bəzi hallarda, Allah tərəfindən yaradılmış nemətlərin insana olan faydalarının dəyişməsi və bu dəyişikliyin insanın ixtiyarına buraxılması da mümkündür.

Allah-taala Quranda Süleyman (ə) peyğəmbər haqqında belə buyurur:

وَسَخَّرْنَا مَعَ دَاوُودَ الْجِبَالَ يُسَبِّحْنَ وَالطَّيْرَ

Biz dağları və quşları da Davudun xidmətinə vermişdik.[1]

Başqa ayədə də belə buyurur: Şiddətli küləyi də Süleymanın xidmətinə vermişdik. Onun əmri ilə külək bərəkət verdiyimiz yerə doğru əsirdi. Biz hər şeyi bilirik![2]

وَلِسُلَيْمَانَ الرِّيحَ عَاصِفَةً تَجْرِي بِأَمْرِهِ إِلَى الْأَرْضِ الَّتِي بَارَكْنَا فِيهَا ۚ وَكُنَّا بِكُلِّ شَيْءٍ عَالِمِينَ

İti küləyin Süleymanın (ə) əmri və ixtiyarına buraxılması, insanın ruhi əzəmətə çata bilməsi və Allahın iradəsi ilə aləmin məxluqlarını öz ixtiyarında saxlaya biləcəyini sübut edir. Həmçinin Həzrət Yusif (ə) buyurur: Mənim bu köynəyimi aparıb atamın üzünə qoyun, o görməyə başlayacaq. Sonra da bütün ailənizlə mənim yanıma gəlin!".[3]

اذْهَبُوا بِقَمِيصِي هَٰذَا فَأَلْقُوهُ عَلَىٰ وَجْهِ أَبِي يَأْتِ بَصِيرًا وَأْتُونِي بِأَهْلِكُمْ أَجْمَعِينَ

Ayədən məlum olur ki, Yusifin (ə) ruhu köynəyə təsir edir və bu

1 Ənbiya, 79.
2 Ənbiya, 81.
3 Yusuf, 93.

təsir nəticəsində də, atasının gözləri açılır. Bu güc, Yusifin (ə) mənəvi qüdrətinin göstəricisidir.

Allah bütün aləmi bütünlüklə insanın xeyrinə yaradıb və əgər insan kamil olsa, aləm onun təsxiri və ixtiyarında olar.

Quranda insanın əzəmətinə aid olan mövzular, bir neçə mövzuda qeyd olunub:

İnsan Allah tərəfindən seçilmiş xəlifətullahdır(Allahın yer üzündəki nümayəndəsidir).

İnsan Allahın əmanətdarıdır.

Kəramət ayələrinin bir-biri ilə əlaqəsi vardır.

İnsanın əzəməti və təsxir ayələri bir mənada təkvini vilayətdir. Bu mənada ki, aləm insanın ixtiyarında ola bilər.

Təsxirin ibtidai tərifi budur ki, bütün aləm insanın xeyrinədir. Təsxirin ikinci açıqlaması isə budur ki, Süleymanın (ə) ixtiyarında olan iti külək, Davudun (ə) ixtiyarında olan dəmir, Həzrət Yusifin (ə) köynəyinin şəfa olduğu kimi, aləm də Allahın iradəsi ilə insanın ixtiyarında ola bilər.

Ali-İmran surəsində Həzrət İsanın (ə) möcüzələri haqqında danışılır. Həmin surədə Allah-taala İsanın (ə) dediklərini gətirərək, buyurur: Və o, İsrail oğullarına peyğəmbər (olacaqdır). (İsa deyəcək:) “Mən, Rəbbinizdən sizə möcüzə gətirmişəm. Sizin üçün palçıqdan quşa bənzər bir surət düzəldib ona üfürərəm, o da Allahın izni ilə quş olar. Anadangəlmə korları və cüzam xəstəliyinə tutulanları sağaldaram. Allahın izni ilə ölüləri dirildərəm. Evlərinizdə yediklərinizi və yığdıqlarınızı da sizə xəbər verərəm. Əgər möminsinizsə, əlbəttə, bunda sizin üçün bir dəlil vardır.[1]

**وَرَسُولًا إِلَىٰ بَنِي إِسْرَائِيلَ أَنِّي قَدْ جِئْتُكُمْ بِآيَةٍ مِنْ رَبِّكُمْ ۖ أَنِّي أَخْلُقُ لَكُمْ مِنَ الطِّينِ كَهَيْئَةِ الطَّيْرِ فَأَنْفُخُ فِيهِ فَيَكُونُ طَيْرًا بِإِذْنِ اللَّهِ ۖ وَأُبْرِئُ الْأَكْمَهَ وَالْأَبْرَصَ وَأُحْيِي الْمَوْتَىٰ بِإِذْنِ اللَّهِ ۖ وَأُنَبِّئُكُمْ بِمَا تَأْكُلُونَ وَمَا تَدَّخِرُونَ فِي بُيُوتِكُمْ ۚ إِنَّ فِي ذَٰلِكَ لَآيَةً لَكُمْ إِنْ كُنْتُمْ مُؤْمِنِينَ**

Bu möcüzələrin hamısı, İsaya (ə) verilən mənəvi bir qüdrətdir. Ona görə də, insan bilməlidir ki, bu möcüzələr insanın ixtiyarında ola bilər.

Təsxirin başqa bir növü də budur ki, insan bərzəx aləmi ilə əlaqə yarada bilər. Bəzi peyğəmbərlər qövmün həlak olmasından sonra bərzəx aləmində onlarla əlaqə yaradırdılar. Mütəal Allah bu barədə, öz qövmü ilə əlaqə yaradan həzrət Saleh və Şüeyb (ə) haqqında Əraf surəsində

1 Ali-İmran,49.

(18,78,93) danışır.

Yuxarıda deyilənlər, insan ruhunun böyüklük, mənəvi qüdrət və Allah tərəfindən nemətləri onun ixtiyarında buraxıldığını sübut edir.

## *On yeddinci dərsin xülasəsi*

**Təkvini vilayət**

Varlıqların insan üçün təsxir edilməsi, təkvini vilayətlə bağlıdır. Belə ki,  təsxirin mənalarından biri, aləmi ixtiyarda saxlamaqdır.

Quran ayələrinə əsasən, insan ruhi əzəmətə nail olaraq, aləmi Allahın izni ilə təsxir edə bilər. O, elə bir qüdrətə nail ola bilər ki, varlıqları öz ixtiyarı altına salsın. (Ənbiya 81, Yusif 93 və …).

Ali-İmran surəsinin 49-cu ayəsində, Həzrət İsanın (ə) möcüzələri haqqında danışılır və bununla da, insanın ölünü diriltmə, gildən quş düzəltmə, anadangəlmə kora şəfa vermə və qeybdən agah etmək qüdrətinə malik olduğu bildirilir.

Quranın başqa ayələrində, təkvini vilayətin varlığını sübut edən çox sayda dəlillər var.

Buna misal olaraq, “Bir göz qırpımında Bilqeysin taxtını gətirmək, quşlarla danışmaq qüdrəti, dəmirin əriməsi” və s... kimi nümunələri gətirmək olar.

# On səkkizinci dərs

# İnsanşünaslıq bəhsində hidayət

Allah-taala Quranda hidayət mövzusu ilə əlaqədar, çox sayda ayələr bəyan edir. Hidayət, düz yola yönəltmək mənasındadır.

Allah yalnız insanı deyil, bəlkə bütün aləmi hidayət edir. Əlbəttə insanın hidayəti ilə, başqa məxluqların hidayəti fərqlidir. Uca yaradan Taha surəsində buyurur: Musa dedi: “Bizim Rəbbimiz hər şeyə öz xüsusiyyətini verən, sonra da doğru yolu göstərəndir”.[1]

قَالَ رَبُّنَا الَّذِي أَعْطَىٰ كُلَّ شَيْءٍ خَلْقَهُ ثُمَّ هَدَىٰ

Ayədən məlum olur ki, Allah yaratdığı hər bir şeyi hidayət edir. Allahın hidayəti, aləmdəki xilqətin hamısına şamil olur və onlar bu baxımdan eyni səviyyəyə malikdilər. Bu, ümumi hidayət hesab edilir.

Allah tərəfindən bütün varlıqların hidayət olunduğu kimi, insanlar da hidayət olunublar.

Allah insanları iki cür hidayət edir.

1 – Təkvini hidayət

Təkvini hidayət dedikdə, insanların zatı və fitrətinə qoyulan bəzi hidayət qaydaları nəzərdə tutulur. Yəni Allah insanın yaranışında elə istedadlar yerləşdirib ki, əgər insan onu məhv etməsə, həmin daxili sərmayə onun düz yola hidayət olmasına səbəb olacaq.

Fitrət və ağıl, insana düz istiqaməti göstərən iki dəyərli nemətdir. Əvvəlki dərslərdə yaxşılıq və pisliyə işarə edib, insanın daxilindəki xüsusi xilqət haqqında danışmışdıq.

2 – Təşrii (qanuni) hidayət

Təşrii hidayət dedikdə isə, Allah elçiləri tərəfindən insanlar üçün təşkil olunan qanunlar nəzərdə tutulur. Belə ki, bu qanunlar qarşısında seçim etmək, insanın öz ixtiyarı ilə həyata keçir. Əgər insan düz seçim edib, təşrii hidayətdən bəhrələnərsə, səadətə nail olar.

İnsanın hidayəti üçün, Allah tərəfindən iki vasitə nəzərdə tutulub. Onlardan biri səmavi kitablar, digəri isə peyğəmbərlərdir.

Allah insanı həm daxilindəki sərmayə, həm də xarici yollar vasitəsi

1 Taha, 50.

ilə hidayət edir. Əgər insan istəsə, həm təkvini və həm də təşrii hidayətə müsbət cavab verər. Belə olduqda, Allah onun üçün hidayət nuru göndərər və o, insanlar arasında həqiqət nuru ilə yaşayar.

Aşağıdakı ayələri nümunə olaraq gətirmək olar.

Belə ki, Allah buyurur: Bu Kitabda heç bir şübhə yoxdur! O, təqva sahiblərinə doğru yolu göstərən bir Kitabdır.[1]

ذَٰلِكَ الْكِتَابُ لَا رَيْبَ ۛ فِيهِ ۛ هُدًى لِلْمُتَّقِينَ

أُولَٰئِكَ عَلَىٰ هُدًى مِنْ رَبِّهِمْ ۖ وَأُولَٰئِكَ هُمُ الْمُفْلِحُونَ

Həmçinin buyurur: Onlar Rəbbi tərəfindən göstərilən doğru yoldadırlar. (Cəhənnəm əzabından) xilas olanlar da məhz onlardır. (Bəqərə, 5).

Ayədən də məlum olur ki, hidayət olunanlara Quran nuru nəsib olar.

Həmçinin Allah-taala Nəhl surəsində peyğəmbərə (s) xitab edərək, insanları hansı tərzdə hidayət etməsini açıqlayaraq, belə buyurur: Hikmətlə və gözəl nəsihətlə Rəbbinin yoluna dəvət et! Onlarla ən gözəl şəkildə mübarizə apar! Şübhəsiz ki, Rəbbin yolundan azanları da, doğru yolda olanları da ən yaxşı tanıyandır.[2]

ادْعُ إِلَىٰ سَبِيلِ رَبِّكَ بِالْحِكْمَةِ وَالْمَوْعِظَةِ الْحَسَنَةِ ۖ وَجَادِلْهُمْ بِالَّتِي هِيَ أَحْسَنُ ۚ إِنَّ رَبَّكَ هُوَ أَعْلَمُ بِمَنْ ضَلَّ عَنْ سَبِيلِهِ ۖ وَهُوَ أَعْلَمُ بِالْمُهْتَدِينَ

Məlum oldu ki, insanın daxilindəki hidayət yolu, onun fitrət və ağılıdır, xaricdəki hidayət yolu isə, peyğəmbərlər və səmavi kitablardır.

Zehnimizə belə bir sual gələ bilər ki, görəsən insanları düz yola zorla dəvət etmək lazımdır?

Əlbəttə ki, bunun cavabı mənfidir. Yəni zorla hidayət mümkün deyil və bu növ hidayətin heç bir nəticəsi və faydası olmaz. Allah bizə buyurur ki, insanları düz yola dəvət edək və bu dəvətin qəbulunu onun öz ixtiyarına buraxaq. Çünki o ixtiyar sahibidir.

Əgər insn düz yolu öz istəyi və ixtiyarı ilə seçsə, bu onun kamala çatmasına kömək edib, onu kamilliyə yaxınlaşdırar.

Elə bu həqiqətləri nəzərə alaraq, Allah-taala Peyğəmbərə (s) buyurur ki, insanları özünə tərəf yox, bəlkə Allaha tərəf dəvət et.

Təbii ki, Mütəal Allah dəvətin də keyfiyyətini açıqlayır. Ona görə də

1 Bəqərə, 2.
2 (Nəhl, 125)

Peyğəmbərə (s) buyurur ki, insanları hikmət ilə dəvət etsin.

Hikmət dedikdə, məntiq, aşkar və aydın dəlillər nəzərdə tutulur. Yəni insanları haqq yola dəvət edəndə, aşağıdakı qaydalara riayət etmək lazımdır:

1- Bu dəvəti "məntiq" və "hikmət" əsasında etmək lazımdır.

2- Həmçinin dəvətdə, gözəl nəsihətlərdən də istifadə etmək lazımdır.

Bəzən insan bir məsələni dərk edir və anlayır, amma onu həyata keçirə bilmir. Problem onun ağlında yox, bəlkə daxilində və qəlbindədir. Ona görə də həmin işi yerinə yetirə bilmir.

Şəhvət, dünyapərəstlik kimi bəzi amillər də, onun doğru yolda addımlamağına mane olur.

Siratla (düz yol) bağlı çoxsaylı hədislər vardır ki, aşağıda onların bəzisini gətiririk:

Misal üçün hədislərin birində Peyğəmbər (s) buyurur: Sirat tükdən daha nazik, qılıncdan da daha kəsicidir.

"Tükdən daha nazik"-cümləsindən məqsəd, düz yolu görməkdir. Yəni bəzi insanlar yolu görmürlər, ona görə də kor hesab olurlar. Bəziləri də var ki, düz yolu görür, amma hərəkət edə bilmir və sanki ayaqları zəncirlənibdir.

Ona görə də, gözünə mənəvi pərdə çəkilmiş şəxsi düz yola hidayət etmək üçün, məntiqli dəlillər, ayağı zəncirlənmiş şəxslər ilə isə, gözəl nəsihətlə danışmaq lazımdır.

Həmçinin insanı düz yola çatdırmaq üçün, ona iradə verilməli, səbr tövsiyə olunmalı və istiqamət öyrədilməlidir. Əgər insan bu üç şeyi əldə etsə, düz yola hidayət olar.

Hidayət yolunda insanın qəlbi haqqı görür və qəbul edir.

İnsanlar bəzi vaxtlar hər hansı bir həqiqəti bilir, bəzən isə ondan xəbərsizdir və bəzən də onun haqqında səhv məlumatları olur. Məhz belə adamlara moizə etmək lazımdır. Əlbəttə ki, nəsihət edərkən qarşı tərəfin hörmətini qorumaq lazımdır. Eyni zamanda da haqqı kamil və gözəl tərzdə bəyan etmək lazımdır ki, qarşı tərəf yaxşılıq və pislikləri ayırd edə bilsin.

Allah-taala buyurur: Doğru yolda olanlara gəldikdə, Allah onların doğruluqlarını artırar və onları təqvalı edər.[1]

---

1 Muhəmməd, 17.

وَالَّذِينَ اهْتَدَوْا زَادَهُمْ هُدًى وَآتَاهُمْ تَقْوَاهُمْ

Həmçinin başqa ayədə buyurur: Allah doğru yolda olanların hidayətini artırar. (Axirətə) qalan yaxşı əməllər isə Rəbbinin dərgahında həm mükafat, həm də dönüş yeri etibarilə daha yaxşıdır.[1]

وَيَزِيدُ اللَّهُ الَّذِينَ اهْتَدَوْا هُدًى ۗ وَالْبَاقِيَاتُ الصَّالِحَاتُ خَيْرٌ عِنْدَ رَبِّكَ ثَوَابًا وَخَيْرٌ مَرَدًّا

Ayələrə əsasən məlum olur ki, Allahın ilk hidayətini qəbul edən şəxslər üçün, xüsusi hidayət nəzərdə tutulub. Birinci hidayətdən qaçan insanlar isə, ilahi hidayət mükafatına nail olmayacaqlar. Buna görə də, əgər Allah bəzilərini hidayətdən məhrum adlandırırsa, məqsəd elə birinci hidayəti qəbul etməyən insanlardır. Bu mövzu, Bəqərə surəsinin 213-cü ayəsində aydın şəkildə açıqlanır. Allah buyurur: İnsanlar tək bir ümmət idi. Allah müjdə verən və xəbərdarlıq edən peyğəmbərlər göndərdi. Onlarla birlikdə haqq olaraq kitabı da nazil etdi ki, ixtilafa düşdükləri məsələlərdə insanlar arasında hökm versin. Özlərinə açıq-aşkar dəlillər gəldikdən sonra aralarındakı kin ucbatından ixtilafa düşənlər kitab verilənlərdən başqası deyildi. Allah Öz izni ilə iman gətirənləri, onların (əhli-kitabın) ixtilafda olduqları həqiqətə yönəltdi. Allah dilədiyi kimsəni doğru yola yönəldər.

كَانَ النَّاسُ أُمَّةً وَاحِدَةً فَبَعَثَ اللَّهُ النَّبِيِّينَ مُبَشِّرِينَ وَمُنْذِرِينَ وَأَنْزَلَ مَعَهُمُ الْكِتَابَ بِالْحَقِّ لِيَحْكُمَ بَيْنَ النَّاسِ فِيمَا اخْتَلَفُوا فِيهِ ۚ وَمَا اخْتَلَفَ فِيهِ إِلَّا الَّذِينَ أُوتُوهُ مِنْ بَعْدِ مَا جَاءَتْهُمُ الْبَيِّنَاتُ بَغْيًا بَيْنَهُمْ ۖ فَهَدَى اللَّهُ الَّذِينَ آمَنُوا لِمَا اخْتَلَفُوا فِيهِ مِنَ الْحَقِّ بِإِذْنِهِ ۗ وَاللَّهُ يَهْدِي مَنْ يَشَاءُ إِلَىٰ صِرَاطٍ مُسْتَقِيمٍ

## *On səkkizinci dərsin xülasəsi*

**Xüsusi hidayət**

Quran ayələrinə əsasən, Allah-taala bütün varlıqları öz hədəfi yolunda hidayət edib (ümumi hidayət).

İnsan ümumi hidayətdən başqa, iki növ xüsusi hidayətdən də bəhrələnir.

A) Xüsusi təkvini hidayət: İnsanın xilqəti ağıl və fitrətlə yanaşıdır.

B) Təşrii hidayət: Peyğəmbərlərin göndərilməsi və kitabların nazil olması.

Nəhl surəsinin 125-ci ayəsində, Allah-taala peyğəmbərlərin

1 Məryəm, 76.

hidayətini üç yol ilə açıqlayır:

1 – İnsanın ağlının qidalanması üçün, ona hikmət və dəlil gətirmək yolu.

2 – İnsanın iradəsinin möhkəmlənməsi üçün, onunla gözəl tərzdə danışıb, onu nəsihət etmək.

3 – İnsanların zehnindəki yanlış düşüncələri aradan aparmaq üçün, onlarla mülayim tərzdə cidal və mübahisə etmək.

# On doqquzuncu dərs

## Quranın hidayəti müstəqil üsluba malikdir

Mütəal Allah Quranın müxtəlif ayələrində, Quranın digər kitablar ilə müqayisədə, tam hidayət edən bir kitab, eləcə də, o kitablar üzərində hakimiyyətə malik olduğunu bildirir. Başqa məktəblər yalnız bir sahəni əhatə edib, insanları müəyyən bir sahədə düz yola yönəldə bilər. Amma insanın ağıl, qəlb, cism və ruha malik olduğunu nəzərə alsaq, eləcə də onun ibadət, əxlaq və iqtisadi amillərə ehtiyacı olduğuna diqqət yetirsək, belə nəticəyə gəlmək olar ki, insanın hərtərəfli hidayət olması üçün ümumi hidayətə ehtiyacı var. Məhz Quran həmin ümumi hidayət kitabıdır.

Quran ən mükəmməl hidayət kitabıdır və bu müqəddəs kitabın birinci hidayət üslubu, insanların “Məad” mövzusu barədə maarifləndirməsidir. “Məad”, qayıdış anlamındadır. Məqsəd, dünyanın sonunda qiyamət günü baş verdikdən sonra, insanların dirilib, etdikləri əməllər qarşısında cavab verəcəyi gündür.

Allah-taala məad mövzusu barədə danışarkən, ona aid olan müxtəlif mövzular barədə məlumat verir və insanları həmin mövzuları unutmamağa çağırır. Məad barədə olan mövzular, aşağıdakılardan ibarətdir:

Məad

Məada iman

Məadı unutmamaq

Məadı unutmaq, qətl və günah törətməyə səbəb olur. Çünki insan belə bir əhəmiyyətli mövzunu yaddan çıxarmaqla, öz şəhvətini nəzarətdə saxlaya bilmir və bununla da günahın aqibəti barədə qəflətdə olaraq, hətta böyük günahlardan belə çəkinmir.

İnsan məadı unutmasa, etdiyi əməllərə diqqət edər və günah etdiyi vaxt, onu təkrarlamamağa çalışar. Beləliklə də insan, Allahın ona nəzarət etdiyini unutmaz.

İnsan qəbiristanlığa getməklə, qiyaməti xatırlaya bilər. Həmçinin dəfn mərasimində iştirak etməklə, dünyanın axirət üçün bir tarla olduğunu yada salmaq olar.

İnsanları hidayət etmək üçün, Quranın ikinci üsulu, onlara cənnətlə

müjdə verib, birtərəfdən də cəhənnəm əzabından qorxutmaqdır.

İnsan heç vaxt unutmamalıdır ki, etdiyi işlər puç sayılmaz və səhv əməllərinə görə hesab verəsi olacaq. (Quran həm müjdələyəndir və həm də qorxudan).

İnsanın hər bir yaxşı və pis əməllərinin ən kiçiyi belə hesablanacaq. Pis əməl qorxutmaq, yaxşı əməl isə müjdələməklə hesablanacaq.

Quranın üçüncü hidayət üslubu, misal ilə hidayət etməkdir.

Misal ilə hidayət etməkdə əsas hədəf budur ki, həqiqətləri hər kəs eşidib, dərk etsin. Bununla da, insan başa düşür ki, Quran bütün insanlar üçün hidayət kitabıdır. Əgər Quran yalnız fəlsəfi qanunlar və ya elmi vasitələrdən istifadə edib, hidayət yollarını açıqlasa, təbii ki, ümumi insanlar üçün hidayət kitabı ola bilməzdi. Çünki hər kəs fəlsəfi və elmi terminləri və həqiqətləri bilmir və Quranın hamının başa düşəcəyi sadə misallar ilə dərin həqiqətləri bəyan etməsi, bu kitabın hamı üçün hidayət kitabı olduğunu birdaha sübut edir.

Quran həm insanın fitrətinə uyğun olan, həm də ki, müxtəlif misalları bəyan etməklə hidayət yollarını bəyan edir. Ona görə də Quranın ayələrinə diqqət etsək, görərik ki, Allah həmin ayələrdə məzmun baxımından fitrətlə danışır, üslub baxımından isə misal gətirərək, həqiqətləri bəyan edir.

Quranın gətirdiyi misallar çoxdur və ayələrdəki misallar çox sayda mövzulara şamildir. Bu misalların hamısı insanın hidayət olmasına xidmət edir və sözün həqiqi mənasında həmin misallar öz təsirini göstərib və göstərməkdə də davam edir.

Allah İbrahim surəsində gözəl bir misal gətirərək, belə buyurur:

Allahın, gözəl bir sözü, kökü (yerdə) sabit duran, budaqları isə göydə olan gözəl bir ağaca bənzədərək necə bir misal çəkdiyini görmədinmi?![1]

أَلَمْ تَرَ كَيْفَ ضَرَبَ اللَّهُ مَثَلًا كَلِمَةً طَيِّبَةً كَشَجَرَةٍ طَيِّبَةٍ أَصْلُهَا ثَابِتٌ وَفَرْعُهَا فِي السَّمَاءِ

Yəni mömin insan, kökü güclü olan gözəl bir ağaca bənzəyir. Əgər ağacın kökü möhkəm olsa, əsən hər bir küləklə yıxılmaz və heç bir tufan onu kökündən qopara bilməz. Bu, mömin şəxsi vəsf etmək üçün bir misaldır. Yəni həqiqi mömin, kökü möhkəm olan bir ağac kimi güclü olar və sadə şəhvət və qəzəb qarşısında sınmaz.

Ağacın budaqları yüksəlib, günəşin nurundan bəhrələnib, öz kölgəsi

1 İbrahim, 24.

ilə fayda verdiyi kimi, möminin mənəvi budaq və yarpağı da belədir. Yəni özü mənəvi inkişaf etdikcə, ətrafındakılara da fayda verər.

Yəni əgər insanın Allaha imanı olsa və onunla öz əlaqəsini gücləndirsə, bu gözəl əlaqənin kölgəsindən başqaları da faydalanacaq.

Əli (ə) bu barədə buyurur: Sən öz əlaqə və imanını Allahla tənzimlə, mən insanlarla sənin əlaqəni tənzimləyərəm.

Kökü möhkəm olan ağacın budaqları da möhkəm olar və həmişə meyvə verər. Yəni hər hansı bir fəslə aid deyil və hər zaman, hər an bar verər. Bu xasiyyətə sahib olan ağac, cənnət ağacıdır.

Belə bir ağaca bənzədilən möminin də həmişə meyvəsi və faydası olar. Hər an və hər zaman pak əxlaq və bütün yaxşı xüsusiyyətlərə malik olar. Cənnət ağacının müxtəlif meyvələri olduğu kimi, möminin də müxtəlif mənəvi meyvələri olar.

İbrahim surəsinin 24 və 25-ci ayələrində, mömin və cənnət ağacı haqqında misal gətirilmişdir.

Tövrat, İncil və Quranın hər üçü hidayətçidirlər. Belə ki, Rəbb bəzən hidayət etməyi özünə aid edir, bəzən səmavi kitablara, bəzən isə imamlara (ə). Bu onu göstərir ki, hidayətin mənbəyi Allahdır və bu, hidayətə aid olan mövzulara tövhid baxımından baxmaqdır. Əgər Allahın hidayəti olmasaydı, nə səmavi kitablar nə imamlar (ə) və nə də peyğəmbərlər (ə) insanları hidayət edərdilər. Yəni insanların hidayəti üçün ən əsas mənbə və vasitə, Allahın nurudur. Ona görə də Allah buyurur: Allah göylərin və yerin nurudur![1]

## *On doqquzuncu dərsin xülasəsi*

**Təmsil üslubu**

Quran insanın hidayət kitabıdır və insanların hidayəti üçün lazım olan hər bir şeyi müzakirəyə çıxarır.

Quran hidayətinin xüsusiyyətləri:

Məadı xatırlatmaq

Qorxutma və müjdələməyə çalışma

Quran misal gətirmək üslubu ilə, yüksək maarifi sadə dil ilə izah edir ki, ümumi insanlar həqiqətləri dərk etmiş olsunlar.

1 Nur, 35.

İbrahim surəsinin 24-cü ayəsində maraqlı misalla mömini və insanın imanını gözəl ağaca bənzədir. Belə ki, həmin ağacın kökü möhkəm və budağı asimana baş qaldırmış, həmişə meyvə verər və meyvələri müxtəlifdir.

# İyirminci dərs

## Xüsusi hidayət

Mütəal Allah Quranda insanın hidayətindən söhbət açır və ümumi varlıqlar və onların hidayətindən başqa, insan üçün xüsusi bir hidayətin olduğu barədə də danışır. Bütün varlıqlar elə yaradılıb ki, onların hamısı sonuncu məqsədə tərəf addımlayır.

İnsan da digər varlıqlar kimi düz yola hidayət edilir, amma o, kamalı və doğru hədəfi öz ixtiyarı ilə əldə edir. Yəni insan həyatının əvvəlindən son hədəfə çatmaq üçün proqramlaşdırılmış bir varlıq deyil. İnsan azad seçimi və ixtiyarı ilə öz məqsədini müəyyən edir.

İnsan xüsusi şəkildə hidayət olunur və bu, insana xas olan bir hidayət növüdür ki, başqa məxluqların hidayəti, fərqli şəkildə olur.

İnsana aid olan bu xüsusi hidayət, insanın daxilində olur. Məhz insanın fitrət və əqlə sahib olması, onun ixtiyari seçiminə səbəb olur.

İnsana aid olan digər hidayət növü isə, insanın xaricindədir. Bu hidayət vasitələri, insanlar üçün göndərilən peyğəmbərlər (ə) və səmavi kitablardır. İnsan bu ilahi çağırışları eşitməklə, azad seçimi ilə düzgün yola tərəf addım atır. Bu hidayət növü də, insana məxsusdur və o bu yolu, öz ixtiyarı ilə seçir. Amma insanın hidayət olması üçün, aşağıdakı altı amilə diqqət yetirmək lazımdır:

1 – Yol: Hidayət zamanı bir yol təyin olunmalıdır.

2 – Hidayətçi: Hidayət etmək peyğəmbərin (ə) öhdəsindədir və kamal yolunu da insana o göstərir.

3 – Hidayətçi: Bütün yol boyu insanla yanaşı olan digər hidayət vasitəsi də olmalıdır. Həmin vasitə, insanın əlindən tutub, onu düz yola hidayət etməlidir. Həmin şəxs imamdır (ə) və o, insana yol boyu yoldaşlıq edir.

4 – Azuqə: İnsana hidayət yolunda lazım olan şeylərdən biri də, azuqədir. İnsan azuqəsiz uzaq yola davam gətirə bilməz və bu baxımdan da mənəvi azuqəyə ehtiyacı vardır.

5 – Müsafir: Hidayət yolunda, yolu qət edən, elə insanın özüdür.

6 – İnsanla bu yolda bir yerdə olan şəxs.

Bu altı məqam insanın hidayətində çox böyük əhəmiyyətə malikdir. Quran bu altı amili insanın hidayəti və onun kamala çatması üçün

önəmli hesab edir.

Quranı araşdıranda məlum olur ki, Allah-taala “Hadi”-nin (Hidayətçi) mənasını bəzən özünə aid edir və buyurur ki, Allahın özü hidayət edəndir. Misal üçün Allah Fussilət surəsində buyurur:

Səmud qövmünə də haqq yolu göstərdik. Ancaq onlar korluğu (küfr yolunu) haqq yoldan üstün tutdular. Beləcə, qazandıqları günahlar səbəbilə alçaldıcı ildırım əzabı onları yaxaladı.[1]

**وَأَمَّا ثَمُودُ فَهَدَيْنَاهُمْ فَاسْتَحَبُّوا الْعَمَىٰ عَلَى الْهُدَىٰ فَأَخَذَتْهُمْ صَاعِقَةُ الْعَذَابِ الْهُونِ بِمَا كَانُوا يَكْسِبُونَ**

Bəzən isə hidayətçi ifadəsini, səmavi kitablara nisbət verir. Misal üçün Bəqərə surəsində bu barədə buyurur: Bu Kitabda heç bir şübhə yoxdur! O, təqva sahiblərinə doğru yolu göstərən bir Kitabdır.[2]

**ذَٰلِكَ الْكِتَابُ لَا رَيْبَ ۛ فِيهِ ۛ هُدًى لِلْمُتَّقِينَ**

İnsanın doğru yola yönəlməsi üçün müəyyən bir yolun olması, hidayət deməkdir. Əgər insana yolu göstərən varsa və insan da həmin yol vasitəsi ilə düz yola tərəf addımlayarsa, bu onu göstərir ki, insanın dünyada haqqa tərəf addımlaması üçün bir yolu vardır və o, bu vasitə ilə hidayət olunur. Əgər insan həmin yol ilə getsə, hidayətə nail olar, yox əgər başqa yola tərəf meyl salıb, o yola qədəm qoysa, hidayət yolunu itirər. Həm düz, həm də ki, səhv yolun olması, onu göstərir ki, insan onu kamala çatdıran yol ilə getməlidir. Burada belə bir sual yaranır ki, görəsən bu doğru yol hansı yoldur? insan Qurandakı sirat ayələrini araşdırsa, bu yoldan bir çox insanların yanlış yerə getdiklərini görər. Ona görə də məlum olur ki, bu yol üfüqi yox, şaqulidir, eninə deyil, uzununadır. Yəni bu yolda yalnız yuxarı hərəkət etmək lazımdır. Yəni düz yolda mənəvi yüksəlişə tərəf addım atmaq lazımdır.

Bəzən insan yolun eninə tərəf hərəkət edir. Yəni öz evini dəyişir, yeni paltar alır və s.kimi şəxsi dəyişikliklər edir. Bəzən isə insan uzununa hərəkət edir. Yəni əxlaqını, əqidəsini və əməllərini dəyişir və bunula da ruhunu böyüdür. Sirat da belə xüsusiyyətə malikdir. Elə Quranın insanla bağlı danışdığı sirat, insanın yoludur. Bu hidayət yolunda hərəkət edən kəsin adı “Salik”-dir və yola isə, elə sirat deyilir.

Digər yollarda yol və müsafir fərqlidir. Misal üçün maşın asfaltın

1 Fussilət, 17.
2 Bəqərə, 2.

üzərində hərəkət edir, təyyarə səmada, amma insan öz varlığı ilə hərəkət edərək, böyüyür. İnsan öz varlığında böyüyəndə kamala çatır. Öz varlığı ilə hərəkət edib, mənəvi yüksəlişə yetişən insan, sirat yolunda olan insandır.

Beləliklə siratın xüsusiyyəti iki növdür:

A) Şaquli olmaqdır.

B) Bu sirat yolu, maşın və asfalt yolu kimi digər yollardan fərqlidir.

Allah-taala buyurur: (Ey Peyğəmbər!) Qüvvətli və bəsirətli bəndələrimiz olan İbrahimi, İshaqı və Yaqubu da yad et![1]

وَاذْكُرْ عِبَادَنَا إِبْرَاهِيمَ وَإِسْحَاقَ وَيَعْقُوبَ أُولِي الْأَيْدِي وَالْأَبْصَارِ

Ayəyə diqqət etsək, görərik ki, Allah peyğəmbərləri (ə) niyə və necə yad edilməsini açıqlayır. Ona görə də buyurur ki, "Qüvvətli və bəsirətli bəndələrimiz olan İbrahim..." və digərlərini yad et.

Yəni bu peyğəmbərlər (ə) də digər insanlar kimi əl və gözə sahib idilər. Amma onlar bu əl və gözləri ilə günah yox, bəlkə Allaha xidmət edir, pak və yaxşı işlər yerinə yetirirdilər. Onlar gözləri ilə doğru yolu və həqiqətləri görürdülər. Onların əl və gözlərdən istifadə etməsi, bir çox insanların əl və gözlərindən istifadə etdiyi kimi deyil. Peyğəmbər (ə), imam (ə) və saleh insanlar, əl və gözlərini düz yolda istifadə etdikləri üçün, onların həmin üzvləri başqalarının üzvləri ilə fərqli və pak oldu.

## *İyirminci dərsin xülasəsi*

**Hidayətin mənası**

Hidayət iki mənada işlənmişdir:

1- Yolu göstərmək: Sirat və hidayətçi (bələdçi) ilə, azuqə və müsafir – yol yoldaşı və rəhbər ilə (sülukun altı işi)

2- Məqsədə çatdırmaq: İmamın (ə) vəzifəsi insanları məqsədə çatdırmaqdır.

Hidayət və zəlalət məfhumu onu bildirir ki, insan üçün dünyada həm düz, həm də ki, yanlış yol var və onun bu yolda addımlamağa seçim imkanı var.

---

1 Sad, 45.

Quran ayələrinin xüsusiyyətlərinə əsasən, insanın siratı iki növ ola bilər:

A) Üfüqi yox, bəlkə Şaqulidir.

B) İnsanın siratı özünün daxilində olduğuna görə, mənəvi yolda yolçu ilə yol (Saliklə məslək) eynidir və fərqli deyil.

# İyirmi birinci dərs

# İnkişaf

İnsan doğru yolda olsa, inkişafa doğru hərəkət edər. Sirat yolu, insanı mənəvi yüksəlişə tərəf aparan bir yoldur və insan bu yolda davamlı şəkildə addım atarsa, kamala çatıb, öz daxilində və varlığında inkişaf edir.

İnsana siratda (Düz yolda) iki şey maneçilik törədir:

1 – Cəhalət: Gözü korluq.

Yəni bəzi insanlar doğru yolu görmür və səbəbi də budur ki, onlar həmin yolu tanımır.

2 – İradənin zəif olması.

Yəni bəzi insanlar haqq yolu tanısalar belə, iradələrinin zəif olduğu üçün, doğru yol ilə hərəkət etmirlər.

Sirat üçün qeyd olunan bu iki maneə, bəzən insanın əl-ayağına dolaşır və bəzən də onun gözünü kor edir və nəticədə insanların çoxu haqqı görmürlər.

İnsanlarda bu iki maneənin yaranmasına səbəb isə, onlarda olan təkəbbür, şəhvətpərəstlik və bu kimi mənəviyyatı korlayan günahlardır ki, həmin günahlar haqqı görməkdə onlara mane olur.

Allah Quranda buyurur: Biz bəzən insanların qarşısında, bəzən arxalarında, bəzən də onların kənarında maneələr qoyuruq. Elə bu maneələrə görə də, insan nə qarşısını görür, nə arxasını, nə də ki, hər hansı bir haqq yolu. Maneələrə aludə olan insan, yalnız özünü görür, qiyamət və gələcəyə aid olan heç bir həqiqəti görmür. Bundan əlavə, keçmişi və öz xaliqini də görmür və yalnız indiki halını görür.[1]

Bəzən insanın gözü qarşısında (Mənəvi) pərdə yaranır. Bu pərdədən məqsəd, təkəbbür, günah, həvəs, dünyaya məhəbbət, kin-küdurət və bu kimi günahlardır.

İmam Əli (ə) buyurur: Əgər insan hər hansı bir şeyi həddindən çox sevsə, onun bu sevgisi, insanın gözünə pərdə çəkilməsinə səbəb olar. Belə olduğu halda, insan sevdiyinin eyblərini görməz.

Hədislərin birində buyurulur ki, sirat tükdən nazik və qılıncdan daha

1 Yasin, 9

kəsicidir.

Əgər insan həqiqəti tapsa, çətinliklər və bir çox məsələlər həll olar. Həqiqəti tapmaq, onun əsasında yaşamaq və ona uyğunlaşmaq çox mühümdür.

İnsanın əsas problemi, yalnız həqiqəti kəşf etmək deyil, bəlkə haqqı tapandan sonra, ona əməl etmək də mühüm və lazımdır.

İnsan gözündəki pərdələri görməli, onları özündən uzaqlaşdırmalı və güclü iradəyə sahib olmalıdır. Sədəqə verməyən, dua etməyən və savab iş görməyən şəxs, günahkardır və belə əl, sağlam əl ola bilməz.

Yalnız peyğəmbərlər (ə) pak əl və gözə sahibdirlər. (İshaq, İbrahim, Yaqub və s...).

Öyrəndik ki, siratın əsas maneəsi iki şeydir. Onlardan biri budur insan gördüyü həqiqətə əməl etmir. Digəri isə budur ki, insan həqiqət yolunda addımlamır.

Bəs görəsən insan niyə bu maneələrə aludə olur və bunun əsas səbəbi nədir?

Aşağıda bu suala xülasə şəkildə cavab verəcəyik.

- Dünyanın zinəti:

Yəni bəzən insan dünyanın zinət və gözəlliklərindən gözünü çəkmir və bu səbəb olur ki, insan sirat yolunda addım atmaqda çətinlik çəksin.

- Nəfsani istəklər:

İnsan nəfsi istəklərə tabe olsa, bu onun sağlam yaşamağına mane olur. İnsan iman əhli olub, amma nəfsani istəklərə tabe olsa, yenə də haqqa əməl etməsində maneçilik yaranar.

- Ətrafındakıların söz-söhbəti:

Bəzən isə insan başqalarının sözünü dinləyib, haqqı ayaq altına qoyur. Belə olduğu halda,insan həqiqi iman əhli ola bilməz. Çünki bu maneələr, insanın iradəsinin qarşısını alar və nəticədə, insanın əl-ayağı zəncirlənər.

İnsanın günah işləri mənəvi zəncirdir. Əgər insan qarşısına çıxan ilk günaha yox deyə bilməsə, ikinci günah üçün zəmin yaranar. Buna görə də savab işlərə tərəf addım ata bilmir. Amma əgər insan istəsə, özünü günah zəncirindən xilas edə bilər.

Hər bir günah, insanın yalnız iradəsini yox, bəlkə onun ağıl və düşüncəsini də zəiflədir.

Günah insanın gözünü kor edir və ona görə də insan savab işləri

yerinə yetirməkdən uzaqlaşır.

İmam Səccad (ə) bir şəxsə üz tutaraq buyurdu: Bilirsən niyə gecə namazı qıla bilmirsən? Çünki öz günahlarınla zəncirlənmisən.

## *İyirmi birinci dərsin xülasəsi*

**Müstəqim sirat**

«Sirat insanın təkamül və çiçəklənməsinin müstəqim yoludur”.

Bu yolu görmək lazımdır və gördükdən sonra isə, onu tanıyıb, həmin yol ilə getmək lazımdır.

İnsanların bəzisi yolu görmür, bəziləri də yolu görsə də, bu yolda addım atmaq istəmirlər. Allah Quranda peyğəmbərlərə (ə)

أُولِي الْأَيْدِي وَالْأَبْصَارِ

Yəni “Qüvvətli və bəsirətli bəndələrimiz”[1] xüsusiyyətini aid edir. İnsan həqiqət yoluna tərəf getmək üçün, ona bu yolda maneçilik törədən zəncirlərdən xilas olmalıdır. Həvəs, dünyapərəstlik və günah zəncirləri, həqiqəti getmək üçün insana böyük maneələrdir.

Allah Quranda insanları iki növ məxluqlarla yanaşı gətirmişdir:

A) İnsanın mələklər ilə yanaşı gəlməsi:

Əgər insan mənəvi işlərlə məşğul olsa, kamala çatar.

B) İnsanın heyvanlar ilə yanaşı gəlməsi:

Əgər insan yaşayışını sırf heyvani yaşayış ilə keçirsə, mənəviyyatdan uzaq düşər.

1 Sad, 45.

# İyirmi ikinci dərs

# İnsanın əməli

İnsanın etdiyi əməllərin təsiri barədə danışmazdan öncə, yaxşı olardı ki, aşağıdakı suallara cavab verək.

İnsanın əməl ilə əlaqəsi nədir?

Əməl və imanın insana hansı təsiri var?

Əməlin insan ruhuna təsiri nədən ibarətdir?

Saleh əməl insanın imanını yüksəldir və onu yüksək məqama çatdırır. Əməlsiz insanın imanı zəifləyir. Amma əgər insan iman əsasında əməl etsə, yüksək mənəvi dərəcələrə çatar. Əgər insan saleh iş görsə, bu onun öz xeyrinə olar.  Yox əgər bunun əksini etsə, yəni səhv iş yerinə yetirsə, bu onun zərərinə olar.

Allah Quranda buyurur: Kim yaxşı bir iş görərsə, öz lehinə, kim də pis bir iş görərsə, öz əleyhinə olar. Sənin Rəbbin bəndələrinə zülm edən deyildir.[1]

مَنْ عَمِلَ صَالِحًا فَلِنَفْسِهِ ۖ وَمَنْ أَسَاءَ فَعَلَيْهَا ۗ وَمَا رَبُّكَ بِظَلَّامٍ لِلْعَبِيدِ

Misal üçün sədəqə verən insan, öz xeyrinə əməl etmiş sayılar və ya əgər insan başqasına kömək etsə, əslində özünə kömək etmişdir. Yəni yaxşı işlərin hamısının faydası, əslində insanın özünə qayıdır. Çünki sədəqənin ruhu və həqiqəti, insanın əməlidir. Sədəqə və digər saleh işlərin həqiqi dəyəri, insanın varlığına şamil olur. Bununla da, ehtiyaclı insanlara verilən sədəqənin əsası, yəni onun həqiqi dəyəri və ruhu, insandan ayrılmır.

Quranın saleh və pis əmələ diqqət etməsinin səbəbi budur ki, həm yaxşı, həm də ki, pis işlərin həqiqəti və təsiri, insanın özünə qayıdır.

Allah Quranda Peyğəmbərə (s) buyurur: Onların mallarından sədəqə al! Bununla onları (günahlardan) təmizləmiş və pak etmiş olarsan. [2]

Ayədən məlum olur ki, sədəqənin faydası, sədəqə verənin özünə qayıdır.

1 Fussilət, 46.
2 Tövbə, 103.

Ümumiyyətlə, sədəqənin həqiqəti və əsas mənəvi anlamı budur ki, insanda dünyapərəstlik meylini azaldır. Yəni sədəqə, insanın dünya malına qarşı istəyini azaldır və bununla da, insanın daxili aləmi nurlanır.

Yuxarıda qeyd olunan ayənin mənasına diqqət etsək, görərik ki, insanın saleh işlər yerinə yetirməsi, eləcə də günah işlərə aludə olması, əslində özünə qayıdır. Yəni həm yaxşı, həm də ki, pis işlərin nəticə və təsiri, onun özünə qayıdır.

Əgər insan oğurluq etsə, bu onun üçün bir imtahandır. Eyni şəkildə də, maddi imkanı azaldığı üçün, malı oğurlanan şəxs üçün də imtahan şəraiti yaranır.

Nəticədə isə, oğurluq edərək, günah qazanan zalım, özünü oda atır, malı oğurlanan məzlum isə, yeni bir imtahanla üzləşir.

Necə ki, Fussilət surəsinin 46-cı ayəsində həmin məsələyə işarə olunub və Allah həmin surədə buyurur ki, kim zülm etsə, özünə zülm etmiş olar və zülmə məruz qalmış tərəf, imtahana çəkilmiş sayılar.

Allah-taala İsra surəsində buyurur: Əgər yaxşılıq etsəniz, özünüzə yaxşılıq etmiş olarsınız, pislik etsəniz də, özünüzə pislik etmiş olarsınız.[1]

إِنْ أَحْسَنْتُمْ أَحْسَنْتُمْ لِأَنْفُسِكُمْ ۖ وَإِنْ أَسَأْتُمْ فَلَهَا

Fussilət surəsinin 46-cı ayəsi, İsra surəsinin 7-ci ayəsi ilə bir qədər fərqli mənanı ifadə edir. Mərhum Əllamə Təbatəbayi bu ayənin[2] təfsirində buyurur: Bu ayə başqa bir məsələyə işarə edir. Belə ki, Allah-taala bu surədə buyurur ki, "Əgər yaxşı iş görsəniz sizin xeyrinizədir və əgər pis iş etsəniz, öz əleyhinizədir". Burada məqsəd insanın xeyir və zərəridir. Saleh əməl insanın xeyrinə və pis əməl isə insanın zərərinədir.

Amma İsra surəsində bunu bəyan etmir, əksinə Allah-taala demək istəyir ki, istər yaxşı, istərsə də pis olan hər bir iş insandan ayrılmır. İnsanın əməli heç vaxt ondan ayrılmır, əməl həmişə insanla birgə olur.

İnsanın əməlinin özündə qalması və ondan ayrılmaması, insanşünaslıq mövzusunda dərin və mənalı məsələlərdəndir.

Hər kəs mütləq öz əməlinə cavabdeh olub və olacaq.

Əgər insan əməlləri qarşısında öhdəlik daşıdığını dərk edib, buna inansa, bu onda həm ümid, həm də agahlıq yaradar. İnsan bilməlidir ki, istər xeyir olsun, istərsə də şər, etdiyi əməllər heç vaxt itmir.

---

1 İsra, 7.

2 Fussilət, 46.

Burada qarşıya belə bir sual çıxır ki, bu əməlin məkanı haradır? Harada yığılır, harada qorunub saxlanır?

Müxtəlif Quran ayəsi və hədislərdən aldığımız nəticələrə əsasən, belə anlaşılır ki, hər bir insanın əməli, ondan ayrılmır, gördüyü hər iş onunla qalır və onun varlığının özündə yığılır. Eləcə də, qəbirdə onunla yanaşıdır.

İnsan qəbrə tək getmir və onun əməlləri də onunla yanaşı qəbrə gedir. İnsanın əməlləri, onun ruhunu formalaşdırır.

Əməllər insanın ruhunu formalaşdırır və nəticədə o, ruhunun malik olduğu xasiyyətə uyğun şəkildə, əməl etməyə başlayır.

İnsanın əməli dəyişəndən sonra, bu hal adətə çevrilərək, təkrarlanarsa, həmin iş onun adət və xasiyyətinə çevrilər.

İnsanın şəxsiyyət və xasiyyətini təşkil edən şey, onun əməlidir.

İnsan hər hansı bir işi yerinə yetirsə, bu onun daxilində qalar.

## *İyirmi ikinci dərsin xülasəsi*

**İnsanın əməli**

"İnsan əməlinin xeyir və ziyanı onun özünə qayıdır".

Əgər insan sədəqə versə, onun ruhu təmizlənər. Sədəqədən fəqir insan bəhrələnsə də, bu əməlin həqiqi faydası, insanın özünə qayıtmış olar.

Məzlum üçün zülm imtahan meydanı olsa da, zalımın zülmünün çirkinliyi özünə qayıdar. (Fussilət 46).

İsra surəsinin 7-ci ayəsinə əsasən, heç bir iş, onu yerinə yetirən şəxsdən ayrılmır və həmişə ona bağlı olur.

Fussilət surəsinin 46-cı ayəsinə əsasən, hər bir əməlin xeyir və ziyanı, insanın özünə qayıdır.

İsra surəsinin 7-ci ayəsində isə, əməllərin insandan ayrılmaması bildirilir.

# İyirmi üçüncü dərs

# İnsanın etdiyi işlər ilə bağlılığı

İnsanın hər bir işi, istər yaxşı, istərsə də pis iş olsun, ondan ayrılmır.

Qurani-Kərim bu məsələyə "Tairən" (quş mənasında) adı ilə işarə edir.

Nə üçün insanın əməlinə tair (quş) deyirlər?

Buna cavab vermək üçün öncə bunu bilməliyik ki, cahiliyyət dövründə insanlara üz tutan bədbəxtliyi quş ilə müəyyən edirdilər. Belə ki, o dövrdə insanların inanclarından biri bu idi ki, əgər insan səfərə gedən zaman, onun sağ və ya sol tərəfində quş qanad çalsaydı, yaxud həmin vaxt müəyyən bir quşu görsələr, səfərə çıxan insan üçün xoşbəxtlik, ya da ki, bədbəxtlik təyin olunardı. Nəticədə həmin quş insanı bədbəxt və ya da xoşbəxt edərdi. İllər keçdi və insanlar bu inanca daha da çox inanmağa başladı və nəticədə bu, insanın bədbəxtlik və xoşbəxtlik amilinə çevrildi.

Quran bəzi ayələrdə bu məsələyə aydınlıq gətirərək, insanlara bunu çatdırır ki, onların bədbəxtlik və xoşbəxtliyini təyin edən hər hansı bir quş yox, bəlkə insanın əməlləridir.

Ona görə də Allah əməl mövzusu haqqında danışan zaman, əməli "Tair" (quş) sözü ilə birlikdə gətirir ki, insanların həmin mövzuya aid olan yanlış baxışı dəyişsin.

İnsanın əməlinin itməməsi və ondan ayrılmaması mövzusu, insanı düşünməyə vadar edən mövzulardan biridir.

Bilmək lazımdır ki, insanın əməli itib, yox olmur. Yəni insanın etdiyi hər bir iş, yığılır və insan həmin işin nəticəsini yox, elə özünü və həqiqətini görür.

Bəzi Quran ayələrinə əsasən, etdiyi əməlin nəticəsini yox, bəlkə o əməlin özünü insana verəcəklər və insanı sorğu-suala aparan zaman, etdiyi işlər haqqında yazını ona verərlər.

Allah Quranda buyurur: Onlar da: "Vay halımıza! Bu necə bir kitabdır! (dünyada etdiyimiz) böyük-kiçik heç bir şeyi kənarda qoymadan hesablamışdır", - deyəcəklər.[1]

---

1 Kəhf, 49.

Ayəyə diqqət etsək, görərik ki, insanın əməli dünyada qalmış olsa da, ayədə onun əməlinin özü qeyd olunur. Həmçinin Qiyamət günündə insan gözü ilə öz əməlini görəcək.

Ayənin davamında Allah buyurur: Beləcə, etdikləri əməlləri qarşılarında görəcəklər.[1]

وَوَجَدُوا مَا عَمِلُوا حَاضِرًا

Yəni Allah burada demək istəyir ki, nə etmisinizsə, həmin əməli hazır şəkildə görəcəksiniz.

Mövzu barədə bunu da bilməliyik ki, əməl öz-özünə hazır olmur, bəlkə onu hazırlayacaqlar.

Mütəal Allah Ali-imran surəsində buyurur: Hər kəsin etdiyi yaxşı əməlləri və pis əməlləri, qarşısında hazır bir vəziyyətdə görəcəyi o gün (qiyamət günü insan), onunla (günahları ilə) özü arasında uzaq məsafə olmasını arzulayacaqdır. Allah sizi Özündən (əzabından) çəkindirir. Allah bəndələrinə qarşı şəfqətlidir.[2]

يَوْمَ تَجِدُ كُلُّ نَفْسٍ مَا عَمِلَتْ مِنْ خَيْرٍ مُحْضَرًا وَمَا عَمِلَتْ مِنْ سُوءٍ تَوَدُّ لَوْ أَنَّ بَيْنَهَا وَبَيْنَهُ أَمَدًا بَعِيدًا ۗ وَيُحَذِّرُكُمُ اللَّهُ نَفْسَهُ ۗ وَاللَّهُ رَءُوفٌ بِالْعِبَادِ

İnsanın əməllərinə aid olan mövzularda, aşağıdakı nəticələrə gəlmək olar:

1- İnsanın əməli onunla birgə qalır.

2- İnsanın əməli heç vaxt aradan getmir və bu dünyada qalır.

3- Qiyamət günü insan öz əməlini hazır görəcək.

4- İnsanın əməli hazır şəkildə olacaq.

5- İnsanın özü, öz əməlini hazır şəkildə görəcək.

Allah-taala Təkvir surəsində buyurur: Hər kəs (axirət üçün) nə gətirdiyini biləcəkdir![3]

عَلِمَتْ نَفْسٌ مَا أَحْضَرَتْ

İnsanın etdiyi işlər yığılır və itmir onun vücudunda bir anbar var və əməlləri orada yığılır. Əməllər insanın daxilində saxlanıldığı vaxt, əməl bir yazı formasına çevrilir.

İnsan hər hansı bir işi yerinə yetirəndə, onun ruhu və zehni başqa şeylər ilə məşğul olur. Həmin işlər örtülü vəziyyətdə olduğu üçün, o

---

1 Kəhf, 49.

2 Ali-imran, 30.

3 Təkvir, 14.

buna diqqət etmir, amma insan bunları öz daxilində toplamış olur.

Qiyamət günü olanda insanın daxilində toplanmış bütün işlər ona göstəriləcək.

Mütəal Allah İsra surəsində buyurur:

Biz hər insanın əməlini öz boynundan asdıq. Qiyamət günü açılmış vəziyyətdə görəcəyi bir kitabı onun qarşısına çıxardarıq.[1]

وَكُلَّ إِنْسَانٍ أَلْزَمْنَاهُ طَائِرَهُ فِي عُنُقِهِ ۖ وَنُخْرِجُ لَهُ يَوْمَ الْقِيَامَةِ كِتَابًا يَلْقَاهُ مَنْشُورًا

Yəni Qiyamət günündə tam açıq şəkildə, insanın özünün qarşısına, onun daxilindəkilər çıxarılacaq.

Qiyamətdə baş verən belə bir vəziyyətə, yazının açılması deyilir.

Belə ki, əməllərin batini və həqiqəti od vəziyyətində aşkar olar. Dünyada bu vəziyyət görünməsə də, Qiyamət günündə görünər. Bağlı və örtülü vəziyyətdən, açıq vəziyyətə gələndə, insanın yığdığı hər bir şey, aşkar olar.

Beləliklə də, Qiyamət günündə insan özünün şahidi olacaq.

Allah Quranda buyurur: Kitabını (əməl dəftərini) oxu! Bu gün hesaba çəkilməyin üçün sən özün-özünə kifayətsən.[2]

اقْرَأْ كِتَابَكَ كَفَىٰ بِنَفْسِكَ الْيَوْمَ عَلَيْكَ حَسِيبًا

Ayədəki “Kitabını oxu” cümləsindən məqsəd, insanın əməlləridir.

Əgər ayədə işin adı yazılsa, bu bir növ kitab adlanacaq. Yox əgər ayədə işin özü yazılsa, başqa bir kitab və ya insanın öz varlığı nəzərdə tutulmuş olacaq.

Həmçinin bu və bu kimi bir çox ayələrdən məlum olur ki, insanın özü, özü üçün kifayətdir.

Yəni əgər insan epistemoloq (mərifətşünas) olsa, özündən hesab ala bilər və bu vaxt o, bu işi yerinə yetirməlidir.

## *İyirmi üçüncü dərsin xülasəsi*

**Əməl arxivi**

Yasin surəsinin 12-ci və İsra surəsinin 13-cü ayələrinə əsasən, insanın əməli aradan getmir və bu aləmdə mələklər vasitəsi ilə yazılır.

Kəhf surəsinin 49-cu ayəsinə əsasən insanın əməli Qiyamət günündə

1 İsra, 13.
2 İsra, 14.

hazır olacaq.

Ali-imran surəsinin 30-cu ayəsinə əsasən, əməli çağırırlar və o, öz-özünə hazır olmur.

Əgər insanın əməli aradan getmirsə, deməli bu aləmdə arxivləşdirilir

İsra surəsinin 13-cü ayəsinə əsasən, insanın əməli örtülü şəkildə öz ruhunda arxivləşdirilər və Qiyamət günündə həmin əməl açılaraq, yazılmış kitab formasında hazır olar.

# İyirmi dördüncü dərs

# İnkişaf və xəsarət

Quranda insanşünaslığa aid olan önəmli mövzulardan biri də, xəsarət mövzusudur. Xəsarət, zərər və ziyan mənasındadır.

Əgər Quranın ayələrinə diqqət yetirsək, görərik ki, həmin ayələrdə Allah insanın çox sayda xəsarətə düşdüyünə işarə edir.

Bəzi insan hər hansı bir torpaq sahəsi alıb, xəsarətə uğrayır, bəzən də meyvə alıb, ziyana uğrayırlar. Amma Quranın baxışında, xəsarətə uğrayan, elə insanın özü olur.

Bu onu göstərir ki, insan öz varlığının sərmayəsinin malikidir. Yəni insan, mal, torpaq, ev və mülkdən başqa, öz varlığının da sahibi və onun malikidir. İnsan öz varlıq sərmayəsinin mənəvi ticarət yolunda, bəzən cüzi qiymətlə xəsarətə düşür.

Mövzu ilə əlaqədar, xəsarət kəlməsinin ayələrdə işlənildiyini nəzərə alsaq, mənəvi bir ticarətdən xəbər verildiyi, həmçinin bu ticarətin sərmayəsi, insanın özü olduğu məlum olur.

Əgər sərmayə olmasa, nə ticarət etmək, nə də ki, zərərə düşmək imkanı olmaz.

Quranda xəsarət kəlməsi, bir çox ayələrdə istifadə edilib. Həmin ayələrdən bəzisini nümunə olaraq gətiririk:

Onlar doğru yol əvəzində əyri yolu satın almış kəslərdir.[1]

Onların ticarəti xeyir gətirmədi və onlar doğru yolu tapmadılar.[2]

Şübhəsiz ki, Allah möminlərdən canlarını və mallarını cənnət müqabilində satın almışdır.[3]

Mövzu ilə əlaqədar bu və digər ayələrə diqqət yetirsək, görərik ki, həmin ayələrdə Allahın alıcı, insanın isə satıcı olduğu bildirilir.

Yəni insanın öz ixtiyarı ilə satdığı şey, onun can və malıdır, Allah tərəfindən ona verilən qiymət və dəyər isə, əbədi olan cənnətdir. Quranın bu müamiləsinin dəlili və sənədi, həm Quran, həm də İncildə var.

Bütün bunları nəzərə alaraq, deyə bilərik ki, insan böyük bir

---

1 Bəqərə, 16.
2 Bəqərə, 16.
3 Tövbə, 111.

sərmayəyə sahib olan varlıqdır.

İnsan öz varlığında sərmayədən yaradılmışdır və onun yaradılışı əbəs yerə deyil. Bu sərmayə vasitəsilə ticarət edir, xeyir və ya ziyan əldə etmiş olur. Quran xəsarət və ziyan sözündən istifadə etməklə, insana sərmayə sahibi olduğunu başa salmaq istəyir.

**İnsanın sərmayəsindən məqsəd.**

Burada qarşıya belə bir sual çıxır ki, insanın sərmayəsi dedikdə nə nəzərdə tutulur?

Bu suala cavab vermədən öncə, Allah-taalanın buyurduğu ayəyə diqqət yetirək. Allah Bəqərə surəsində buyurur: Onlar, doğru yolu verib azğınlığı satın almış kimsələrdir.[1]

Doğru yoldan məqsəd, hidayətdir. Hidayət isə, insanın fitrətində var və elə bu, insanın sərmayəsidir.

Allah-taala Tövbə surəsində buyurur: Şübhəsiz ki, Allah möminlərdən canlarını və mallarını cənnət müqabilində satın almışdır.[2]

إِنَّ اللَّهَ اشْتَرَىٰ مِنَ الْمُؤْمِنِينَ أَنْفُسَهُمْ وَأَمْوَالَهُمْ بِأَنَّ لَهُمُ الْجَنَّةَ

Bu ayəyə əsasən, insanın sərmayələrindən biri onun canı və mallarıdır.

İnsan Allah yolunda sədəqə verəndə, əslində onu Allaha vermiş sayılar. Allah yolunda nə verilərsə (sədəqə kimi) qalıcıdır amma insanın özü üçün nə qalırsa fanidir.

Allah yolunda xərclənib, onun yolunda veriləndə, Allah onu artırır və dəfələrlə çoxaldır.

Daxili hidayət də, insanın sərmayəsidir. Eləcə də onun canı və malı onun sərmayəsidir.

Bəzi ayələrdə insanın fikir və ağılı sərmayə adlandırılır. Bəzi ayələrdə isə, onun qəlb və ruhu sərmayə kimi tanıtdırılır.

Digər məxluqlarda olmayan və yalnız insana məxsus olan bəzi daxili və mənəvi sərmayələr vardır ki, bunlar insanın əzəmətə malik olduğunu sübut edir.

---

1 Bəqərə, 16.
2 Tövbə, 111.

## *İyirmi dördüncü dərsin xülasəsi*

**İnkişaf və xəsarət**

Quranda insanşünaslığa aid olan mövzulardan biri də, insanın inkişafı və xəsarətə məruz qalma mövzusudur. İnsan ticarət etdiyi vaxt xəsarət baş verə bilər. Həmçinin insanın ticarəti o zaman məna tapır ki, onun sərmayələri olsun.

Quranda ticarət kəlməsi, alış, satış, xəsarət və s. kimi iqtisadi bəhslərdən başqa, insanın mənəvi ticarəti haqqında da işlənmişdir və bu, insanın mənəvi sərmayələrinin göstəricisidir.

İnsan bir sıra sərmayələrlə yaradılmışdır və onlara qarşı diqqətsizlik, varlığının xəsarətə uğramasına səbəb olur.

Quran ayələrinə əsasən insanın bəzi sərmayələri aşağıdakılardan ibarətdir:

A) Ağıl.

B) Fikir.

C) Qəlb.

D) Mal və can.

E) İnsanın daxili hidayətləri (fitrət – ilham).

# İyirmi beşinci dərs

# İnsan tacirləri

Keçən dərslərdə öyrəndik ki, insanın bir çox sərmayələri vardır. Belə ki, İnsanın daxilində ağıl, fikir, can, ömür və daxili hidayət kimi böyük potensialları var.

Quran buyurur: Bu sərmayələrin alıcısı Allahdır. Bu müamilənin taciri Allahdır.[1]

Səff surəsində belə bəyan edilir ki, insanın birinci taciri olan istəkləri ağlı, qəlbi, ruhu, ömrü, canını alır.[2]

Əgər insan özünü, öz istəklərinə satarsa, ömrü bitdiyi zaman, əliboş qalar və əlində dəyərli heç nəyi qalmaz.

İkinci tacir isə şeytandır ki, insanın bu sərmayələrini ondan almağa çalışır.

Mütəal Allah Əraf surəsində buyurur:

Sonra mütləq önlərindən, arxalarından, sağlarından və sollarından onların yanına soxulacağam. Sən onların çoxunu şükür edən görməyəcəksən”.[3]

Yəni Şeytan dörd tərəfdən insanların sərmayələrini almağa çalışır.

İnsan bəzi vaxtlar savab işləri Allaha xatir yerinə yetirmir.

Şeytan çalışır ki, insana aid olan mənəvi gözəllikləri ondan alsın və insanın niyyətini dəyişdrsin.

Ona görə də insan çalışmalıdır ki, öz mənəvi gözəlliklərini minnət qoymaqla aradan aparmasın. İnsan bilməlidir ki, savab iş görəndə, Allah ona həmin işin qarşısında on qat savab yazır.

Bəzən insan yaxşı bir iş görür, amma həmin savab işdən sonra elə bir addım atır ki, həmin işin savabını aradan aparıb, yox edir.

Əraf surəsində şeytanın sol və sağ tərəfdən insana hücum etməsi barədə söz gedir.

Sağ tərəf deyildikdə savab işlər, sol tərəf deyildikdə isə, günah işlər nəzərdə tutulur.

---

1 Bəqərə, 111.
2 Səff, 11.
3 Əraf,17.

Yəni Şeytan insana sağ tərəfdən hücum edən zaman onun savab işlərinin savabını məhv etməyə çalışır, sol tərəfdən hücum edəndə isə, onu günaha aludə etməyə çalışır.

"Sonra mütləq önlərindən, arxalarından, sağlarından və sollarından onların yanına soxulacağam. Sən onların çoxunu şükür edən görməyəcəksən".[1]

ثُمَّ لَآتِيَنَّهُمْ مِنْ بَيْنِ أَيْدِيهِمْ وَمِنْ خَلْفِهِمْ وَعَنْ أَيْمَانِهِمْ وَعَنْ شَمَائِلِهِمْ ۖ وَلَا تَجِدُ أَكْثَرَهُمْ شَاكِرِينَ

Quran ayələrinə diqqət etsək, görərik ki, Allah insanın sərmayələri haqqında ümumi olaraq aşağıdakıları buyurur:

- İnsan özünü nəfsani həvəslərinə satmamalıdır. Çünki əgər belə olsa, əliboş qalar.

- İnsan özünü Şeytana satmamalıdır. Əgər insan özünü Şeytana satarsa, sağlam qəlbi verir və onun yerini kin-küdurətlə dolu olan qəlb tutar, pak fitrəti məhv olub, yerinə xəbis ruh gələr və insanın ömrü cinayətlə dolar.

- İnsan ətrafdakıların sözünü alıb-satmamalıdır. Əgər insan başqalarının sözü ilə yaşasa, həyatını məhv etmiş olar.

Allah quranda buyurur ki, insan qiyamət günündə barmağının yerinə əlini dişləyəcək.[2]

Bu cümlənin mənası budur ki, insan həmin gün təəssüf edib, həsrət çəkəcək. İnsan dünya işləri üçün həsrət çəkəndə, öz barmağını dişləyir, amma qiyamət günündə, təəssüf və həsrətin şiddətindən hər iki əlini dişləyəcək. Bunun səbəbi isə qiyamət günündə xəsarət və zəlalət daha çox olmasıdır.

İnsan qiyamət günü deyəcək ki, ey kaş, filankəsi özümə dost tutmayaydım,[3] ey kaş onunla danışmayaydım, ey kaş başqalarına qarşı bədbin olmayaydım.

Əgər insan müstəqil düşüncəyə sahib olmasa və hər kəsin dediyini təsdiqləsə, başqalarının düşündüyü hər bir şeyi qəbul edər. Nəticə etibarı ilə də, başqalarının sözü ilə öz ömrünü yanlış ticarətdə bitirmiş olar.

İnsanın Allah ilə arasında olan başqa bir ticarət isə, onun malı və

1 Əraf, 17.
2 Furqan, 27.
3 Furqan, 28.

canıdır. Belə bir ticarətin qarşılığı və nəticəsi də cənnətdir.

Bəzən insanın zehnində belə bir sual yarana bilər ki, “Can və malı Allaha satmaq” hansı anlam daşıyır?

Namaz, oruc, sədəqə və bu kimi xeyirli işlər Allah ilə ticarət sayılır və bu alış-veriş insanın öz xeyrinədir. Çünki Allahın bu işlərə ehtiyacı yoxdur.  Eləcə də insan ibadət edəndə, onun təqvası daha da yüksəlir.

İnsan Allah ilə alqı-satqı edəndə, Allahın insana verdiyi muzd, cənnətdir.

Bu məcazi alış-verişdir və bu ticarətdə, əslində insanın özü xeyir götürür və özünü kamilləşdirir. Mal, can, ömür və digər nemətləri insana Allah bəxş edib.

Yəni bu ticarətdə Allah yox, bəlkə insan mənfəət götürüb, daha da kamilləşir. Bu, gözəl ticarət qarşılığında Allahın insana verdiyi dəyər və hörmətdir. İnsan Allah ilə müamilə edəndə, xeyir götürür və xəsarətdən uzaqlaşır.

Allah-taala bu barədə buyurur: And olsun axşam çağına! Həqiqətən, insan ziyan içindədir. Yalnız iman gətirib yaxşı işlər görənlər, bir-birinə haqqı məsləhət görənlər və bir-birinə səbrli olmağı məsləhət edənlərdən başqa.[1]

**وَالْعَصْرِ إِنَّ الْإِنْسَانَ لَفِي خُسْرٍ إِلَّا الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ وَتَوَاصَوْا بِالْحَقِّ وَتَوَاصَوْا بِالصَّبْرِ**

## *İyirmi beşinci dərsin xülasəsi*

**İnsanın tacirləri**

Dünya insan sərmayələrinin bazarıdır və bu dünyada sərmayələr üçün tacirlər var.

İnsan tacirləri

A) İnsanın istəkləri

B) Şeytan və onun azdırması

Şeytan Əraf surəsinin 17-ci ayəsinə əsasən dörd tərəfdən insana tərəf gəlir.

İnsanın sərmayələrinin üçüncü taciri, başqa insanlar və onların sözləridir. Bəziləri başqalarının razılığını qazanmaq üçün, öz ömürlərini

1 Əsr,1-3

zay edirlər.

Tövbə surəsinin 110-cu ayəsi və bu kimi digər ayələrə əsasən, insanların sərmayələrinin ən yaxşı alıcısı Allahdır. Əgər Allah insanın ömür və sərmayəsinin alıcısı olsa, insan öz ömrünü Allahın yolunda xərcləyər və nəticədə insanın özü xeyir qazanmış olar.

# İyirmi altıncı dərs

## Xəsarət

Quranda xəsarət mövzusu ilə bağlı çox sayda ayələr vardır. Nümunə olaraq onlardan bəzisini gətiririk.

وَمَنْ خَفَّتْ مَوَازِينُهُ فَأُولَٰئِكَ الَّذِينَ خَسِرُوا أَنْفُسَهُمْ فِي جَهَنَّمَ خَالِدُونَ

Tərəziləri yüngül gələnlər isə özlərini ziyana uğradanlardır. (Onlar) Cəhənnəmdə əbədi qalacaqlar.[1]

الَّذِينَ خَسِرُوا أَنْفُسَهُمْ فَهُمْ لَا يُؤْمِنُونَ

Özlərini ziyana uğradanlar iman gətirməzlər.[2]

إِنَّ الْخَاسِرِينَ الَّذِينَ خَسِرُوا أَنْفُسَهُمْ وَأَهْلِيهِمْ يَوْمَ الْقِيَامَةِ ۗ أَلَا إِنَّ الظَّالِمِينَ فِي عَذَابٍ مُقِيمٍ

"Şübhəsiz ki, ziyana uğrayanlar Qiyamət günü özlərini və ailələrini itirənlərdir". Həqiqətən, zalımlar daimi əzab içində olacaqlar.[3]

Bəzən insan yalnız maddi xəsarətə yox, bəlkə daxili və mənəvi xəsarətə də uğrayır. Quran ayələrinə diqqət yetirsək, görərik ki, ayələrin bəzilərində Allah bizə özümüzün həqiqi dəyərini bilib,ehtiyatlı olub, ziyana uğramamızı tövsiyə edir.

Mütəal Allah Şura surəsində buyurur:

Həqiqətən insanlar öz özlərinə ziyan edirlər.[4]

Yəni öz varlıqlarını ucuza satır və bahalı malı çox aşağı qiymətə dəyişirlər.

İnsanın mələkuti ruhu və fitrəti var. Bununla belə, insan öz yaşayışında bəzi günahlara aludə olur və nəticədə onların qiymətini aşağı salır və özünü alçaldaraq, qiymətdən düşürür.

Ənam surəsində isə Allah-taala buyurmuşdur: Özünə ziyan vuranlar ziyana düşür və özlərini aşağı dərəcəyə düşürürlər.[5]

Nəticədə isə, Allaha iman gətirmək üçün daxillərindəki mövcud olan sərmayə yox olub aradan gedir.

Çünki insan davamlı günah və tüğyan nəticəsində, özünə zərbə

---

1 Muminun, 103.
2 Ənam, 12.
3 Şura, 45.
4 Şura, 45.
5 Ənam, 12.

vurur və həmin batini hiss fəaliyyətdən düşür. Ona görə də özlərini bu vəziyyətə düşürən insanlar iman gətirmirlər.

Allah-taala Zumər surəsinin 15-ci və Muminun surəsinin 103-cü ayələrində də buyurur ki; Əməlləri və çəkisi ağır olmayan kəslər, əzəmətli ruhu aşağı salmış və ziyana uğramış olarlar.

Misal üçün, əgər ailədə yaranan ixtilaflara diqqət etsək, görərik ki, çox vaxtlar sadə, kiçik və əhəmiyyətsiz məsələlərə görə arada ixtilaf yaranır.

İnsanların ruhu kiçik olduğuna görə, elə kiçik məsələlər də onlar üçün böyük kimi görsənir və nəticədə də hər bir xırda şeyi böyüdürlər.

Kiçik işlərdə ilişib qalanlar, özlərinə ziyan vurmuş olurlar.

Buna görə Quran bizə xəbərdarlıq verir ki, insan bəzi hallarda özünü xəsarətə uğradır.

İnsanın öz varlığının xəsarətə düşməsi ilə, mal və mülk xəsarətinə düşməsi arasında fərq var.

Belə ki, maddi xəsarəti aradan aparmaq olar, amma əgər insan ruhunu ucuz satıb, tövbə etməsə, qiyamətdə uduzduğunu dərk edər, buna görə də təəssüf edib, həsrət çəkər. "Youmul-Təğabun" yəni öz xəsarətini bildiyi və dünyada öz xəsarətini hiss etdiyi gün deməkdir.

Allah Quranda buyurur ki, Sizin qiymətiniz cənnətdir, onu ucuz satmayın və sizin həqiqi və əbədi eviniz, Rizvanullah Əkbərdir. (Allahın razılığı).[1]

Əməldə xəsarət etmək, bəyənilməyən işləri yerinə yetirmək mənasındadır.

Varlıqda xəsarət  etmək isə, Adəm övladlarına verilən kəramət və dəyərə qarşı unutqanlıq edib, onu tənəzzülə tərəf aparmaq mənasındadır.

Yəni insan dəyərli əmanətin sahibi olan halda, ona qarşı laqeyd qalır və nəticədə onun dəyərini aşağı düşürür. Bununla da özünü xəlifətullah kimi aparmır və mənəvi cəhətdən aşağı enir. Məhz bu hal, varlıqdakı xəsarət anlamına gəlir.

Bəzi vaxtlar isə insan əməldə zərərə uğrayır. Yəni insanın zəhmətləri faydasız olur. Quran bu növ xəsarəti Əbu Ləhəbdə nisbət verərək, buyurur: Əbu Ləhəbin əlləri qurusun, qurudu da![2]

---

1 Tövbə, 111.
2 Məsəd, 1.

تَبَّتْ يَدَا أَبِي لَهَبٍ وَتَبَّ

Yəni Əbu Ləhəbin həm əlləri, həm də özü həlak oldu.

Ayədəki "Əllər" sözündən məqsəd, işi yerinə yetirən əməllər mənasındadır. Yəni Əbu-Ləhəb və onun kimilərinin həm işləri faydasızdır, həm də ki, özləri də öz varlıqlarında həlak olub, xəsarətə uğrayıblar.

Bəzən insan 20 il faydasız yolda zəhmət çəkir və heç bir faydalı nəticələr də əldə edə bilmir.

Buna nümunə olaraq, ilğımı su təsəvvür edib, ona tərəf addımlayan insanı misal gətirmək olar. Quran Kəhf surəsində buyurur: O kəslər haqqında ki, onların dünya həyatındakı səyləri boşa çıxmışdır. Çünki onlar özlüyündə yaxşı işlər gördükləri gümanında idilər.[1]

De: "Sizə əməlləri baxımından ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi?

قُلْ هَلْ نُنَبِّئُكُمْ بِالْأَخْسَرِينَ أَعْمَالًا الَّذِينَ ضَلَّ سَعْيُهُمْ فِي الْحَيَاةِ الدُّنْيَا وَهُمْ يَحْسَبُونَ أَنَّهُمْ يُحْسِنُونَ صُنْعًا

Haqq yolu görmək və gördükdən sonra həmin yolda addımlamaq lazımdır. Yolu görmək dedikdə, iman gətirmək nəzərdə tutulur.

İnsan Allahla əlaqəni kəsməməlidir. Əgər insanın Allaha olan imanı yalnız zahirdə deyilsə, gərək insan bunu öz yaşayışında da əks etdirə. Yəni iman yalnız dildə olmamalıdır. Həqiqi imanın təsiri və cilvəsi, saleh əməldir. Əgər insanın qəlbində Allaha iman olsa, varlığına xəsarət yetirməkdən uzaq durar. Əgər insan saleh əməl yolunda çalışsa, əməlinin xəsarətə uğramasından da uzaqlaşar.

Bildiyimiz kimi "Sirat", düzgün yolu görmək və həmin yolda addımlamaq deməkdir. İnsan bəzi vaxtlar yolu görmür (kordurlar) və bilmir ki, hansı tərəfə getsin. Bəzən isə gözləri kor deyil və yolu görür, amma doğru yolda addımlaya bilmir.

Çünki əl və ayağı zəncirlənmişdir. Misal üçün, bəzən insan sədəqə verə bilmir, məscidə gedə bilmir və ya dua edə bilmir. Bəzən insanın qəlbində Allah qorxusu olmur. Bəzən də Allah qəlbində olsa da, iman zəif olur və həmin zəif imanı yaxşı iş görmək üçün ona kifayət etmir.

Allah-taala Əsr surəsində isə belə buyurur: Bir-birinə haqqı məsləhət

1 Kəhf, 103-104.

görənlər və bir-birinə səbrli olmağı məsləhət edənlərdən başqa.[1]

وَتَوَاصَوْا بِالْحَقِّ وَتَوَاصَوْا بِالصَّبْرِ

Bəzən insan yolu görür, amma məqsədi itirir. Misal üçün şübhələr, yolun doğruluğunu dərk etməməyə və şübhə böhranının yaranmasına səbəb olur. Bu şübhələr həm elmi, həm də ki, şəhvətə aid olan şübhələr ola bilər.

İnsan həmin şübhələrdə qalmaqla, getdiyi yolda şəkkə düşür. Ona görə də əgər insanlar xəsarətdən xilas olmaq istəsələr, gərək bir-birilərini haqqa tövsiyə etsinlər. (Getdikləri düz yolda, itirdikləri ünvanı ona göstərsinlər).

وَتَوَاصَوْا بِالصَّبْرِ

Bəzən haqq yolu görməkdə insanın heç bir problemi olmur. Amma yolu gedən vaxt, problemlə üzləşir. Və ya çətinlik, tənhalıq, ağır sınaqlar və ya hər hansı başqa bir səbəbə görə, yolunu davam etdirə bilmir.

İnsan faydasız iş gördüyü halda ziyana düşür və elə zənn edir ki, yaxşı iş görüb. Ona görə də bu insan iki qat xəsarətə uğramış sayılır. Əgər onun yanlış xəyalı olmasa və ziyanı dərk etmiş olsa idi, əlbəttə ki, onun zəhmətinin qarşılığı verilərdi. İnsan gördüyü işin faydasız olduğunu dərk etsə, o işə qarşı bir çarə tapmağa çalışar. Amma əksinə, faydasız işin yaxşı və düzgün olduğunu düşünən insan, həmin işi islah etmək şəraiti əldə edə bilməz.

Ona görə də bu cür insanlar əməl baxımından həqiqi xəsarətə düşmüş sayılar.

Bu cür insan, həm öz ömrünü məhv edir, həm də başa düşmür ki, günbə-gün ömrünü itirir. Həmin insan çalışıb, zəhmət çəksə də, çalışmasının əyri yolda olduğuna diqqət etmir və elə xəyal edir ki, etdiyi işlər düzgün işlərdir və onu xoşbəxtliyə aparacaq. Ona görə də ziyanda olduğunu bilmir və ona çarə tapmağı da düşünmür.

İnsan gərək çox diqqətli olsun ki, nə öz varlığında, nə də əməllərində xəsarətə uğramasın.

Yəni çalışmalıyıq ki, Allahın razılığını qazandıran işləri yerinə yetirək. Eyni zamanda da Allahın varlığını da unutmayaq.

Çünki əgər insanın Allaha bağlılığı azalsa və ya ümumiyyətlə onunla bağlılığı kəsilsə, insanın varlığı xəsarətə uğrayar.

---

1 Əsr, 3.

## *İyirmi altıncı dərsin xülasəsi*

**Xəsarət**

Quranda xəsarətlə bağlı çox sayda ayələr var. Nümunə üçün Muminun 103, Ənam 12, Şura 45 və.s. ayələri misal gətirmək olar.

Quranda iki növ xəsarət vardır:

A) Varlıqda xəsarət

Yəni özünü itirmək, öz dəyərini nəzərə almamaq, liqaullahda göz yummaq.

B) Əməldə xəsarət:

İnsan bəyənilməyən işlər ilə məşğul olarsa, əməldə xəsarət etmiş sayılar.

# İyirmi yeddinci dərs

# İnsanın nicatı

Qurandakı hidayət mövzusuna aid olan bəhslərdən biri də, insanın özünə qayıdışı, özünü dərk edib, dəyərli varlığını ucuz satmayıb, öz dəyərinin əhəmiyyətini dərk etməsidir.

İnsan gərək varlığına yetişəcək xəsarətlərə qarşı diqqətli olsun. Bu baxımdan Allah bizə buyurur: Ey iman gətirənlər, siz özünüzə baxın![1]

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا عَلَيْكُمْ أَنْفُسَكُمْ

Yəni Allah-taala bizə buyurur ki, ehtiyatlı olun, özünüzü ucuz satmayın, daxilinizdə böyük sərmayələrin olduğunu unutmayın və çalışın həmin sərmayələri inkişaf etdirin.

Burada qarşıya belə bir sual çıxır ki, insan xəsarətdən necə nicat tapa bilər?

Mütəal Allah Əsr surəsində xəsarətdən xilas olma haqqında belə buyurur: Əgər insan öz varlığını Allaha imanla inkişaf etdirsə, yaxşı iş görsə xəsarətdən uzaqlaşa bilər.

İradənin zəiflədiyini gördükdə bir-birini səbrə tövsiyə edirlər.

Ümumi olaraq bunu deyə bilərik ki, insanı xəsarətdən xilas edəcək dörd amil və qayda var:

1- Allaha iman (qəlb Allahın zikri ilə dolur və Allahı tanıyır).

2- Saleh əməl: İman və saleh əməlin qalması və qorunması üçün üçüncü və dördüncü şərt lazımdır.

3- Haqqa tövsiyə

4- Səbrə tövsiyə

Əsr surəsi inkişaf və xəsarətdən uzaqlıq surəsidir.

İnsan addımladığı haqq yolunu görməli və dərk etməlidir ki, bu yolda ona yoldaşlıq edən, onun Allaha olan imanıdır. Bu baxımdan insan gərək həmin yolda addım atsın (saleh əməl). Əgər insan haqqı görməkdə problem ilə üzləşərsə, gərək haqqa sifariş etsin və əgər getməkdə problem olsa, səbrə tövsiyə etməlidir.

İnsan xəsarətdən xilas olmaq üçün də fərdi işlər yerinə yetirməli və

1 Maidə, 105.

pak olan cəmiyyətdə yaşamalıdır. İnsan xəsarət ilə üzləşdiyi zaman, bunu zəmanənin üstünə atır. Allah-taala əsrə and içməklə bizə bunu başa salır ki, zəmanə və şərait pis deyil və həyatını korlayan, əslində zəmanə yox, bəlkə insanın özüdür. Çünki insan öz ixtiyar və seçimi ilə ziyana düşür və Allah insanın gətirdiyi "zaman bəhanəsi" -nin üstündən xətt çəkir. Fərdi cəhətdən insanı xəsarətdən uzaqlaşdıran məsələ, Allaha iman və insanın öz əməlləridir. Yəni insan gərək əməli və şübhə baxımından müəyyən olmayan şeyləri həll etsin və bununla da yolu yaxşı görmüş olsun.

İnsan yolu gördüyü vaxt, artıq kor deyil və gözü açılır. Gərək ilk olaraq insanın gözü açılsın. Çünki insanın gözü açılanda, o düşünməyə başlayır. Yəni insan düşüncə vasitəsi ilə imana çatır. İmana çatdıqda artıq onun imanı xəsarətdən nicat tapır və Quran çox ayələrdə “amənu”-nun ardınca “əmilus-salihat” ı gətirmişdir.

Yəni iman təklikdə kifayət deyil və gərək insan saleh əməllər də yerinə yetirsin ki, həmin əməllərdən sonrakı imanın da faydası olsun. Əgər insan tamamilə xəsarətdən nicat tapmaq istəsə, bütün yaxşı əməlləri yerinə yetirməlidir. Belə olduğu təqdirdə, insan həm əli ilə yaxşı işlər ilə məşğul olar, həm də saleh olan gözləri ilə. insanın ayağının işləri də saleh olmalıdır. Bəzilərinin əməllərinin bir hissəsi salehdir, bəzilərinin isə yox. Əməlləri yaxşı olan şəxslər, “əmilus-salihat”(Saleh işlər yerinə yetirənlər) cümləsinə aid olanlardır.

İnsanın bütün işləri saleh olmalıdır və bunlar fərdi işlərdir.

İnsanlar adətən təklikdə nicat tapa bilmirlər və yalnız böyük iradəli insanlar bu problemdən başı uca çıxa bilirlər.

Özü bir ümmət olan Həzrət İbrahimi (ə) buna misal gətirmək olar.

Adi adamlar möminlərin əhatəsində olmalıdılar, “amənu” və “əmilus-salihat”dan sonra bütün möminlərin vəzifəsi budur ki, haqqa tövsiyə etsinlər ki, imanlarını qoruya bilsinlər, səbrə tövsiyə etsinlər və nəticədə də saleh əməl yerinə yetirə bilsinlər.

İmanı saxlamaq bu mənadadır ki, insanlar şübhə və suallara cavab vermək üçün, bir-birinə elm və mərifət ötürməli, düyün və şübhəni həll etməklə, imanın qalıcı olmasına zəmin yaratmalıdır. Əlbəttə insan bəzən bu yolda yorulur və çətinliyə düşür. Amma unutmamalıyıq ki, saleh əməlləri yerinə yetirmək üçün, səbrə ehtiyacımız var. İnsanın iradəsini zəiflədən amillər də var ki, insanı doğru yolda addımlamaq və

saleh əməlləri yerinə yetirməkdən uzaqlaşdırır. Amma bu maneələrin qarşısını almaq üçün, möminlər gərək bir-birini səbrə tövsiyə etsinlər.

## *İyirmi yeddinci dərsin xülasəsi*

**İnsanın nicatı**

Əsr surəsinin 3-cü ayəsinə əsasən insanın xəsarətdən nicat tapması üçün dörd önəmli qaydaya ehtiyac vardır:

1 – Allaha iman

2 – Saleh əməl

3 – Haqqa tövsiyə (Bir-birini haqqa sifariş etmək)

4 – Səbrə tövsiyə (Bir-birini səbrə tövsiyə etmək)

İnsan haqq yolu görməlidir və bu da Allaha imanla yanaşıdır. Həmçinin insan gərək bu yolda addım atsın. (saleh əməl).

Əgər insan haqq yolu görməkdə problem ilə üzləşərsə, gərək bir-birini haqqa sifariş etməklə bu işi həll etsinlər. Eləcə də əgər yolu getməkdə problem yaranarsa, bir-birilərini səbrə tövsiyə etməklə bu problemi həll etməlidilər.

İnsanlar xəsarətdən xilas olmaq üçün, gərək həm fərdi işdə və həm də ümumi işlərdə kamala tərəf hərəkət etsinlər.

İnsan fərdi işlərdə iman və saleh əməl ilə, ümumi işlərdə isə haqqa və səbrə tövsiyə etməklə özünü xəsarətdən xilas etməlidir.

# İyirmi səkkizinci dərs

# Allahı unutmaq

İnsanşünaslıq dərsinə aid olan mövzulardan biri də, insanın özünü unutması mövzusudur. Əgər insan özünün varlığından qafil olmaq istəmirsə, gərək özünü tanısın.

İnsan Allahı unutmaqla, onun gözəl adlarını, ona aid olan paklıqlar və onun sifətlərindən qafil qalır. Nəticədə insan özünü ehtiyacsız və müstəqil hiss edir, zahiri səbəblərə üz tutur və Allahla öz fərdi (fəqr) əlaqəsini unudur.

İnsan Allahı unutmaqla, maddi ləzzətlər və heyvani şəhvətlərə batır və nəticədə maddiyyata tənəzzül edir. Bu işin sonu isə, insana yaranışının hədəfini və öz varlığını unutdurmaqla nəticələnir.

Çünki maddi nemətlərə qərq olan insan, yaranışının əsl hədəfini unudur.

Allah bu barədə Həşr surəsində buyurur: Allahı unudan və buna görə də Allahın onlara özlərini unutdurduğu kəslər kimi olmayın! Onlar fasiqlərdir.[1]

Yəni Allahı unutmaq, insanın özü özünü unutması ilə nəticələnər və buda əslində insan üçün bir cəza hesab olar.

Əgər insan öz həyatında Allahı unudarsa, onun qarşısına unutqanlıq çıxar, heyvani yaşayış və dünya ləzzəti onu özünə məşğul edər, əsl məqsədi unudub, özünü müstəqil və ehtiyacsız hiss edər.

Allah-taala Fatir surəsində buyurur: Ey insanlar! Allaha möhtac olan sizsiniz. Allah isə heç bir şeyə möhtac deyil, hər cür tərifə layiqdir.[2]

**يَا أَيُّهَا النَّاسُ أَنْتُمُ الْفُقَرَاءُ إِلَى اللَّهِ ۖ وَاللَّهُ هُوَ الْغَنِيُّ الْحَمِيدُ**

Əgər maddiyyata qərq olsaq, Allahdan uzaqlaşarıq və nəticədə özümüzü unudarıq. Ən böyük qəflət – özümüzü unutmaqdır (fasiqun). İnsan özünü unutduqdan sonra, artıq onun üçün günah etmək də çox rahat olar.

Mütəal Allah insanın özünü unutmaması barədə belə buyurur: Ey

1 Həşr,19.
2 Fatir, 15.

iman gətirənlər! Öz qeydinizə qalın![1]

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا عَلَيْكُمْ أَنْفُسَكُمْ

Və ya başqa bir ayədə belə buyurur: Bunun nəticəsində onlar (ağıllarını başlarına yığıb) öz-özlərinə müraciətlə: "Siz, doğrudan da, zalımlarsınız dedilər.[2]

فَرَجَعُوا إِلَىٰ أَنْفُسِهِمْ فَقَالُوا إِنَّكُمْ أَنْتُمُ الظَّالِمُونَ

Bəzən insan öz daxilində özü üçün xəyal qurur, amma həmin xəyal insanın həqiqi dəyəri deyil. Misal üçün, insanın hər hansı bir yerdə bir vəzifəsi, məscid insanları arasında hörməti var və ya müəyyən maddi imkana malik olduğu üçün, ona hörmət edirlər. Həmin şəxs bütün bunları nəzərə alaraq, elə düşünür ki, bunlar insanın həqiqəti və əsl dəyəridir.

Ona görə də, insan bütün bu "özlər"-dən çıxmalı və həqiqi özünə qayıtmalıdır.

İnsan özünü itirəndə, onun həqiqətə uyğun olan heç bir hissi olmur və onun üçün bu hal normal olaraq qalır.

Əgər insan öz istedadları ilə xəlifətullah və kəramət sahibi olmaq üçün düzgün addım atmayıb, özünü unudarsa, eləcə də abır və imanını əldən versə, bu onda heç bir neqativ hiss yaratmaz.

Amma əksinə, əgər pul, ev və məqamı əldən versə, narahat olar. Çünki belə olduqda, insan həm Allahı unudar, həm də ki, həmin maddi imkanları özününkü hesab edər. Bunlar baş verdikdən sonra isə, insan öz varlığının həqiqətini (mələkut tərəfini) unudub, imanı özünə yad hesab edər.

Bəzən insan yaxşı işi pis, pisi isə yaxşı təsəvvür edir.

Hücum var, amma müdafiə yoxdur. Yəni beyin həqiqətləri əksinə göstərir. Misal üçün, əgər insana pulu az versələr, buna dərhal reaksiya göstərir.

İmam Əli (ə) buyurur: Özünüzü unutmayın və özünüzə qayıdın. Həmişə özünüzə nəzarət edin (diqqət), göz həmişə xaricə baxmasın, daxili də görsün ki, səadətə çatsın. İnsan özünü unudanda varlıq qarətçilərinin talanından heç bir hissi olmur. Buna görə də hücumçu düşmənə tərəf heç bir qiyam baş vermir, insanın bütün idrak və təhriki əsarətə düşür.

---

1 Maidə, 105.
2 Ənbiya, 64.

## *İyirmi səkkizinci dərsin xülasəsi*

**Allahı unutmaq**

1 – Allahı unutmaq, Allahın gözəl adları və onun sifətlərindən qəflətə səbəb olur və nəticədə insan özünü ehtiyacsız və müstəqil görür və zahiri səbəblərə üz tutub, Allahla öz fərdi (fəqr) əlaqəsini unudur.

2 – Allahı unutmaq, insanın maddi ləzzətlər və heyvani şəhvətlərə qərq olmasına və öz yaranış məqsədini unutmasına səbəb olur. Nəticədə isə, insan öz məqsədini unutduğu üçün, özünü də unudur.

Həşr surəsinin 19-cu ayəsinə əsasən, əgər insan Allahı unudarsa, Allah onu özünü unutması ilə cəzalandırar.

İnsan özünü unudanda, öz şəxsiyyətinin qarətçilərinin talanından heç bir hissi qalmır. Buna görə də, insanda hücumçu düşmən əleyhinə heç bir qiyam və hücum baş vermir və onun bütün idrak və təhrik fəaliyyəti əsarətə düşür.

# İyirmi doqquzuncu dərs

# Qəlbin unutması

Quran ayələrinə əsasən, insan ikicəhətli yaradılmışdır.

1 – Mülki yaradılış (insanın maddi və yer varlığı).

2 – Mələkuti yaradılış (İnsanın səmavi və mənəvi varlığı).

Əgər insan mələkuti və mənəvi hissini unudarsa, onu maddi varlıq əhatə edər və nəticədə insan inkişaf edə bilməz, mənəvi cəhətdən ölər. Cismi ölmüş insanı qəbirstanlıqda dəfn edirlər, mənəvi ölü isə diridir və nəfəs alır, amma bununla yanaşı mənəviyyatdan istifadə etmədiyi üçün, nəfəs alan ölü hesab olar.

Mənəvi cəhətdən ölmüş insanlar, mələkuti tərəfini görmür. Qurana müraciət etsək, görərik ki, Allah insanı bəzən pisləyir, bəzən isə tərifləyir. Bunun səbəbi isə, insanların bəzisinin mənəvi cəhətdən ölü və ya diri olduğuna görədir.

Quran ayələrindəki "Nəfsin unutqanlığı"-ndan məqsəd, insanın mələkuti tərəfinin unutqanlığıdır. Əgər insan öz mənəvi varlığını unutsa və bu işi davamlı şəkildə yerinə yetirsə, diri ölü kimi olar.

Allah-Təala Ənfal surəsinin 24-cü ayəsində buyurur: Bilin ki, Allah insanla onun qəlbi arasındadır (onun istəyinə çatmasına mane ola bilər) və siz Onun hüzuruna toplanılacaqsınız.[1]

أَنَّ اللَّهَ يَحُولُ بَيْنَ الْمَرْءِ وَقَلْبِهِ وَأَنَّهُ إِلَيْهِ تُحْشَرُونَ

Əgər insan Allahı unutsa, öz qəlbini də unudacaq. Qəlbi unutmaqdan məqsəd, insanın özü-özünə diqqətsiz olması mənasındadır. Mələkuti (mənəvi) tərəfdən qəflətin səbəbi, insanın özündən qaynaqlanır. Əgər insan mələkuti dəyərini unudarsa, təbii varlıqla yaşayar və artıq insani inkişafa tərəf addımlaya bilməyəcək.

Həzrət Əli (ə) buyurub: Heyvani vəziyyətdə yaşamaq, aqil insan üçün bəyənilən deyil. Çünki insan, həqiqi insan olub, mələkuti tərəfini yüksəldə bilər. Əgər qəlbimizi tapmaq istəsək, əvvəl gərək Allahı tapaq. Çünki insanla qəlbi arasında körpü vardır.

Yəni əgər qəlbin mələkuti tərəfini tapmaq istəsək, əvvəl gərək Allahı

1 Ənfal, 24.

görək və əgər Allahı tapsaq, özümüzə də diqqət edərik.

İmam Əli (ə) buyurur: Hər kim özünü tanısa, Rəbbini də tanıyar.

مَنْ عَرَفَ نَفْسَهُ فَقَطْ عَرَفَ رَبَّهُ

Özünü tanıyan mütləq ondan əvvəl Allahı tanımışdır. Əgər insan həyatda Allahı unutmasa, onu yad etsə, qəlbində və vücudunda Allahın zikri olsa, belə bir vəziyyətdə özünün mələkuti tərəfi də yadında qalar.

Əksinə, əgər insan Allahı unutsa, özü də unudular.

Mütəal Allah bu barədə belə buyurur: Allahı unudan, buna görə də (Allahın) onları özlərinə unutdurduğu kəslər kimi olmayın! Onlar fasiqlərdir.[1]

وَلَا تَكُونُوا كَالَّذِينَ نَسُوا اللَّهَ فَأَنْسَاهُمْ أَنْفُسَهُمْ ۚ أُولَٰئِكَ هُمُ الْفَاسِقُونَ

Mümkündür ki, insanın maddi həqiqəti onun yadında olsun (heyvani tərəf) və insan yalnız həmin həqiqətə baxsın. Amma əgər mələkuti tərəfə baxmaq istəsə, Allahı xatırlamalıdır. Yəni əvvəl Allahı yada salmalı, sonra isə mələkuti tərəfə yönəlməlidir.

Bütün bu deyilənlərdən aşağıdakı nəticələri almaq olar:

A) İnsanın Allahla əlaqəsi olmalıdır.

B) Kamilliyə çatmaq üçün, insan gərək öz işlərində birinci Allahı nəzərdə tutsun.

Yəni əgər insan Allahı unudarsa, olduğu yerdə qalar. Amma əgər Allahı yada salıb, mənəvi inkişafa doğru addım atarsa, mələkuta tərəf yuxarı yüksələr və yüksəldiyi yerdən də aşağı tərəf baxar.

## *İyirmi doqquzuncu dərsin xülasəsi*

### Qəlbin qəfləti

Quran ayələrinə əsasən, insan iki varlıq ilə yaradılmışdır:

1- Mülki – Maddi və yer insani varlıq.

2- Mələkuti – Səmavi və insani varlıq.

Quran ayələrinə əsasən, nəfsin unudulmasından məqsəd, insanın mələkuti varlığının unudulmasıdır.

Əgər insan öz mələkuti varlığını unutmağa davam edərsə, həmin

1 Həşr, 19.

unutqanlıq insanın canlı ölüyə çevrilməsi ilə nəticələnər.

Allah-taala Ənfal surəsinin 24-cü ayəsində buyurur: "Allah insanla qəlbin arasındadır".

Əgər insan Allahı unutsa, öz qəlbini də unudacaq. Çünki insanın qəlbi, Allahın zikrindən sonradır. Yəni insan Allahı xatırlasa, öz qəlbini və onun dəyərini də unutmayacaq.

"Qəlbin unutqanlığından məqsəd, insanın öz mələkuti varlığından diqqətsiz olmasıdır".

# Otuzuncu dərs

# İnsanın üstünlükləri

إِنَّا هَدَيْنَاهُ السَّبِيلَ إِمَّا شَاكِرًا وَإِمَّا كَفُورًا

Biz ona doğru yolu göstərdik. Bundan sonra istər şükür etsin, istər nankor olsun.[1]

Digər varlıqlar ilə müqayisədə, insanın əqli var. Heyvanlarda ətraf mühitə qarşı nisbi agahlıq var və onlar öz düşmənlərini, eləcə də özlərinə məxsus olan qidaları ayırd edə bilirlər. Amma bununla belə heyvanlar aləmin sirlərindən xəbərsizdilər.

İnsan isə öz istedadları ilə dünya və onun qanunlarını kəşf edir və aləmi öz ixtiyarına ala bilir (təsxir). İnsan digər varlıqların sirlərindən agah olub, onları öz xeyrinə istifadə edə bilər. Heyvanda hiss var, amma onlar aləmdəki qanunları kəşf edə bilmir.

İnsanın digər canlılar ilə müştərək tərəfləri olsa da, onlar arasında bir sıra əsaslı fərqlər də var.

İnsanın digər canlılar ilə əsas fərqləri aşağıdakılardan ibarətdir:

A – İnsanlar heyvanlar ilə müqayisədə idrak, ağıl, özünü və dünyanı kəşfdə əqli tanıma mexanizmi ilə çoxlu həqiqətlərə çatırlar.

B – Heyvanlar ilə müqayisədə, cazibələrdə maddi və təbii cazibələrdən əlavə, mənəvi cazibələr də insanı əhatə edir.

İnsanın daxilində istedadlar var və o, həmin istedadları kəşf edə bilər. Heyvanlar isə yemək, yatmaq və şəhvətə qarşı meyildən başqa heç bir şeyə malik deyillər. İnsanın isə heyvanlar ilə müqayisədə əqli, mənəvi meyli, fədakarlığı və digər dəyərli xüsusiyyətləri vardır. Yəni insan yaşadığı aləmin yalnız zahirini yox, bəlkə onun qanun və sirlərini də müşahidə edir.

Ümumi olaraq insanın iki meyli vardır. Onlardan biri mənəvi, digəri isə təbii meyldir.

Mənəvi meyl dedikdə, insanın paklıq, elm, gözəllik, ibadət, əql və digər mənəvi keyfiyyətləri nəzərdə tutulur.

Təbii meyl dedikdə isə, yemək, içmək, yatmaq, şəhvət və bu kimi bir

---

1 İnsan, 3.

çox dünyəvi meyillər nəzərdə tutulur.

C) İnsanın digər canlılardan üçüncü fərqi, onun müxtəlif bacarıqlara sahib olmasıdır.

İnsan xasiyyətlərinin təsiri ilə əməl edir. Bitkilər daxillərində olan qüvvə ilə böyüyüb, təsir qəbul edir, amma onlar bu inkişafda heç bir iradəyə malik deyillər.

Heyvanlar bitkilərdən üstün varlıqlardır. Çünki heyvanlar azad olmasalar da, agahdılar (hiss edirlər).

İnsanlar isə bitki və heyvanlardan fərqli olaraq, həm azad, həm agah və həm də iradəyə sahibdirlər. Belə ki, insan öz meyillərinin qarşısında dayanıb, azad iradə ilə seçim edib, nəfsi qarşısında müqavimət göstərməyə qadirdir.

İnsanın iradəsi öz əqlinin ixtiyarında olduğu üçün, o ixtiyar sahibidir. İnsan heyvan kimi meyl ilə yaşaya bilər, eyni zamanda da əqli ilə aləmin sirləri və qanunlarını kəşf edib, iradə ilə meyillərini seçib, müqavimət göstərə bilər.

İnsan təbii və instiktiv meyl qüvvəsindən başqa, iradayə də malikdir. Buna görə öz daxili istəkləri qarşısında dayanıb, meyillərini əqlin fərmanı altına ala bilər.

## *Otuzuncu dərsin xülasəsi*

**İnsanın üstünlükləri**

İnsanın digər canlılar ilə müştərək tərəfləri olsa da, onlar arasında əsas və dərin fərqlər də var.

İnsanın digər canlılar ilə əsas fərqləri bunlardır:

A) İnsanlar heyvanlardan fərqli olaraq, idrak, özünü və dünyanı kəşfdə əqli tanıma mexanizmi ilə çoxlu həqiqətlərə çatırlar.

B) Heyvanlar ilə müqayisədə, cazibələrdə maddi və təbii cazibələrdən savayı mənəvi cazibələr də insanı əhatə edir.

C) İnsanın digər canlılardan üçüncü fərqi, insanın müxtəlif bacarıqlarıdır.

İnsanın təbii və instiktiv qüvvə və meylindən başqa, iradəsi də vardır. Buna görə də insan, öz daxili istəkləri müqabilində durub, bütün meyillərini ağlın fərmanına tabe edə bilər.

# Otuz birinci dərs

# Ruhun inkişaf etməsi

İnsanşünaslığa aid olan dörd mövzudan biri də, insanın digər insanlar ilə münasibətidir. Quranın bir çox ayələrində Allah-taala insanlara xitab edərək, buyurur ki, insan başqalarının malını qəsb etməməli, onların mallarını ucuzlaşdırmamalı və onların mallarını öz dəyərində və münasib qiymətə almalı, insanları öldürməməli, onların cisminə zərər vurmamalı və abırlarını qorumalıdılar.

Mütəal Allah Hücərat surəsində buyurur: "İnsanların abrını saxlayın, onların eybini üzlərinə vurmayın, zənn-güman etməyin, insanları pis ləqəb ilə çağırmayın, bir-birinizi yaxşı adlarla səsləyin. Sülhə tərəf gedin və dava etməyin. Bir-birinin iffətinə təcavüz etməyin və həyalı olun. Başqalarının namusuna toxunmayın".[1]

Əgər Quran ayələrinə diqqət etsək, görərik ki, Allah-taala insanlara başqaları ilə münasibətdə ümumi olaraq aşağıdakı dörd şeyi tövsiyə edir:

1 – Başqalarının mallarını qorumaq və onlara qarşı məsuliyyətli olmağın vacibliyi.

2 – Başqalarının canını qorumaq və bu işdə məsuliyyətli davranmaq.

3 – Başqalarının abrını qorumaq.

4 – Başqalarının namusunu qorumaq.

Deməli hər birimiz qeyd olunan dörd mövzuda başqalarının haqqını qorumalı və insanlara həmin sahələrdə zərər yetirməməliyik.

Gərək başqalarına qarşı kəramət, insaf və elm əsasında rəftar edək. Əgər insan başqalarına qarşı hüquq, əxlaq, fiqh və şəriət elmlərinə uyğun şəkildə riayət etsə, Allah dərgahında böyük mükafat qazanmış olar.

İnsan öz ruhunu böyütmək üçün, gərək əql və iradəsini inkişaf etdirsin. Bunun üçün o, öz müstəqil əqli ilə əqidə seçməli, kor-koranə və başqalarının sözü ilə heç bir əqidəni qəbul etməməlidir.

İnsan iradəsinin tərbiyəsi üçün, iki mərhələyə ehtiyac vardır. Onlardan biri budur ki, insan öz iradəsini gücləndirməlidir. Bu ona görə

---

1 Hucərat, 11-13.

lazımdır ki, insan güclü iradə vasitəsi ilə təbii meyllərinə nəzarət edə bilsin. Misal üçün insanın iradəsi güclü olsa, yemək, qəzəb, şəhvət və digər meyllərə qarşı öz nəzarətini bərpa edə bilər. Bu məsələni bir qədər geniş izah etmək istəsək, oruc tutmaq və onun fəlsəfəsini misal gətirmək olar. Belə ki, insan oruc tutanda, öz nəfsinə və şəhvətinə nəzarət edir və oruc tutmaqla, nəfsini və şəhvətini tənzimləyə bilir. Bunun üçün də güclü iradə lazımdır.

Güclü iradəyə malik olmaq üçün də, təqvaya ehtiyac var.

Əgər insanın nəzarət qüvvəsi çoxalarsa, təqvası da artar. Allah-taala Quranda buyurur ki, sədəqə ver ki, dünyapərəstlik meyli nəzarət olunsun. Namaz qıl ki, iradə artsın və günahın müqabilində dayan. Əgər insan iradə cəhətindən inkişaf etsə, özünə hakim olar və təbii meyllərini nəzarətə alar. İnsan öz meyillərinə nəzarət etməklə, onları normallaşdırıb, düzgün qaydaya sala bilər. Yanlış meyillərdən azad olmaq, mənəvi azadlıqdır.

İnsanın tərbiyəsində ikinci mərhələ, öz meyillərini əhatə etməsidir. Yəni insan mənəvi cazibələrini yaşayış meydanına gətirib, mənəvi meyllərin inkişafı və həqiqətpərəstliyi bəsləməli və bu yolda müqavimət göstərməlidir.

Quran ayələrinə diqqət etsək, görərik ki, Allah insanı seçilmiş varlıq olaraq tanıtdırır. Bu səbəbdən də onun missiyası və məsuliyyəti var. İnsan təsadüfi səbəblərə görə dünyada qüdrətə malik olmayıb.

Bəşərə aid olan, fərdi, ictimai, cismi, ruhi, maddi, mənəvi, fikri, atifi və bu kimi bir çox istedadlar, islam təlimlərinin diqqət mərkəzindədir.

İnsanın ruhunun inkişaf etməsi, iki istiqamətdədir:

**1 – Ağıl və fikrin bəslənməsi**

Yəni insan öz ruhunu inkişaf etdirmək üçün, gərək fikri cəhətdən azad olsun və öz əcdadı, böyükləri və digər şəxslərin rəftarını təqlid etməkdən uzaqlaşıb, bu işdə nəfsi ilə mübarizə aparsın. İslam dini bu işə çox əhəmiyyət verir.

**2- İradənin böyüdülməsi**

İnsan gərək güclü iradə ilə, öz meyil və istəklərinə qarşı çıxıb, nəfsini mənəvi azadlığı və iradəsinin hakimiyyəti altına salsın.

## *Otuz birinci dərsin xülasəsi*

**Ruhun inkişafı**

Quran ayələrində insanın seçilmiş varlıq olduğundan danışılır. Elə buna görə də insanın missiya və məsuliyyəti var. İnsan təsadüfi səbəblərdən dünyada qüdrətə malik olmamışdır.

İnsanın bütün cəhətlərinin, o cümlədən fərdi, ictimai, cismi, ruhi, maddi, mənəvi, fikri və atifi istedadları, islam təlimlərinin diqqət mərkəzindədir.

İnsan ruhunun böyüməsi, iki sahədə diqqət mərkəzində olur:

**1 – Ağıl və fikrin böyüdülməsi**

Yəni fikri azadlığın qazanılması, əcdad və böyüklərin, eləcə də əksəriyyətin rəftarını təqlid etməmək və əksinə, bu yolda mübarizə aparmaq, İslamın əhəmiyyət verdiyi mövzulardan biridir.

**2 – İradənin böyüdülməsi**

Yəni nəfs üzərində malikiyyəti qazanıb, meyillərin hakimliyindən mənəvi azadlığa tərəf yüksəlmək.

# Otuz ikinci dərs

## Dördtərəfli münasibətlər

İnsan öz dördtərəfli münasibətlərində inkişaf və təkamülə tərəf hərəkət etməlidir. Dördtərəfli münasibətlər dedikdə, aşağıdakılar nəzərdə tutulur:

A – İnsanın Allahla olan əlaqəsi.

B – Özü ilə olan əlaqəsi.

C- İnsanın digər insanlar ilə olan əlaqəsi.

D – İnsanın dünya və təbiət ilə olan əlaqəsi.

Əgər Quran ayələrinə diqqət yetirsək, görərik ki, Allah insana həmin dördtərəfli münasibətə diqqət etməyi tövsiyə edir. Hər bir insan, bu dördtərəfli münasibətə qarşı düzgün davranmalıdır.

Sağlam insan o şəxsdir ki, namaz qılır və oğurluq etmir. Quran baxımından düzgün insan, həmin dörd əlaqəyə qarşı sağlam və nizamlı davranan şəxsdir.

İnsanın varlığı sadəcə bir istiqamətli əlaqə ilə bitmir. Bəlkə insan hamını nəzarətdə saxlayıb, onları tənzimləməlidir. İnsan kamala tərəf düzgün formada addım atmalı və əgər bir sahədə irəliləsə, uğur qazanar və həmin əlaqədə inkişaf edib, digər əlaqələrdən də qəflətdə qalmaz.

İman dərəcəsinə çatmaq üçün, insan gərək Allahla öz əlaqəsini tənzimləsin. Bunun üçün Afaqi və Ənfusi nişanələrlə (daxili və xarici) Allaha iman gətirməli, zikr etməli və həmişə Allahı xatırlamalıdır. Belə olan təqdirdə, insanda Allaha olan məhəbbət və mərifət artar. İnsanın Allaha qarşı itaət, vilayət və ibadəti olmalıdır. Bu mənəvi yolların hər biri insanda inkişaf etməlidir. Əgər Allahı yad etsək, Allah da bizi yad edər və biz bunun vasitəsi ilə sakitlik taparıq. Əgər vilayəti qəbul etsək, zülmətdən çıxıb, nura doğru addımlayıb, nəticədə nurani olarıq. Əgər Allaha ibadət və itaət etsək, Allah ilə əlaqəmiz tənzimlənər.

İnsan Allahla əlaqədə mərifətə çatmalıdır. Mərifətullaha nail olanda, ilahi məhəbbət insanın qəlbində inkişaf edər, bu mərifət və məhəbbətin səmərəsi ilahi itaət və Allahın göstərişlərinə itaətdir. İnsan özü ilə əlaqədə həmişə inkişaf və çiçəklənmə halında olmalıdır. Özünü itirməməli və özünü daim yadında saxlamalıdır.

Allah Həşr surəsində buyurmuşdur: Əgər Allahı unutsanız, cəzası özünü unutmaqdır.[1]

Həmçinin Allah Maidə surəsində buyurur: Özünüzü unutmayın.[2]

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا عَلَيْكُمْ أَنْفُسَكُمْ

Yəni xudpəsənd olmayın, həqiqəttələb olun, mənəvi meylləri aradan aparmayın, həmişə inkişaf və kamal fikrində olun ki, xilas olasınız, əbəs varlığa çevrilməyin, xəsarətə düşməyin, düzgün ticarət (mənəvi) edin və özünüzü ucuz satmayın.

Məsumlardan (ə) nəql olunan bir çox hədislərdə tövsiyə edilir ki, insanın iki günü eyni olmalı deyil.

Belə ki, həmin hədislərə əsasən əgər insanın iki günü eyni olsa, insan ziyana uğramışdır. Əgər insanın dünəni bu günündən yaxşı olsa, Allahın rəhmətindən uzaqlaşmışdır. İnsan ruhi cəhətdən kamal yolunda olsa, onun həm elmi, həm mənəvi baxışı və həm də iradəsi artar.

Quran ayələrinin bəzisi hikmətdir və insana mərifət bəxş edir. Bəzi ayələr isə insana iradə bəxş edir. İnsan həmin ayələrə əməl etməklə, öz qəlbini böyüdür və Allah ona şərhi-sədr verir. İnsan mənəvi istiqamətdə düzgün addım atarsa, hadisələrdə istiqamət qazanıb, kamal və həqiqətə yetişər. Ona görə də insan gərək elmi və dini inkişafa tərəf addım atsın ki, mənəvi cəhətdən ölü olmasın və ziyana uğramasın.

İnsan, elmi baxımından ardıcıl şəkildə maarif qazanmaq və elm əldə etmək ilə, inkişafa doğru hərəkət edir. Nəfsin təmizlənməsi və qəlbin paklığının qazanılması ilə, mənəvi cəhətdən inkişaf edir.

---

1 Həşr, 19.

2 Maidə, 105.

## *Otuz ikinci dərsin xülasəsi*

**Dördtərəfli əlaqə**

İnsan dördtərəfli əlaqələrində kamal və inkişafa doğru irəliləməlidir. Həmin dördtərəfli əlaqə, aşağıdakılardan ibarətdir:

A) İnsanın Allahla olan əlaqəsi

B) İnsanın özü ilə olan əlaqəsi

C) İnsanın başqa insanlar ilə olan əlaqəsi

D) İnsanın dünya ilə olan əlaqəsi

İnsan Allah ilə əlaqədə, ilahi mərifətə çatar, mərifətullaha nail olduqda isə, ilahi məhəbbət onun qəlbində inkişaf edər. Bu mərifət və məhəbbətin səmərəsi isə, ilahi itaət və Allahın göstərişlərinə təslim olmaqdır.

İnsan özü ilə əlaqədə, həmişə inkişaf və çiçəklənmədə olmalıdır. İnsanın inkişafı iki formada gerçəkləşir:

A) Elmi inkişaf

Məqsəd insanın dini maarif qazanması və davamlı şəkildə elm əldə etməsidir.

B) Mənəvi inkişaf

Məqsəd nəfsin təmizlənməsi və qəlbin paklığının əldə edilməsidir.

# Otuz üçüncü dərs

# Dördtərəfli əlaqə

İnsan başqaları ilə əlaqə saxladığı zaman, onların dəyərlərinə və sərmayələrinə riayət etməli və haqlarını tapdalamamalıdılar.

Həmçinin başqalarının malına qarşı haqsızlıq etməməli və onların malına sahib çıxmamalıdılar.

Çünki Qurani-kərimə görə başqalarının malının hörməti qorunmalı və ona qarşı hörmətlə yanaşılmalıdır.

Bəzi insanlar başqalarının malına sahiblənmək üçün hakimə rüşvət verir və bu vasitə ilə öz marağına uyğun şəkildə hökm çıxararaq, başqasının malını mənimsəyirlər.

Amma həmin insanlar bunu başa düşmürlər ki, bu yanlış və günah işlər, həmin malı halala çevirmir.

Peyğəmbərimiz (s) buyurur: Mən dünyada and və ya şahidlə mühakimə edirəm, amma bu zahiri hökm, batini hökmləri dəyişmir. Əgər əslində bu mal və sərvət bizim və ya sizin deyilsə, şahiddən istifadə ilə sizin xeyrinizə hökm olunur, amma yenə də (həmin mal) sizin malınız deyil. Məhkəmənin anlamı budur ki, dünyada ixtilaf aradan getsin və həqiqət nə olursa olsun, qiyamətdə hər kəs cavabdeh olacaq.

Həmçinin Həzrət (s) buyurur: Hakimlərə rüşvət üçün verilən, eləcə də başqalarının haqqını mənimsəyərək, əldə edilən mallara yaxınlaşıb, onlardan istifadə etməyin.

Bəzi hədislərə görə rüşvətin günahı, Allahı inkar etməyin günahı qədərdir. Bunun səbəbi isə, məzlumun haqqının ayaq altında qalmasıdır.

Yaşadığımız dövrdə rüşvətin adı dəyişsə də, əslində rüşvət hədiyyə və rüsum adı altında yenə də insanlar içərisində qalmaqdadır.

İslam tarixini mütaliə etsək, görərik ki, peyğəmbərimiz (s) də rüşvət ilə mübarizə aparırdı. Tarixdə qeyd olunub ki, peyğəmbər bir nəfəri vali seçmişdi. Bir gün həmin vali peyğəmbərin (s) yanına gəldi və ona dedi: Mənim üçün hədiyyə gətirmişlər. Peyğəmbər (s) buyurdu: Oranın valisi olmasaydın, yenə hədiyyə gətirərdilər? Dedi: Xeyr. Sonra peyğəmbər (s) ona belə buyurdu: Bu rüşvətdir və halal deyil.

Allah Quranda buyurur: Səndən yeni doğan aylar (hilallar) barəsində soruşurlar. De ki: “Onlar insanlar və həcc üçün vaxt ölçüləridir”.

Yaxşı əməl evlərinizə arxa tərəfdən girməyiniz deyildir. Yaxşı əməl pis işlərdən çəkinməkdir. Evlərə qapılarından daxil olun və Allahdan qorxun ki, bəlkə nicat tapasınız![1]

Ayədən başa düşülür ki, hər bir şeyə öz yolundan daxil olmaq lazımdır və insan həmişə ən ağıllı və məntiqli yolu seçməlidir.

Əgər insan bu dörd əlaqədə sağlam olsa, hər cəhətdən kamala doğru addım atmış olar.

Bunu da unutmamalıyıq ki, kamil olmaq üçün bütün növ əlaqələrdə həqiqi kamala çatmalıyıq.

Həmin əlaqələrdən biri də, təbiətlə olan əlaqədir. Ona görə də bilməliyik ki, aləm və təbiət, təbiətin özü üçün yox, bəlkə insan üçün yaradılıb.

Təbiətin yaranmasında hədəf və məqsəd insandır. İnsan öz ömrünü, dünyadakı həyatını yaxşılaşdırmaq üçün puç etməməlidir. Dünyanın malları insanın inkişafı üçün istifadə olunmalıdır. İnsanın dəyəri dünya və təbiətdən daha üstündür. Ona görə də dünya insanın kamala çatması üçün pis yox, əksinə yaxşı vasitədir. Həmçinin dünya imtahan və inkişaf üçün bir nemətdir. Bəzən insandan hər hansı bir dünya malını alır, bəzən də əksinə, ona müəyyən bir dünya malı verirlər və insan bu vasitə ilə imtahana çəkilir.

İnsan dünyaya ona görə gəlib ki, dünyanı abadlaşdırsın.

Allah insanı yerdə yaradıb. İnsanın ruhu olsa da, cismi torpaqdan yaradılıb. Ona görə də Allah yerin abadlığını insandan istəyir.

Təbiəti abadlaşdırmaq insanın öhdəsindədir. Ona görə də ağacları məhv etmək, çayların suyunu qurutmaq və dağıtmaq olmaz. Təbiətə qarşı da məsuliyyətli olmaq lazımdır.

Allah bu aləmi insana əmanət olaraq verib. Ona görə də bu əmanəti qorumaq lazımdır. Ağacları kəsmək yox, bəlkə ağac əkmək lazımdır.

Çünki islam dininin əsas hədəflərindən biri də təbiəti abadlaşdırmaqdır.

Dünya, Allah tərəfindən insanlara verilən bir nemətdir, nemət isə məsuliyyət tələb edir. Dünyaya qarşı olan məsuliyyət isə, onu abad etməkdən ibarətdir.

Hər bir insan cəmiyyət içərisində dörd sərmayəyə sahibdir: can, mal, abır və namus. İnsan dünya ilə əlaqədə öz kamalı üçün dünyadan

1 Bəqərə, 189.

istifadə etməlidir. Dünya insan üçün əsl məqsəd deyil, bəlkə dünya, insanın müvəqqəti yaşadığı yerdir. Çünki dünya körpü və keçid yeridir.

## *Otuz üçüncü dərsin xülasəsi*

**Dördtərəfli əlaqə**

İnsanın başqaları ilə əlaqədə, aşağıdakı öhdəlikləri var:

Başqalarının sərmayələrinə riayət etməli və onları aradan aparmamalıdır.

Hər bir insanın cəmiyyətdə dörd növ sərmayəsi vardır.

1- Can sərmayəsi.

2- Mal sərmayəsi.

3- Abır sərmayəsi.

4- Namus sərmayəsi.

İnsanın dünya ilə əlaqədar olan vəzifəsi: İnsan dünyadan öz kamalı üçün istifadə etməlidir.

Dünya və onda olan müxtəlif nemətlər, insan üçün bəyənilməyən şeylər deyil, əksinə insanın kamala çatması üçün çox yaxşı vasitələrdir.

Dünya insanlar üçün körpü və keçid yeridir. Ona görə də dünya insanların əsl məqsədi yox, bəlkə müvəqqəti yaşadıqları bir məkan olmalıdır.

# İnsanşünaslıq mövzusuna aid olan bəzi məlumatlar

## Adəmin xilqəti, insanın əzəməti

Bəzi fərqlər və incəliklər istisna olunmaqla Adəm peyğəmbərin yaranışı, onun dünyaya gəlişi hadisəsi bütün səmavi dinlərdə müştərəkdir. Bəşəriyyətin başlanğıcı sayılan bu böyük və mühüm hadisə bütün dinlərdə öz əksini tapsa da, məsələyə İslam dini və onun müqəddəs kitabı olan Qurani-Kərim baxımından yanaşmağı qərara aldıq. Bu mövzuya tez-tez müraciət olunmasının səbəbləri çoxdur. Fikrimizcə, başlıca səbəb budur ki, Allah-Təalanın Adəmi yaratmaqda məqsədini dərk etmək, «mənim», «sənin» və ümumiyyətlə bütün bəşəriyyətin yaranmasında Onun məqsədini dərk etməyə bərabərdir. Qurani-Kərimin Adəm peyğəmbərlə bağlı bəzi ayələrinə nəzər salmaq məsələnin işıqlandırılması üçün mühüm əhəmiyyət kəsb edir. Quranda bir neçə yerdə bu məsələyə toxunulmuşdur və aşağıdakı ayələrdə həmən hadisəyə müxtəlif cəhətlərdən diqqət yetirilmişdir.

Doğrudan da, insanı qurumuş və qoxumuş qara palçıqdan yaratdıq. Və ondan əvvəl cini də səmum odundan yaratdıq. Bir zaman sənin Rəbbin mələklərə dedi: «Mən qurumuş və qoxumuş palçıqdan yaradacağam! Mən ona surət verib ruhumdan üfürdüyüm zaman siz ona səcdə edin!» Mələklər hamısı birlikdə ona səcdə etdilər. Təkcə İblisdən savayı. O, səcdə edənlərlə birlikdə olmaqdan imtina etdi. Buyurdu: «Ey İblis! Sənə nə olub ki, səcdə edənlərlə deyilsən.»Dedi: «Mən quru, qoxumuş qara palçıqdan yaratdığın bəşərə səcdə edən deyiləm.» Buyurdu: «Buradan çıx! Sən qovulmuşsan və sən cəza gününə kimi lənətlənmişsən.»[1]

Biz mələklərə – «Adəmə səcdə edin!» – deyəndə İblisdən başqa hamısı səcdə etdilər. [İblis] dedi: «Palçıqdan yaratdığın şəxsə səcdə edimmi?» [İblis yenə] dedi: «Bir de görək! Məndən əziz tutduğun şəxs budurmu? Əgər qiyamət gününə qədər mənə möhlət versən, az bir dəstədən başqa onun bütün nəslini mütləq darmadağın edərəm.»[2]

Rəbbin mələklərə belə dedi: «Mən palçıqdan bir insan yaradacağam».

1 Hicr, 25-35.
2 İsra, 61-62.

«Onu yaraşdırıb, ruhumdan üfürdüyüm zaman ona səcdə edin!» Mələklərin hamısı səcdə etdilər. Yalnız İblisdən başqa. O, təkəbbür göstərdi və kafirlərdən oldu. Buyurdu: «Ey İblis! Sənə mənim öz əlimlə yaratdığıma səcdə etməyə nə mane oldu? Təkəbbür göstərdin, yoxsa özünü yuxarı tutdun?» [İblis] dedi: «Mən ondan daha yaxşıyam. Çünki Sən məni oddan, onu isə palçıqdan yaratmısan!»[1]

Bəqərə surəsinin 30-39-cu ayələrində bu hadisənin mahiyyətini dərk etmək üçün dəyərli və dərin bəhslər insanların ixtiyarına verilmişdir. Hətta Allahın əsmanı Adəmə öyrətməsi, xilafət kimi məsələlər yalnız bu ayədə müşahidə olunur və Quranın başqa bir yerində belə bəhslərlə qarşılaşmırıq.

Bu hadisəyə münasibət müxtəlif mərhələlər sistemində təqdim olunur ki, hər bir mərhələ öz növbəsində çoxsaylı sual və mülahizələrin yaranmasına səbəb olur.

1- Adəmin xilqəti mərhələsi.

2- Adəmin xilafətə təyin olunması və mələklərlə məşvərət mərhələsi.

3- Mələklərin etirazı və Allahın cavabı mərhələsi.

4- Səcdəyə əmr və İblisin səcdədən boyun qaçırması mərhələsi.

5- Cənnətdə sakin olma, ağacdan yeməyə qadağa və şeytanın vəsvəsəsi mərhələsi.

6- Adəmin tövbə etməsi və yerə endirilməsi mərhələsi.

Yazımızda qeyd olunmuş bəhslərə qısaca da olsa, nəzər yetirilmişdir ki, insanın bununla bağlı düşüncə və fikirlərinin inkişafına yol açılsın.

**Adəmin xilqəti mərhələsi**

Allah Adəmi birbaşa torpaqdan yaratmışdır, yoxsa Adəmin xilqətinin başlanğıcı torpaqdandır? İnsanın bədən və ruhunun bir-biri ilə nə əlaqəsi vardır?

O bir kəsdir ki, yaratdığı hər şeyi gözəl yaratmışdır və insanın yaranışını isə palçıqdan başlamışdır. Sonra onun nəslini nütfədən – bir qətrə zəif, dəyərsiz sudan əmələ gətirdi. Sonra ona surət verdi və öz ruhundan ona üfürdü. Sizin üçün qulaq, gözlər və ürəklər verdi. Siz isə nə qədər az şükür edirsiniz![2]

---

1 Sad, 71-76.
2 Səcdə, 7-9.

Sizi torpaqdan, sonra nütfədən, sonra laxtalanmış qandan yaradan, sonra uşaq olaraq çıxardan, sonra kamillik çağına çatasınız, daha sonra qocalasınız deyə [xəlq edən] Odur. Müəyyən bir vaxta yetişəsiniz və bəlkə, düşünüb anlayasınız deyə edilir.[1]

Şərif ayələrdən məlum olur ki, Adəmin xilqəti birbaşa torpaqdan olmuşdur. Buna görə də, Allah-Təala İsanın (ə) xilqəti haqqında şübhənin aradan qaldırılması üçün Həzrət-Adəmin xilqəti məsələsini misal çəkir. Əgər Adəmin atası olsaydı, İsa Adəmə bənzədilməzdi.

Həqiqətən, Allah yanında İsanın məsəli Adəm kimidir. Onu torpaqdan yaratdı. Sonra dedi ki, ol! O da oldu.[2]

İnsanın bədəni ilə ruhunun əlaqəsi geniş bir fəlsəfi-irfani mövzudur ki, onun üçün müstəqil bəhslər açmaq lazımdır. Hazırkı kitab sırf "İnsanın bədəni ilə ruhunun əlaqəsi" mövzusu haqqında olmadığı üçün, burada həmin mövzu barədə danışmayacağıq.

### Xilafətə təyin olunma mərhələsi

Həqiqətən, Mən yerdə xəlifə qərar verdim.[3]

Xilafət nə deməkdir? Kimə xəlifəlikdən söhbət gedir? Xəlifə kimdir – Adəm peyğəmbər, yaxud hər bir insan xəlifə ola bilər?

Xilafət başqasının canişinliyini öhdəsinə alıb onun işini yerinə yetirməkdir. Ayələrin mənasından məlum olur ki, bu hadisədə Allahın xəlifəsi olmaq nəzərdə tutulur. Çünki birincisi, mələklərin sualı, Allahın cavabı, əsmanı öyrətmək vasitəsilə Adəmin məqamını göstərməyin ilahi xilafətlə tənasüblüyü vardır. İkincisi, mələklərin sualında:

– «Və biz Səni təsbih edirik və Səni müqəddəs sayırıq»[4] – cümləsi onu göstərir ki, mələklər bu məqam üçün, yəni xəlifətullah məqamı üçün özlərini Adəmdən üstün bilirdilər.

Ayədən görürük ki, mələklər fitnə törədən, qan tökən insanın xəlifəliyi ilə razılaşa bilmirdilər. Bunun bir çox səbəbləri var idi. Birinci səbəb budur ki, mələklər öz paklıqlarını, ismətlərini xəlifəliyin meyarı bilirdilər. Lakin bildiyimiz kimi mələklərdə olan paklıq müəyyən həddə malikdir. Belə ki, insan nəinki mələyin malik olduğu paklığa çata bilər, hətta ondan da yuxarı çıxa bilər. İkinci səbəbi isə budur ki, onlar

1 Ğafir, 67.
2 Ali İmran, 59.
3 Bəqərə, 30.
4 Bəqərə, 30.

Allaha deyirlər: «Biz səni təsbih və təqdis edrik.» Təqdis Allahı bütün eyiblərdən pak, münəzzəh bilmək, təsbih isə Allahın şəriksiz olmasını bildirir. Mələklərin baxışında təbiətən heyvan olan insan belə üstünlüyə malik ola bilməz.

Əgər Quranın bəzi ayələrinə diqqət yetirsək, görərik ki, bu müqəddəs kəlmələr gah «inna», gah da «inni» sözləri ilə başlayır. «inna»-nın mənası «həqiqətən, Biz», «inni»-nin mənası «həqiqətən, Mən» deməkdir. Bu fərqə əsaslanaraq deyə bilərik ki, bəzi işlər vasitəsiz, bəziləri isə vasitəli baş verir. Allah «inna» deyəndə özü və mələkləri, «inni» deyəndə yalnız özünü nəzərdə tutur. Belə məlum olur ki, Allahla xəlifəsi arasında heç bir vasitəyə ehtiyac yoxdur.

Nə üçün Allah yer üzərində Adəmi, insanı öz xəlifəsi təyin etmişdir? Məgər bu məqama layiq olan başqa varlıqlar mövcud deyil?

Aləmdə insandan başqa digər məxluqları dörd qrupa bölmək olar. Bunlar maddə, bitki, heyvan və mələkdir. İndi görək bunların fərqi nədir? Maddə öz-özlüyündə, öz daxilində bəzi hərəkətlər baş verən bir varlıqdır. Ondan bir az yuxarı varlıq bitkilərdir. Bitkilərdə nəfsi-nəbati adlanan can vardır. Bitki inkişaf edib böyüyər, sonra məhv olar. Bitki hərəkət etməz, çünki onun şüuru yoxdur. Heyvan bitkidən yuxarı varlıqdır. Heyvanın müəyyən qədər iradəsi, müəyyən qədər şüuru vardır. Heyvanlar özləri üç yerə bölünürlər: qəzəb, şəhvət və şeytənətli heyvanlar. Heyvanlardan yuxarı aləm isə mələklərdir. Mələklər pak varlıqlardır. Amma onların paklığı da müəyyən hədd çərçivəsindədir.

«Və bizdən elə birisi yoxdur ki, onun müəyyən bir yeri olmasın.»[1]

Lakin insanın məqamı müəyyən deyil. Mənası budur ki, insan ən aşağı səviyyədən sonsuz kamala doğru inkişaf edə bilər. Belə bir hal mələklərə məxsus deyil. Ona görə də meracda Cəbrayıl peyğəmbərə (s) deyir ki, mən bundan yuxarı uça bilmərəm ki, qanadlarım yanar. İslam peyğəmbərinin (s) meracı insanın kamillik zirvəsinə qalxmaq iqtidarında olmasına dəlildir.

Buna görə də, şeytan mələyin yanında otura bilər, amma kamil insanın yanında otura bilməz. Bu məsələdən çıxış edərək deyə bilərik ki, mələklər özlərini Adəmdən üstün tutmaqda yanılırdılar. Bütün sadaladığımız varlıqlarda nöqsan vardır. Yeganə insan, özü də kamil

---

1 Saffat, 167.

insandır ki, xəlifətullah məqamına layiqdir.

Digər qaranlıq qalan, sual doğuran məsələ budur ki, Allah-Təala yalnız Adəmi öz xəlifəsi təyin edir, yoxsa bu məqam bütün insanlara müyəssər ola bilər?

Ayənin davamında mələklərin sözündən bilinir ki, bu, təkcə Adəmə yox, bütün insan növlərinə aiddir.

Mələklər deyirlər: «Yer üzündə fəsad törədəcək və qan tökəcək bir kəs yaratmaq istəyirsənmi?»[1]

Adəm peyğəmbərdə qan tökmək, fitnə-fəsad törətmək kimi heyvani xislətlər yox idi. Allah-Təala da mələklərin sözünü təkzib etməyib buyurdu:

«Həqiqətən, Mənim bildiyimi siz bilmirsiniz».[2]

Yəni sizin sözünüz yalan, batil olmasa da, kamil də sayıla bilməz. Yuxarıda qeyd olunanlardan belə nəticəyə gəlirik ki, Allah-Təala təkcə Adəmi deyil, insanı özü üçün xəlifə təyin etmək istəyir. Allah torpaqdan yaratdığı bu varlığın ülvi istedada malik olduğundan xəbərdardır və bunu göydə olan varlıqlara, mələklərə bildirir.

Ayədəki (fil-arz) yerdə sözünün mənası bu deyil ki, insan yerdə xəlifədir və (fis-səma) səmada başqa bir varlıq xəlifədir. Əgər belə olsaydı, mələklərin etirazına heç bir lüzum olmazdı.

İnsan Mənim nəinki yerdə, nəinki göydə, mütləq şəkildə xəlifəmdir. Ayədən məlum olur ki, fil-arz sözü (xəlifə)-yə deyil, (cail) –nəyə aiddir. Amma bu xəlifənin məskəni yer olmalıdır, maddə aləmindən keçib səmadan qidalanmalıdır.

Quranda buyrulur: Sizin ruziniz və vədə olunan şey göydədir.[3]

## Mələklərin etirazı və Allahın cavabı

Mələklər nə üçün etiraz etdilər? Bu etiraz xəbər alma, təəccüb, ya bu xilafətin gələcəyindən nigaranlığın izharı idi? Mələklər haradan insanın fəsad yaradan, qan tökən olduğunu dərk etmişdilər? Mələklərin xüsusiyyətləri nədir?

Quran ayələrindən bizə məlumdur ki, mələklər məsum olduqlarına görə ilahi əmrə tabedirlər. Buna görə onlarda üsyan və itaətsizlik baş verməz.

---

1 Bəqərə, 30.
2 Bəqərə, 30.
3 Zariyat, 22.

Və dedilər: Rəhman özünə övlad götürdü. O, pak və müqəddəsdir. Xeyr, kəramətli qullardırlar. Allahın sözündən qabaq söz deməzlər və onlar Onun əmrinə əməl edərlər.[1]

Sərt təbiətli mələklər Allahın əmrinə asi olmurlar. Onlara nə əmr olunursa, yerinə yetirirlər.[2]

Onlar yuxarıda olan Rəbbindən qorxar və əmr olunanı yerinə yetirərlər. [3]

Yuxarıdakı ayələrdən belə qənaətə gəlirik ki, mələklər bu sualı verməkdə də Allahın əmrinə tabe idilər. Allah-Təala hadisəni elə bir şəkildə qurmuşdur ki, onlar sual verə bilsinlər və beləliklə insaniyyətin həqiqəti aydın olsun. Onların sualı hadisəyə etiraz yox, məsələnin aydınlaşması məqsədini daşıyırdı. Torpaqdan yaranmış bu varlığın belə heyvani xüsusiyyətlərlə xilafət yükünü necə çiyninə götürə bilməsini anlamaq istəyirdilər. Suallarının axırında «Və biz Səni təsbih edirik və Səni müqəddəs sayırıq»[4] sözləri göstərir ki, onlar Allahın eyibsizliyindən, nöqsansızlığından xəbərdar idilər. Bu fikri mələklərin sonrakı sözləri də təsdiq edir:

Həqiqətən, Sən əlim və həkimsən.[5]

Mələklər bu hadisədən Allahın hikmətini anlamaq istəyirdilər.

Digər tərəfdən sualla etiraz zahirdə bir-birinə oxşasa da, etiraz hökm və hadisənin inkarı, sual hökmün tələbi və hadisənin dərkidir. İnkarla dərk bir-birindən fərqlənir.

Dərk üçün verilən sualda qəbul və təslimlik yaranır, etirazda isə təkəbbür, qürur və rədd əmələ gəlir. Ayənin davamında oxuyuruq ki, həqiqətən, belə bir hadisə baş verir.

Biz mələklərə: «Adəmə səcdə edin!» – dedikdə, İblisdən başqa hamısı səcdə etdi. O lovğalanaraq imtina etdi və kafirlərdən idi.[6]

Araşdırılmalı başqa bir məsələ budur ki, mələklər insanın fasid və qan tökən olmasını haradan anlamışdılar?

Bu barədə ehtimal və nəzəriyyələr mövcuddur:

1) Əvvəlki insanlardan;

2) Yerdə olan varlıqlardan;

---

1 Ənbiya, 26-27.
2 Təhrim, 6.
3 Nəhl, 50.
4 Bəqərə, 30.
5 Bəqərə, 32.
6 Bəqərə, 34.

3) Allahın dediyi cümlədəki «Fil-arz» (yerdə) sözündən.

Çünki, yer fəsad və təzadlı məkandır, yerdəki varlıqlar şəhvət və qəzəblə bulaşıblar.

Görünür, mələklər insanın hazırki vəziyyətinə baxmışdılar. İnsan bilfel heyvan, bilqüvvə insandır. O elə qəribə bir varlıqdır ki, təbiətən heyvan, fitrətən insandır. İnsan yaranışının əvvəlində heyvandır ki, insaniyyət qazana bilər. Bu torpaqdan olan ərşi varlıq da (maddi-ruhi, bədən-ruh, fil-ərz – xəlifə) xəlifəlik istedadları gizlənmişdir ki, onları inkişaf etdirməklə məxluqatın əşrəfi olar. Görünür, mələklər insan istedadının çiçəklənməsi prosesindən xəbərsiz idilər. Çünki insan istedad mərhələsində heyvani hərəkətlərə malikdir və heyvani qərizələri fəal və görünəndir. Mələklər də belə bir varlığı görürdülər.

Adəmin xilqəti cərəyanında üç növ insanşünaslıq müşahidə olunur:

1- Allah-Təalanın insanı tanıması.

2- Mələklərin insanı tanıması.

3- Şeytanın insanı tanıması.

Şeytan onu maddə (Onu torpaqdan yaratdı)[1], mələklər onu heyvan (Fəsad törədəcək və qan tökəcək bir kəs[2]) və Allah onu insan və öz xəlifəsi bilir.

Şeytan onun əvvəlki maddəsinə (torpaqdan yaranmasına) baxırdı və bu varlığın keçmişinə əsasən hökm verir. Mələklər indiki vəziyyətinə baxıb hökm edirdilər. Allah-Təala isə istedadları, sərmayələri, daxilindəki gizli sirlərə əsasən hökm edirdi. Şeytan yalnız yolun başlanğıcını, mələklər yolun ortasını görür, Allah isə bütün yolu bilirdi.

Allah-Təala bu işin sübuta yetirilməsi üçün – Adəmə bütün əsmanı öyrətdi.[3]

Bu ayədə sual yaradan məsələlərdən biri əsmadır. Əsma deyəndə, yalnız adlar, ayrı-ayrı kəlmələr nəzərdə tutulur, yoxsa bunun başqa mənası vardır? Belə məlum olur ki, əsmadan məqsəd kəlmələr ola bilməz. Çünki Allah-Təalanın məşvərət etdiyi mələklər də bu əsmanı öyrənə bilərdilər.

İkinci dəlil odur ki, (Summə ərzuhum) (sonra onlara göstərdi) (hum) şəkilçisindən məlum olur ki, əsma şüursuz, cansız adlar üçün deyil,

---

1 Ali İmran, 59.
2 Bəqərə, 30.
3 Bəqərə, 31.

şüurlu varlıqlar üçün işlədilir. Başqa ayələri də nəzərdən keçirsək, görərik ki, bu Əsmayi-hüsna – Allahın gözəl adlarıdır. Digər məsələ budur ki, əgər adlar ayrı-ayrı sözlər olsaydı, mələklərə göstərilməzdi. Deməli, aydınlaşır ki, Allahın bu adlarını özündə cəmləşdirmək istedadına, qabiliyyətinə malik olan tək varlıq insandır.

Adəmə əsmanın hamısını öyrətdi. Sonra mələklərə göstərdi. Sonra [mələklərə] dedi: « Əgər düz danışansınızsa Mənə bunların adlarını xəbər verin.»[1]

Allah Adəmə vasitəsiz öyrədir. Kamil insan bütün elmləri, bilavasitə Allahdan alır. Merac hədisində Allah deyir ki, əgər insan dilini, mədəsini qorusa, ona hikmət verərəm. Deməli, insana müəllimlik Allahın öhdəsindədir.

Təqvalı olun! Allah sizə elm öyrətsin.[2]

Yuxarıdakı ayəyə əsasən bilinir ki, Adəm əsmanı öyrənir, mələklərə isə xəbər vermək əmr olunur. Öyrənmək və xəbəri olmaq arasında fərqlər mövcuddur. Öyrənmək – dərk etmək, onu öz həyatında tətbiq etmək mənasındadır. Xəbəri olmaq isə ondan aşağı səviyyədir. Bunu kiçik bir misalla izah edək. Sinifdə istedad və qabiliyyətə malik olan tələbələrə hər hansı bir elm haqqında məlumat verilir. Burada müəllimlə tələbə arasında elmi mübadilə prosesi gedir. Sinifdən xaricdə olan digər şəxsə dərsin gedişatını təfsilatı ilə çatdırmaq qeyri-mümkündür.

Ona dərsdəki məsələləri yalnız xəbər vermək olar və o da kiməsə bunu xəbər verə bilər. Çünki elm dünyasından xaric olan şəxsin Adəmin xilqətindən Allahın məqsədini dərk etməsi imkansızdır.

Bu yolla mələklər başa düşürlər ki, bu torpaqdan olan varlığın daxilində bütün əsmanı əhatə etməyə qadir olan istedadlar vardır və bu insan Allahın tam nişanəsi ola bilər ki, xilafət yalnız ona layiqdir.

Deyilənləri belə yekunlaşdıra bilərik ki, mələklə kamil insan arasında iki fərq vardır:

1- Mələklər elmi Allahdan birbaşa ala bilməz. Kamil insan isə elmi Allahdan vasitəsiz öyrənə bilər.

2- Mələklər hər şeyi bilməzlər, yalnız müəyyən səviyyədə xəbərdar

1 Bəqərə, 31.
2 Bəqərə, 282.

ola bilərlər.

**Səcdəyə əmr mərhələsi**

Biz mələklərə: «Adəmə səcdə edin!» – dedikdə, İblisdən başqa hamısı səcdə etdi. O, lovğalanaraq imtina etdi və kafirlərdən idi.[1]

Mələklərin Adəmə səcdəsinin mənası nədir? İblis nə üçün boyun qaçırdı?

Səcdə cərəyanı kamala təslimçilik və kamil varlığın əzəmətinin qəbuludur. Mələklər Adəmin ilahi xəlifəliyini dərk etdikdən sonra səcdə hadisəsində tam təslim oldular. Lakin şeytan daxilindəki küfrə görə təkəbbür etdi və səcdədən boyun qaçırtdı (Kanə minəl-kafirin) – «Kafirlərdən idi» – cümləsi keçmişdəki küfrünə işarədir.

Daxili xüsusiyyətlər imtahanlar, böhranlar, tufanlı hadisələrdə aşkar olur və özünü göstərir.

Adəmin xilqəti və ona səcdə əmrindən qabaq şeytanın təkəbbürünün üzə çıxması üçün şərait olmadığından onun küfrü də görünmürdü. Günah üçün zəmin yaranmayanda daxildə olan xasiyyətlər gizli qalır. İnsan özü də böhranlarda sınanır və tanınır. Mələklər arasında cin tayfasından olan (O cinlərdən idi[2]. Şeytanın mövcudluğu ona görə mümkün idi ki, böhranlı hadisə yaranmamışdı və küfr daxilində qalmışdı. Şeytan zahirdə mələklər kimi görünürdü və hələ sıralar ayrılmamışdı.

Dediklərimizin nəticəsini belə qruplaşdıra bilərik:

Birincisi, Şeytan öz təkəbbürü nəticəsində insanın ilahi tərəfini tanımadı. Buna görə də Allahın göstərişinə itaətdən imtina etdi və onu qəbul etmədi. Beləliklə, mələklərin təslimçiliyinin həqiqətini görmədi.

Adəmə ruhun üfürülməsindən sonra mələklərə səcdə göstərişi verildi. Yəni siz – «Torpaq qarşısında deyil insaniyyət qarşısında səcdə edirsiniz.»

Şeytanın bütün insanların kamalına düşmənçiliyi, Allahın davamlı xəlifə seçməsi qərarı və mələklərin etirazı göstərir ki, xilafət və səcdə cərəyanı təkcə Adəmə yox, insana aiddir.

**Cənnətdə sakin olma və ağacdan yeməyə qadağa mərhələsi**

Cənnət harada yerləşir? Yeməkdən qadağanın mənası nə idi? Peyğəmbər olan Adəmin isməti ilə üsyan necə düz gəlirdi?

---

1 Bəqərə, 34.
2 Kəhf, 50.

Quranda vədə verilən Cənnətin əlamətlərindən nəticə almaq olar ki, xilqətin başlanğıcında olan Adəm və Həvvanın Cənnəti vədə olunan Cənnət deyil. Qurani-Kərimdə Allahın vəd etdiyi Cənnət əbədidir (ora daxil olan çıxarılmaz) və o müxtəlif ayələrdə belə vəsflənir.

Onlar orada bir-birinə qədəh ötürəcəklər. Onda nə lağlağılıq, nə də günaha təhrik vardır.[1]

Biz onların ürəklərindəki kin-küdurəti çıxardıb atdıq. Onlar qardaş olub taxt üstündə qarşı-qarşıya əyləşərlər.[2]

Biz onların ürəklərindəki kin-küdurəti çəkib çıxardıq. Onların altından çaylar axar...[3]

Belə nəzərə gəlir ki, Adəm cərəyanı insan üçün həyat həqiqətlərinin dərkidir ki, insan özünü Yerdə yaşayış və tədrici təkamülə görə ilahi xilafətə tərəf hazırlasın. Birinci mərhələdə istedadlarının tanınması nəzərdə idi ki, xilafətin təyini, mələklərin sualı, Allah-Təalanın cavabı əsmanın təlimi şəklində gerçəkləşdi.

İkinci mərhələdə insanlıq üçün dost və düşmənin tanınması araşdırıldı ki, bu da səcdəyə əmr, mələklərin qəbul etməsi və İblisin üsyanı ilə aydınlaşdı.

Üçüncü mərhələdə bu istiqamətdə insanın zəif nöqtələrinin tanınması araşdırıldı. Yəni bu tədrici təkamül hansı maneələrlə üzbəüzdür.

İnsan xəlifə olmaq istedadına malik olsa da, daxilində olan tamah və nəfsi şeytanın cövlan etdiyi yerdir və o bu yolla insanın sorağına gəlir.

Belə ki, Cənnət və qadağan olunmuş ağac cərəyanı insanın seyrinə maneələrin dərkidir. Bu aləm yer aləmi deyildir ki, ilahi vəzifə, itaət və üsyan mənasında gerçəkləşsin. O aləm öyrənmə, vəzifə aləmi üçün hazırlıq aləmidir və hazırlıq mərhələsində üsyan şəriət baxımından üsyan deyil, yerdə yaşayış və təhlükələr üçün xəbərdarlıq və agahlıqdır.

Allah-Təala Yerdə xilafət məsuliyyətini çiyninə götürmək və kamal yolunu qət etmək istəyən insan üçün bir insanşünaslıq sinfi təşkil etmişdir ki, dünyəvi həyatda mələklər və şeytanın insanşünaslığına əsasən yaşamasın, özünü maddə, ya heyvan səviyyəsinə qədər alçaltmasın və hətta mələklər mərhələsində dayanmasın.

---

1 Tur, 23.
2 Hicr, 47.
3 Əraf, 43.

**Həzrəti-Adəmin tövbəsi**

Hazırlıq aləmində tövbə keçmiş hərəkətin həqiqətini dərk etməkdir. Allah-Təala bu mərhələdə insana öyrətmək istəyir ki, «xəta və günaha düşdünsə, bu, işin sona çatması, təkamül yolunda ola bilməzsən»- demək deyildir. Tövbə insana günahının əvəzini ödəmək üçün şərait və imkanların yaranmasıdır.

Quran ayələrinə əsasən deyə bilərik ki, insanın tövbəsi (onun Allaha qayıtması) Allahın iki tövbəsinin qəbuludur.

Tövbə surəsinin 118-ci ayəsində oxuyuruq:

Sonra Allah tövbə üçün onlara tərəf qayıtdı[1] Bu ayə birinci tövbəyə işarədir.

Tövbə lüğətdə mütləq şəkildə qayıtmadır. Allaha aid ediləndə, «Allah tövbə etdi»- deyiləndə mənası budur ki, Allah mərhəmət və lütfü ilə bəndənin tövbə imkanını yaratdı, bəndəyə qayıtdı və qəlbində tövbə etməyi ilhamlandırdı və ya bəndənin tövbəsini qəbul etdi.

Onun tövbəsini qəbul etdi.[2]

Bu ayə isə Allahın ikinci tövbəsi ilə bağlıdır

Yəni Allah günah nəticəsində bəndəni məhrum etdiyi rəhmətinə qaytarır ki, bu da bəndənin tövbəsinin qəbul olunmasıdır.

Adəm xilafətullahın məqsədini, əsmanın öyrənilməsi yolunu, mələkləri dostu, şeytanı xarici düşməni, tamah və nəfsi daxili düşməni, xəta və günahın ödənilmə yolu olan tövbəni bildikdən sonra insanşünaslıq kursunu bitirmiş sayılır.

Bəqərə surəsinin 30-cu ayəsinə əsasən Allah-Təala Adəmi Yerdə xəlifə təyin etmək istəyir.

Həqiqətən, Mən Yerdə xəlifə təyin etdim[3].

Adəm ona görə Yerə endirildi ki, ya ixtiyari təkamüllə hidayəti seçsin və ona tabe olsun, ya da hidayəti təkzib etsin və Allah buna da hazırlıq yaratmışdır.

---

1 Tövbə, 118.
2 Bəqərə, 37.
3 Bəqərə, 30.

# Mündəricat


1. Birinci dərs
   İnsanşünaslıq....4

2. İkinci dərs
   İnsanın kəraməti....9

3. Üçüncü dərs
   Adəmin xilqəti....12

4. Dördüncü dərs
   Əsmaullahın təlimi....15

5. Beşinci dərs
   Kəramət və ilahi əmanət....18

6. Altıncı dərs
   İnsanın ruhu (1)....21
   İnsanın ruhu (2)....25

7. Yeddinci dərs
   Qəlb, ruh (1)....29
   Qəlb-ruh (2)....31

8. Səkkizinci dərs
   Ümumi kütlənin hidayəti (1)....35
   Ümumi kütlənin hidayəti (2)....38

9. Doqquzuncu dərs
   Haqqa dəvət (1)....41
   Haqqa dəvət (2)....45

10. Onuncu dərs
   İnsanın ixtiyarı (1)....50
   İnsanın ixtiyarı (2)....52

11.On birinci dərs
İnsan ixtiyar sahibidir ........................................................ 57

12.On ikinci dərs
İnsanın ixtiyarı və işlərə cavabdeh olması ............................... 60

13.On üçüncü dərs
İnsan ixtiyara malikdir. ........................................................ 63

14. On dördüncü dərs
İnsanın imtahanı.................................................................. 66

15.On beşinci dərs
Ümumi imtahan .................................................................. 69

16.On altıncı dərs
İnsanşünaslıq mövzusu (üstünlük) .......................................... 74

17.On yeddinci dərs
Təkvini vilayət....................................................................... 77

18.On səkkizinci dərs
İnsanşünaslıq bəhsində hidayət............................................... 80

19.On doqquzuncu dərs

20.Quranın hidayəti müstəqil üsluba malikdir

21. İyirminci dərs
Xüsusi hidayət ..................................................................... 89

22.İyirmi birinci dərs
İnkişaf.................................................................................. 93

23.İyirmi ikinci dərs
İnsanın əməli........................................................................ 96

24. İyirmi üçüncü dərs
İnsanın etdiyi işlər ilə bağlılığı ................................................ 99

25.İyirmi dördüncü dərs
İnkişaf və xəsarət ........................................................................ 103

26.İyirmi beşinci dərs
İnsan tacirləri ................................................................................ 106

27.İyirmi altıncı dərs
Xəsarət ........................................................................................... 110

28. İyirmi yeddinci dərs
İnsanın nicatı ................................................................................. 115

29.İyirmi səkkizinci dərs
Allahı unutmaq ............................................................................. 118

30.İyirmi doqquzuncu dərs
Qəlbin unutması ............................................................................ 121

31.Otuzuncu dərs
İnsanın üstünlükləri ...................................................................... 124

32.Otuz birinci dərs
Ruhun inkişaf etməsi .................................................................... 126

33.Otuz ikinci dərs
Dördtərəfli münasibətlər ............................................................. 129

34.Otuz üçüncü dərs
Dördtərəfli əlaqə .......................................................................... 132

35.İnsanşünaslıq mövzusuna aid olan bəzi məlumatlar
Adəmin xilqəti, insanın əzəməti ................................................. 135